Hər kəs ədalətli olacaq
ƏDALƏT

## Hikmət Hacıyevdən Menendezə cavab: Utancvericidir!



**"Bu cür lobbizm, "pul danışıqları", azərbaycanlılara və başqalarına qarşı açıq-aşkar yalan və irqçi nifrət ABŞ Konqresinin imicinə və qlobal reputasiyasına xələl gətirir. Utancvericidir!".**

Adalet.az xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında ABŞ Senatının Xarici əlaqələr komitəsinin sədri, senator Bob Menendezə cavab olaraq yazıb.

Onun sözlərinə görə, Bob Menendez ciddi korrupsiya iddialarına cavab vermək əvəzinə, ABŞ Senatının Xarici əlaqələr komitəsinə yalan məlumat verir və saxta şəkillərlə yalan danışır: "Şəkildə təqdim olunan şəxs xərçəng xəstəliyindən dünyasını dəyişib.

Ermənilər özləri də tibbi sübutlar təqdim etdikdən sonra bu aşkar yalandan istifadə etməkdən utanırlar".

## ABŞ Dövlət Departamenti: Laçın və Ağdam yolu eyni anda açılmalıdır




**ABŞ Dövlət Departamenti Rusiya yardımının Ağdam yolu ilə Xankəndiyə çatdırılmasına münasibət bildirib.**

Adalet.az xəbər verir ki, Dövlət Departamentinin nümayəndəsi Yuri Kim yardımın Ağdam yolu ilə Xankəndiyə çatdırılmasını müsbət addım kimi qiymətləndirib. "İndi Laçın və Ağdam yolu Beynəlxalq Qırmızı Xaç Komitəsi üçün eyni anda açılmalıdır", - o qeyd edib. Qeyd edək ki, dünən Rusiya Qızıl Xaç Cəmiyyəti tərəfindən göndərilən yükün Xankəndinə keçidi baş tutub. Rusiya Qızıl Xaç Cəmiyyəti tərəfindən ərzaq və qeyri-ərzaq məhsulları ilə dolu, ümumilikdə 1 TIR ərzaq yükü artıq Ağdam rayonundan keçərək Xankəndinə doğru hərəkət edib.

Xatırladaq ki, Rusiya hökumətinin təşəbbüsü ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Rusiya Qızıl Xaç Cəmiyyətinin birgə əməkdaşlıq memorandumuna əsasən, Rusiya tərəfindən Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərinin ərzağa olan ehtiyaclarının qarşılanması məqsədi ilə, Rusiya Qızıl Xaç Cəmiyyəti tərəfindən göndərilən ərzaq və qeyri-ərzaq məhsulları ilə, ümumilikdə 1 TIR ərzaq yükü 2 gündür Bərdə şəhərində gözlədilirdi. Separatçı erməni dəstələri humanitar yardımın Ağdam-Xankəndi yolu ilə Xankəndinə getməsinə maneə törədirdi.

*Nicat Novruzoğlu*

## BİZ AFRİKALIYIQ?!

Bax:səh-3

## Azərbaycan sülh sazişi ilə bağlı şərhlərini Ermənistana təqdim edib



**"Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" saziş layihəsi ilə əlaqədar olaraq Azərbaycan tərəfi qısa müddət ərzində öz şərhlərini Ermənistan tərəfinə təqdim edib".**

Adalet.az xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistan rəsmilərinin sülh sazişi ətrafında əsassız bəyanatları ilə bağlı yerli mətbuatın sualına cavabında bildirib.

Onun sözlərinə görə, Ermənistan mətbuatının yaydığı bu məlumatlar həqiqəti əks etdirmir və Ermənistan tərəfinin növbəti manipulyasiyasıdır.

Xatırladaq ki, Ermənistan Respublikasının bir sıra rəsmiləri tərəfindən Azərbaycan və Ermənistan arasında "Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" saziş layihəsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası tərəfindən cavab şərhlərinin verilmədiyi iddiaları səslənməkdədir.

## "Xankəndidə qondarma "seçkiləri"n heç bir hüquqi əsası yoxdur"

**"Xankəndidə qondarma "prezident seçkiləri"nin heç bir hüquqi əsası yoxdur".**

Adalet.az xəbər verir ki, bunu Avropa Şurasının Baş katibi Mariya Pejçinoviç-Buriç "X" sosial şəbəkəsindəki hesabında yazıb.

"Regionda humanitar vəziyyət və beynəlxalq standartlara hörmət əsasdır. Avropa Şurası bütün tərəfləri gərginliyi azaltmağa, dialoqa, sülhü bərpa etməyə çağırır. Avropa Şurası bunları dəstəkləməyə hazırdır", - Mariya Pejçinoviç-Buriç əlavə edib.

## Zakir Həsənov Rusiya sülhməramlılarının yeni komandanını qəbul etdi



**Sentyabrın 12-də Rusiya Federasiyası Quru Qoşunlarının komandanı ordu generalı Oleq Salyukov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin yeni komandanı general-mayor Kirill Kulakovu müdafiə naziri general-polkovnik Zakir Həsənova təqdim edib.**

MN-dən Adalet.az-a verilən məlumata görə, müdafiə naziri qonaqları salamlayaraq, Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı etimada əsaslandığını qeyd edib. Qarabağ iqtisadi rayonunda əməliyyat şəraiti barədə danışan general-polkovnik Z.Həsənov son zamanlarda qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən törədilən təxribatların sayının artdığını xüsusi vurğulayıb.

Öz növbəsində Rusiya Federasiyası Quru Qoşunlarının komandanı ordu generalı O.Salyukov səmimi qəbula görə təşəkkürünü bildirib, ikitərəfli əlaqələrimizin tarixi köklərə əsaslandığını, ölkələrimizin strateji tərəfdaş olduğunu qeyd edib.

## Putin: «Ermənistan Qarabağı Azərbaycan ərazisi kimi tanıyıb»



**Ermənistan rəhbərliyi Azərbaycanın Qarabağ üzərində suverenliyini tanıyıb.**

Adalet.az xəbər verir ki, bunu Rusiya Prezidenti Vladimir Putin Vladivostokda keçirilən Şərq İqtisadiyyat Forumunun plenar iclasında bildirib.

"Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyıb. Ermənistan özü Qarabağın statusunu müəyyən edib", deyə Putin vurğulayıb.

Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 35 (6028) 15 sentyabr 2023-cü il | Qiyməti 40 qəpik

# "Xalqlarımızı çoxəsrlik qardaşlıq münasibətləri bağlayır"




Bax:səh-2

## Bu şəxslər üçün yeni güzəşt olacaq

**Valideyin himayəsindən məhrum olmuş 18 yaşına çatan şəxslər üçün yeni güzəşt tətbiq olunacaq.**

Adalet.az xəbər verir ki, bununla bağlı məsələ Milli Məclisin Əmək və sosial siyasət komitəsinin bu gün keçirilən iclasında müzakirə edilən "Sosial xidmət haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb.

Qanuna təklif edilən dəyişikliyə əsasən, həmin şəxslər çətin şəraitə düşmüş insanlar kateqoriyasına aid olunacaq və onlar da ev alana qədər dövlət müəssisələrində yaşayış yeri ilə təmin olunacaq.

Komitə sədri Musa Quliyev bildirib ki, həmin şəxslər 18 yaşına çatdıqdan sonra sosial xidmət müəssisələrindən çıxırdılar və ev alana qədər çox vaxt çətin vəziyyətdə olurdular, yəni kirayə haqqı verə bilmirdilər.

**"İndi həmin şəxslər də çətin şəraitə düşmüş insanlar kateqoriyasına aid olunacaq. Eyni zamanda, onları daha tez siyahıya salıb mənzillərlə təmin etmək mümkün olacaq", - deyə o əlavə edib.**

## Türkiyəli nazirdən Zəngəzur dəhlizi ilə bağlı önəmli açıqlama



**Türk Dövlətləri Təşkilatına daxil olan ölkələr olaraq biz 1 trilyon dolları keçən iqtisadi böyüklüyə malik qlobal gücə çevrilmə potensialına malik bir cəmiyyətik.**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin Nəqliyyat və İnfrastruktur Naziri Əbdülkadir Uraloğlu İstanbulda keçirilən Türkiyə Dövlətləri Təşkilatının (TDT) Multimodal Nəqliyyat və Logistika Forumunda deyib. Nazir qeyd edib ki, Zəngəzur dəhlizi Qafqazda normallaşma üçün həyati əhəmiyyət kəsb edir:

"Türkiyə ilə Azərbaycan arasında birbaşa dəmir yolu və avtomobil nəqliyyatını təmin edəcək bu əlaqənin həyata keçirilməsinin bütün türk dünyasını birləşdirəcək mühüm addım olacağına inanıram. Biz bütün region ölkələrinin faydalanacağı bu xətti, o cümlədən onun əlaqələrini mümkün qədər tez başa çatdırmaq üçün Azərbaycanla çox sıx işləyirik".

## RUSLARI DA ƏSGƏRANDAN BURAXMASALAR, ONDA XİYAR ƏYRİ BİTƏCƏK




**Neçə gündür ki, Azərbaycanın Qızıl Aypara Cəmiyyətinin 40 ton un yüklənmiş avtomobilləri qalıb Qarağacının yuxarısında, Əsgəranın ağzında, ermənilər onları Xankəndinə buraxmır. İndi Rusiyanın da Qırmızı Xaç Cəmiyyəti ərzaq məhsulları ilə dolu TIRı gəlib ki, Əsgərandan keçməklə Xankəndinə guya acından ölən ermənilərə yardım aparsın.**

Çox güman ki, guya acından ölən ermənilər Rusiyanın yardımını da Əsgərandan buraxmayacaqlar. Onda da xiyar əyri bətəcək.

Və belə çıxır ki, Rusiyanın sülhməramlıları ermənilərin əlində acız qalıb.

Belə davam edərsə, Rusiyanın sülhməramlılarını da erməni əsirliyindən azad eləmək bizim Milli Ordumuzun üzərinə düşəcək.

**Tanrı Ordumuzu qorusun!**

## 3 hərbi qulluqçumuz həlak oldu



**Sentyabrın 13-ü çətin relyefli dağlıq ərazidə hərbi nəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları Əliyev Taleh Saleh oğlu, Həsənov Elgün Elşad oğlu və Namazov Nihad Kamrəddin oğlu həlak olub.**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Nazirliyin rəhbərliyi bədbəxt hadisə nəticəsində həlak olan hərbi qulluqçuların yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

**Faktla bağlı araşdırma aparılır.**

## "Paşinyanın bəyanatları vəziyyətin gərginləşməsinə səbəb ola bilər"

**Ermənistanın baş naziri Nikol Paşinyanın bəyanatları Cənubi Qafqazda vəziyyətin gərginləşməsinə səbəb ola bilər.**

Adalet.az xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarova brifinqdə deyib.

O qeyd edib ki, bu cür qeyri-dost xarakterli bəyanatlar səsləndirilməməlidir. Zaxarovanın sözlərinə görə, bu cür bəyanatlar qəbulolunmazdır və zərərlidir, çünki normallaşma vəziyyətini korlayaraq, gərginləşdirə və pisləşdirə bilər.

"Bu, iki ölkənin Rusiyanın vasitəçiliyi ilə razılaşdığı hər şeyin reallaşmasına mane olacaq. Bu cür bəyanatlar tənzimləmə planının icrasına zərər yetirir", - deyə o əlavə edib.

Qeyd edək ki, bundan əvvəl Paşinyan vəziyyətin tənzimlənməsinə dair bütün bəyanatların "əsassız" olduğunu bildirərək, bununla da faktiki olaraq Azərbaycanla danışıqlar prosesindən çıxdığını bəyan edib.

Bundan başqa, guya "Dağlıq Qarabağ" adı altında ərazi vahidinin mövcud olduğunu xatırlatmaqla Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığına dair özünün bütün bəyanatlarını heçə sayıb.

## "Tehranın ürəyi"nə zərbə endirməyə hazırıq"




**"İranın dünyada İsrail və yəhudi hədəflərini vurmaq üçün 20-dən çox cəhdi olub. Günahkarları tapmaq üçün İsrail "Tehranın ürəyi"nə zərbə endirməyə hazırdır".**

Adalet.az xarici meiaya istinadən xəbər verir ki, bu fikirləri İsrailin "Mossad" kəşfiyyat idarəsinin rəhbəri David Barney bildirib. Təhlükəsizlik konfransında danışan Barney qeyd edib ki, İsrail müttəfiqləri ilə birgə son bir ildə Avropa, Afrika, Cənub-Şərqi Asiya və Cənubi Amerika da daxil olmaqla müxtəlif bölgələrdə 27 hücumun qarşısını uğurla alıb: "Bu hücumlar İran tərəfindən diqqətlə planlaşdırılıb və yönləndirilib. Biz danışarkən İran növbəti hücumları etməyə çalışır". D. Barney vurğulayıb ki, İsrailin cavabı sui-qəsdlərdə iştirak edən agentlərlə məhdudlaşmayacaq: "Bu hücumları təşkil edən komandirlər də vurulacaq və bu, İranın dərinliklərində, "Tehranın qəlbi"ndə olacaq".

## İran XİN: Qarabağ Azərbaycanın bir hissəsidir

**İran Qarabağı Azərbaycanın bir hissəsi hesab edir.**

Adalet.az xəbər verir ki, bu barədə İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani mətbuat konfransında Azərbaycanın Qarabağ bölgəsində qondarma rejimin sentyabrın 9-da keçirdiyi "seçkilər" barədə suala cavabında deyib.

"İranın mövqeyi aydın, sabit və şəffafdır. İranın Qarabağ ərazisi ilə bağlı mövqeyi heç kimdən gizli deyil. Qarabağ Azərbaycan Respublikasının bir hissəsidir", - Kənani qeyd edib.

## UKRAYNADA UDUZAN NATO ERMƏNİSTANDA İKİNCİ UKRAYNA YARATMAQ İSTƏYİR



**Heç kəsə sirr deyil ki, ABŞ başda olmaqla NATO dövlətləri Ukraynada Rusiyaya uduzur. Ukraynaya nə qədər silah yardım etsə də, hərbi texnika versə də, muzdlular göndərsə də Ukrayna işğal altında olan torpaqlarından hələ bircə metr də azad edə bilməyib.**

Ona görə də Ermənistanı qızışdırır, NATO erməni ordusu ilə birlikdə təlimə hazırlaşır, ermənilər də özlərini arxalı köpək hiss edib Azərbaycanı təxribata çəkir. Fikirləri də Ermənistanla Azərbaycan arasında yeni bir müharibə alovlandırmaq və Rusiyanı da həmin müharibəyə cəlb etməkdir.

Ermənistanın dövlət rəhbərləri də küyə getməyə öyrəndiklərindən yenə küyə gedirlər, həvəslənirlər, ancaq fikirləşmirlər ki, onlar bu dəfə Ermənistan dövlətini və erməni xalqını qumara qoyublar.

Arxalı köpəklər bilmirlər ki, bizdə iki tuzdu, hələ istəsək üçüncü tuzu da çıxardarıq.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## ERMƏNİLƏR BELƏ VƏHŞİLİYİ FRANSIZLARDAN ÖYRƏNİBMİŞ



*Həmişə fikirləşirdim, ermənilərin belə vəhşiliyinin sirrini tapa bilmirdim. Hətta Hitlerin faşizmi də II Dünya savaşında bu qədər vəhşiliyə əl atmamışdılar ki, ermənilər bizə qarşı atdı. Şəhər və kəndlərimizi darmadağın etdilər, yandırdılar, qəbiristanlıqları dağıtdılar və sair və ilaxır. Bunu bunlar kimdən öyrənibmiş?*

*Bu günlərdə Rusiyanın "Zvezda" kanalında çox maraqlı və faktlara söykənən bir sənədli film nümayiş etdirilirdi. Filmi əvvəldən axıra qədər izlədim. Film fransızların XIX əsrdəki Makronuna - Napoleonuna Rusiya ilə müharibəsinə həsr olunmuşdu.*

*Napoleon indiki NATO kimi kərtənkələ dövlətləri də başına yığıb Rusiya ilə müharibə edir və gəlib Moskvanı da tutur. Amma Moskvada duruş gətirə bilmir. Moskvadan çıxır, qərargahını Smolenskdə qurur, amma orda da tikiş tuta bilmir.*

Bax:səh-2

## Hande Harmancı: "Bu məsələdə güzəşt olmamalıdır"

**Qida məhsullarının təhlükəsizliyi ilə bağlı məsələdə güzəşt olmamalıdır. Qida təhlükəsiz və keyfiyyətli olmalıdır. Çünki təhlükəli qida milyonlarla insanın sağlamlığına təsir edir.**

Bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı "Avropa və Mərkəzi Asiyada Qida Standartlarının Təkmilləşdirilməsi və Alimentarius Kodeksinin fəaliyyətində iştirakın genişləndirilməsi" mövzusunda keçirilən beynəlxalq tədbirdə çıxışı zamanı deyib.

ÜST rəsmisi bildirib ki, innovasiyalara uyğunlaşma təmin edilməli, innovasiya və təhlükəsizlik arasındakı əlaqə düzgün qurulmalı, vahid səhiyyə sağlamlıq konsepsiyası ərsəyə gətirilməlidir: "İşimiz sadəcə qanunvericiliyin qəbulu ilə kifayətlənmir. Qida təhlükəsizliyi sahəsində davamlı və dayanıqlı tədbirlər həyata keçirməliyik".

# “Xalqlarımızı çoxəsrlik qardaşlıq münasibətləri bağlayır”



**Sentyabrın 14-də Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşü keçirilib.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə fəxri qonaq qismində iştirak edib.

Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Tacikistan Prezidenti Emoməli Rəhmon, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti Sadır Japarov, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tədbirdə çıxış etdilər.

Sonra çıxış üçün söz dövlətimizin başçısına verildi.

**Prezident İlham Əliyevin çıxışı**

-Hörmətli Emoməli Şaripoviç.

Hörmətli dövlət başçıları, əziz dostlar.

Əvvəlcə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşünün işində fəxri qonaq kimi iştirak etmək məqsədilə dəvətə görə Tacikistan Prezidenti, hörmətli Emoməli Şaripoviç Rəhmona təşəkkür etmək istərdim. Eyni zamanda, bu tədbirdə Azərbaycanın iştirakına verdikləri dəstəyə görə hörmətli həmkarlarıma minnətdarlığımı bildirirəm.

Mən bu il qardaş Tacikistana ikinci dəfə səfər edirəm. Apreldəki dövlət səfərim, səfər çərçivəsində qəbul olunmuş qərarlar və imzalanmış sənədlər münasibətlərimizin strateji xarakterini bir daha təsdiq etdi. Tacikistan Prezidentinin Azərbaycana dövlət səfərini səbirsizliklə gözləyirik. Əminəm ki, səfər əlaqələrimizin daha da möhkəmləndirilməsinə xidmət edəcək. Bu fürsətdən istifadə edərək dost Tacikistan xalqını Müstəqillik Günü münasibətilə təbrik etmək istəyirəm.

Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir.

Otuz ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur.

Mən Məşvərət Şurasının işində ilk dəfədir iştirak edirəm və əminliyimi bildirirəm ki, regional əməkdaşlığın bu formatı ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşmasına zəmin yaradacaq.

Son iki il ərzində mən Mərkəzi Asiya dövlətlərinə doqquz səfər etmişəm. Bu müddət ərzində bütün qardaş dövlətlərin başçıları Azərbaycana dəfələrlə səfərlər ediblər. İlin sonuna qədər qarşılıqlı səfərlərin fəal dinamikası davam etdiriləcək.

İkitərəfli əməkdaşlığın mühüm meyarlarından biri qarşılıqlı ticarətin və sərmayələrin artımıdır.

Sevindirici haldır ki, həmin iki istiqamət üzrə göstəricilər davamlı artıma malikdir. Keçən il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 3 dəfədən çox, bu ilin 7 ayı ərzində isə daha 50 faiz artıb.

Birgə sərmayə fondları yaradılıb, növbəti 3 il üzrə 1 milyard dollardan artıq qarşılıqlı sərmayələrin həcmi razılaşdırılıb. Biz artıq sənaye əməkdaşlığı, maşınqayırma, avtomobil sənayesi, gəmiqayırma, kənd təsərrüfatı, xüsusən də pambıqçılıq, ipəkçilik, bağçılıq və heyvandarlıq sahələrində çoxsaylı layihələri həyata keçiririk.

Mehmanxana işi və turizm sahəsindəki sərmayə layihələri ilk icra mərhələsindədir. Biz Mərkəzi Asiyadan olan şirkətlərin bu yaxınlarda Azərbaycanda yaradılmış Ələt Azad İqtisadi Zonasına marağını görürük.

Nəqliyyat və logistika sahəsi münasibətlərimizdə mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarları istiqamətində etibarlı tranzit ölkəsidir. Əks istiqamətdə tranzitin əhəmiyyəti də az deyil. Mərkəzi Asiyadakı qardaşlarımız bilirlər ki, Azərbaycanın bütün nəqliyyat-logistika infrastrukturu onlar üçün açıqdır.

Şərq-Qərb marşrutu ilə yükdaşımalarına artan tələbatı təmin etmək məqsədilə Bakı-Tbilisi-Qars dəmir yolu tərəfimizdən müasirləşdirilir.

Gələn il həmin yol ilə daşınan yüklərin həcmi 1 milyon tondan 5 milyon tona qədər artırılacaq. Buna paralel olaraq, Bakı Ticarət Limanının imkanları bugünkü 15 milyon tondan 25 milyon tona qədər artırılır.

Azərbaycan Xəzərdə 50-dən artıq gəmidən ibarət ən iri ticarət donanmasına malikdir. Mərkəzi Asiya ölkələrindən yük göndərənlərin artan tələbatını nəzərə alaraq, biz gəmiqayırma zavodunun imkanlarının genişləndirilməsi üzərində fəal çalışırıq. Yeni sərmayə layihələri başa çatdıqdan sonra, istehsal olunan tanker və quru yük daşıyan gəmilərin sayı bu gün ildə 6 gəmidən 10-15 gəmiyə qədər artacaq.

Daha böyük həcmdə tranzit yüklərini cəlb etmək üçün tariflərin optimallaşdırılmasını, tənzimləyici və gömrük prosedurlarının sadələşdirilməsini və ahəngdarlığını təmin etmək zəruridir. Tranzit daşımaların şəffaflığının və daşımalar prosesinin iştirakçıları üçün bərabər şərtlərin təmin edilməsində mühüm meyarlardan biri Şərq-Qərb nəqliyyat dəhlizinin rəqəmsallaşdırılmasıdır.

Ölkələrimiz arasında əməkdaşlığın yeni sahəsi fiber-optik infrastrukturun yaradılmasına yönəlmiş və üzərində fəal çalışdığımız ”Rəqəmsal İpək Yolu” layihəsidir.

Hörmətli həmkarlar, bu il BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı - SPECA-nın yaradılmasının 25 ili tamam olur.

Mən dəyərli dövlət başçılarına rəsmi dəvətləri göndərmişəm və bu ilin noyabrında Bakıda Sammitdə sizi görməkdən məmnun olaram.

Bu gün keçirilən görüşə dəvətə görə bütün dövlət başçılarına bir daha təşəkkürümü bildirmək istəyirəm və Mərkəzi Asiyanın qardaş xalqlarına sülh, əmin-amanlıq arzu edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

***

**Qeyd edək ki, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinin keçirilməsi təşəbbüsü 2017-ci ildə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən irəli sürülüb. Birinci görüş Qazaxıstanda, ikinci görüş Özbəkistanda, üçüncüsü Türkmənistanda, dördüncüsü isə Qırğızıstanda keçirilib.**

# Sahibə Qafarova Bolqarıstan Prezidenti ilə görüşdü

**Milli Məclisin sədri Sahibə Qafarova Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevlə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən Adalet.az-a verilən xəbərə görə, Azərbaycan parlament rəhbərini səmimiyyətlə salamlayan dövlət başçısı qeyd edib ki, Azərbaycan və Bolqarıstan sadəcə strateji tərəfdaş ölkələr deyil, həm də çox yaxın ölkələrdir. Ölkələrimiz arasında yüksək səviyyəli siyasi dialoq müntəzəm xarakter daşıyır. Onun sözlərinə görə, Azərbaycan və Bolqarıstan beynəlxalq müstəvidə baş verən bir çox proseslərə də eyni baxışlara malikdir, ölkələrimizin regionlarımızın sabitliyinə və təhlükəsizliyinə dair mövqeləri eynidir. Bolqarıstan Prezidenti ikitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edərək, Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci ildə və bu il Bolqarıstana, özünün isə 2023-cü ilin martında Azərbaycana səfərlərini xoş təəssüratlarla xatırlayıb.

Bolqarıstan Prezidenti, digər sahələrdə olduğu kimi, parlamentlər arasında əməkdaşlığın vacibliyini qeyd edərək, bu istiqamətdə də təmasların sıxlaşdırılmasının ikitərəfli münasibətlərin daha da inkişafına töhfə verəcəyini bildirib. O, həmçinin regionda sülh və təhlükəsizliyin təmin olunmasını istədiklərini, sülh danışıqlarını dəstəklədiklərini diqqətə çatdırıb.

Rumen Radev Azərbaycanla Bolqarıstan arasında enerji sahəsində də uğurlu nəticələrin müşahidə edildiyini qeyd edərək, bildirib ki, Azərbaycan qazı artıq Bolqarıstana gəlib çatıb. Strateji tərəfdaşlıq münasibətlərimiz yalnız enerji sahəsini əhatə etmir. Ölkələrimiz arasında digər sahələrdə də uğurlu əlaqələr mövcuddur. Azərbaycan və Bolqarıstan Avropa İttifaqının enerji təhlükəsizliyi ilə bağlı strateji baxışını icra etdi. ”Həmrəylik Halqası - STRİNG layihəsinin ölkələrimizin birgə təşəbbüsü olduğunu deyən Rumen Radev, həmçinin bildirib ki, SOCAR-ın Bolqarıstanda ofisinin açılması da bu sahədə uğurlu əməkdaşlığı göstərir. O, həmçinin ölkələrimiz arasında yaşıl enerji sahəsində də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu qeyd edib.

Göstərilən yüksək səviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirən Milli Məclisin sədri Sahibə Qafarova, Azərbaycan Prezidenti cənab İlham Əliyevin salamlarını Bolqarıstanın dövlət başçısına çatdırıb. O, dövlət başçılarının qarşılıqlı səfərlərinin, aparılan müsbət danışıqların ölkələrimiz arasında münasibətlərin inkişafında vacib rolunu qeyd edib. Spiker deyib ki, Prezident İlham Əliyevin 2022-ci ilin sentyabr - oktyabr aylarında rəsmi səfəri zamanı istifadəyə verilən Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru bu əməkdaşlıqda yeni səhifə açıb. Bu səfərin onun Azərbaycan Milli Məclisinin sədri kimi Bolqarıstana ilk rəsmi səfəri olduğunu xatırladan spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan ilə Bolqarıstan parlamentləri arasında əməkdaşlığın inkişafında qarşılıqlı səfərlər mühüm rol oynayır. O həmçinin, parlamentlərimizin müxtəlif beynəlxalq parlament



təşkilatları çərçivəsində sıx əməkdaşlığının daha da inkişafı üçün yaxşı imkanlar olduğunu, dostluq qruplarının birgə fəaliyyətinin bu istiqamətdə önəmini qeyd edib. Spikerin sözlərinə görə, dostluq qrupları müntəzəm təmaslar, dialoq və fikir mübadiləsi ilə parlamentlərimiz arasında körpü rolunu oynayır.

Sahibə Qafarova, həmçinin parlament komitələrinin işi vasitəsilə parlamentlər arasında əlaqələrin daha da dərinləşdirilməsi imkanları barədə də danışıb.

Milli Məclisin sədri Sahibə Qafarova görüşdə 2020-ci ildə Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbə və öz ərazi bütövlüyünü bərpa etməsindən sonra regionda yeni yaranmış vəziyyət barədə məlumat verib. Spiker hazırda Azərbaycanın öz imkanları hesabına işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı yenidənqurma və bərpa işləri həyata keçirildiyini, işğal qurbanı olmasına baxmayaraq, ölkəmizin beynəlxalq hüququn 5 prinsipinə, o cümlədən bir-birinin ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına, qarşılıqlı hörmətə əsaslanan sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə çıxış etdiyini, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı siyasi-hərbi təxribatlarını davam etdirdiyini diqqətə çatdırıb.

O, Azərbaycanın Qarabağ bölgəsində Ermənistan tərəfindən qondarma rejimin ”prezident seçkiləri”nin ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün, Azərbaycan Konstitusiyasının və qanunvericiliyinin, habelə beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması olduğunu qeyd edərək, beynəlxalq birliyin bütün üzvlərini Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş bu akta düzgün siyasi qiymət verməyə, təcavüzkar separatizmə qarşı öz səslərini ucaltmağa və adı çəkilən qanunsuz fəaliyyətləri qəti şəkildə pisləməyə çağırıb.

Sahibə Qafarova həmçinin, Ermənistanın ”blokada”, ”humanitar böhran” barədə yalan və əsassız iddiaları ilə bağlı məlumat verərək, deyib ki, Ermənistan bu cür həqiqətdən uzaq, uydurma iddiaları gündəmə gətirməklə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birbaşa hədəfə alıb. Spiker deyib ki, Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılmasına, suverenlik və ərazi bütövlüyünə qarşılıqlı hörmət əsasında sülh sazişinin imzalanmasına sadiqdir, o cümlədən Qarabağ bölgəsinin etnik erməni sakinlərinin ölkəmizin bərabərhüquqlu vətəndaşları kimi reinteqrasiyası üçün səylər göstərir.

Görüşdə humanitar sahədə də əməkdaşlığın vacibliyini qeyd edən spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan və Bolqarıstan xalqları arasında dostluq dövlətlərarası münasibətlərin inkişafı üçün möhkəm əsasdır. Xalqlarımız arasında humanitar əlaqələr zəngin tarixə malikdir. Xalqlarımızın mədəniyyət, incəsənət, elm sahələrində əməkdaşlığını sübut edən çoxlu faktlar var. Təhsil, elm, mədəniyyət sahələrində əməkdaşlıq xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına xidmət edir. O, xüsusilə 2016-cı ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Veliko Tırnovo şəhərinin Trapezitsa Memarlıq Muzeyi Qoruğunun bərpa edilməsinin sıx humanitar əlaqələrimizin daha bir nümunəsi olduğunu vurğulayıb. Həmçinin, 2022-ci ilin sentyabrında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa ilə Veliko Tırnovo şəhərləri arasında qardaşlıq əlaqələrinin yaradılması haqqında Memorandumun da önəmi ifadə edilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# *Hikmət Hacıyev:* "Azərbaycanlılar sülh istəyirlər"

**”ABŞ və onun Qərb müttəfiqlərinin Ukraynadakı müharibəyə yönəldilməsi dünyanın digər yerlərində olanlar üçün problem yaradır. Qarşılaşdığımız, eyni dərəcədə təcili və real olan münaqişələrin Qərbin güc dəhlizlərində və qəzet səhifələrində tam başa düşülməsini necə edə bilərik? Gəlin Qarabağdakı vəziyyətə nəzər salaq”.**

Bu fikirlər Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyevin ”Politico” saytında Qarabağdakı vəziyyətə həsr olunmuş məqaləsindəndir.

Məqaləni təqdim edirik:

Azərbaycanın Qarabağ bölgəsi 30 il ərzində qonşu Ermənistan tərəfindən işğal olunub. 1990-cı illərin əvvəllərində bir milyona yaxın azərbaycanlının öz doğma yurdlarından didərgin düşdüyü və etnik təmizləməyə məruz qaldığı amansız müharibədən sonra işğalçı Ermənistan silahlı qüvvələri onun mərkəzində kiçik bir nöqtə istisna olmaqla, minlərlə kvadratmetr ərazini minalayıblar. Azərbaycanın bu ərazisində qalan etnik ermənilərin icması Ermənistanla yeganə quru yolu - Laçın yolu ilə əlaqə saxlayırdı.

Bu ”boz” qanunsuzluq və mina zonası üç il əvvəl 44 günlük müharibə nəticəsində Azərbaycan Qarabağ ərazilərinin böyük hissəsini geri alana qədər mövcud idi.

Hüquqi və mənəvi baxımdan bu ”boz zona” çərçivəsində yaşayan insanlar Azərbaycan vətəndaşlarıdır - hətta Ermənistanın indiki baş naziri də Qarabağın Azərbaycanın suveren ərazisi olduğunu açıq şəkildə etiraf edir. Bu, həmçinin, o mənaya gəlir ki, Azərbaycan etnik mənsubiyyətindən asılı olmayaraq orada yaşayan adamların hamısının qayğısına qalmağa borcludur, üstəlik, yaxın tarixdəki hadisələri nəzərə alanda bu məsuliyyət daha da artır.

Azərbaycan hökuməti dəfələrlə Qarabağ ermənilərinin ərzaq, dərman və bir çox digər ehtiyaclarının Laçından daha yaxın və sürətli yollarla təmin olunmasını təklif edib.

Azərbaycanın təklif etdiyi quru marşrutları Avropa İttifaqı, ABŞ və Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən həyat qabiliyyətli və istifadəyə yararlı kimi tanınıb və məhz bu həftə ABŞ-nin Dövlət katibi Antoni Blinken ”hər iki dəhlizin dərhal və eyni vaxtda açılmasına” çağırıb.

Amma beynəlxalq mediada yazılanlar tamam başqadır. Təkcə Ermənistanın qonşu ölkədə - Azərbaycanda yaşayan etnik erməniləri vahid monoetnik marşrutla təchiz etməli olması fikri - bizdən inanmağımızın xahiş edildiyi kimi - beynəlxalq ictimaiyyət və media üçün nədənsə məqbuldur. Bizə deyirlər ki, bu münaqişə digərlərindən fərqlidir, ermənilər tariximizə görə azərbaycanlılarla çiyin-çiyinə yaşaya bilmirlər. Ancaq həm keçmişimiz, həm də bu günümüz bizə bunun, sadəcə, həqiqət olmadığını öyrədir.

1990-cı illərdəki müharibədən əvvəl Qarabağda azərbaycanlılar və etnik ermənilər çiyin-çiyinə sülh şəraitində yaşayırdılar. Bu gün Azərbaycanda 30 min nəfərlik yəhudi icması yaşayır. Yevangelist xristianların icması getdikcə artır. Gürcülər, ruslar, ukraynalılar - hamısı bugünkü çoxmillətli və çoxkonfessiyalı ölkəni təşkil edir. Bu, Qarabağ ermənilərinə də aid ola bilər və olmalıdır da.



Lakin Ermənistanın daxilində vəziyyətin dəyişməsini və ya bu tarixin tam açıqlanmasını istəməyən güclü qüvvələr var.

Onilliklər ərzində ölkəyə rəhbərlik Ermənistandan olan ermənilər tərəfindən deyil, Qarabağdakı separatçı rejimə rəhbərlik edən siyasətçilər tərəfindən həyata keçirilib.

Bu gün belə liderlər qisas almaq istəyirlər. Azərbaycan və Ermənistanın təklif etdiyi sülh müqaviləsi onlar üçün lənət kimidir. Qonşu Azərbaycanla ticarət erməni xalqının vəziyyətini yaxşılaşdıra bilərdi, lakin bu liderləri mövcudluq mahiyyətindən məhrum edərdi. Və bu siyasətçilər nüfuzlarını saxlamaq uğrunda mübarizədə Azərbaycanın təchizatı həyata keçirdiyi yolların bağlanmasını və bloklanmasını tələb edirlər.

Bu millətçilərin öz ölkələrinə və bütün regiona vurduqları ağrı-acını son nəsli nisbi sülh şəraitində yaşayan qərblilərin tam başa düşməsi çətindir.

Ofisimdə Ermənistanda doğulub boya-başa çatmış azərbaycanlılar işləyirlər. Onlar 30 ildən də çox öncə - müharibə başlayanda ölkəni tərk etmək məcburiyyətində qalıblar.

Və bizim ətrafımızda müharibə illərində Qarabağı tərk etməyə məcbur qalan, məcburi köçkün həyatı yaşamağa məhkum olan insanlar çoxdur - qardaş, bacı, əmioğlu, dost, həmkar... Bu məhv edilmiş həyatlar, ağrı-acılar - bütün bunlar bugünkü monoetnik Ermənistanı yaratmaq və Qarabağda monoetnik ”boz zona”nı saxlamaq naminə baş verib. Amma bu belə davam etməməlidir.

Azərbaycanlılar sülh istəyirlər. Biz bərpa, barışıq və bəlkə də, nə vaxtsa qonşumuzla dostluq münasibəti istəyirik.

Əksini təsdiqləyən hekayələr sülhü təşviq etmir və razılaşmaya gətirmir. Üstəlik, onların yayılmasının məqsədi tam əksdir - onlar bu incə məsələnin hər iki tərəfində danışıq aparanları daha da uzaqlaşdırmaq üçün nəzərdə tutulub.

İndiki məsələdə söhbət siyasətdən gedir. Bu, hər yerdə olduğundan daha çox, Ermənistanın özünün siyasətidir.

# Ermənilər yenə təlaşlandı: Hacıyevin müsahibəsindəki mühüm detal

**Dünən Rusiyanın 15 tonluq yardımını qəbul etdikdən sonra Ağdam yolunu yenidən barrikadalarla bağlayan separatçılar bu yolun heç vaxt açılmayacağını duyurdular. Hətta Ermənistan parlamentinin deputatı Tiqran Abramyan ”Laçın dəhlizinin açılması ilə bağlı intensiv danışıqlar davam edir” deyə açıqlama verdi.**

Baxmayaraq ki, erməni deputat ” yolun açılmasının 12 saat, yoxsa 24 saat ərzində baş verəcəyini deyə bilmərəm, amma indi də dəhlizin ən qısa zamanda açılması üçün gərgin səylər davam edir” desə də , erməni mediası onu öz bildiyi kimi yazıb: ””Minimum 12, maksimum 24 saat ərzində Laçın yolu açılacaq və humanitar yüklər Xankəndiyə daxil olacaq”. Erməni mənbələrdə həm də qeyd edilirdi ki, Beynəlxalq Qızıl Xaç Komitəsi 12-24 saat ərzində Laçın yolu vasitəsilə əraziyə humanitar yükün daşınmasına başlayacaq. Adalet.az bildirir ki, ermənilərin xəyalları yenə suya düşüb. Beləki, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev X (Tvitter) platformasında paylaşımında qeyd edib. Azərbaycan Laçın dəhlizini açmaq fikrində olmadıqlarını qeyd edib: ”Biz sentyabrın 1-də Prezident İlham



Əliyevlə ABŞ Dövlət katibi Entoni Blinken arasında telefon danışığı zamanı razılaşdırıldığı kimi, Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının BQXK yük maşınları üçün ən tez və eynivaxtlı açılmasını təmin etmək üçün əlaqələri davam etdiririk: ”Həmin vaxtdan 12 təqvim günü ötüb, lakin Ermənistana tabe olan qanunsuz rejim bu keçidə icazə verməkdən və yolların açılmasından imtina edir. Biz beynəlxalq tərəfdaşlarımızı öz səylərini ikiqat artırmağa, Ermənistana və onun proksisi, ona tabe olan qanunsuz rejimə bu dağıdıcı siyasətinə son verməsi üçün təzyiq göstərməyə çağırırıq.

”Boz zona” status-kvosunun saxlanılması və humanitar məsələlərdən qəsdən silah kimi istifadəsi onların faydasız strategiyasıdır”. Erməni mediası onu da qeyd edir ki, separatçı rejimdə yaşayan ermənilər Laçın dəhlizinin açılacağına çox ümidli idilər.

***P.S. Seçimi özünüz etdiniz...***

**Əntiqə Rəşid**

*AQİL ABBAS*

# *ERMƏNİLƏR BELƏ VƏHŞİLİYİ FRANSIZLARDAN ÖYRƏNİBMİŞ*

*Həmişə fikirləşirdim, ermənilərin belə vəhşiliyinin sirrini tapa bilmirdim. Hətta Hitlerin faşizmi də II Dünya savaşında bu qədər vəhşiliyə əl atmamışdılar ki, ermənilər bizə qarşı atdı. Şəhər və kəndlərimizi darmadağın etdilər, yandırdılar, qəbiristanlıqları dağıtdılar və sair və ilaxır. Bunu bunlar kimdən öyrənibmiş?*

*Bu günlərdə Rusiyanın "Zvezda" kanalında çox maraqlı və faktlara söykənən bir sənədli film nümayiş etdirilirdi. Filmi əvvəldən axıra qədər izlədim. Film fransızların XIX əsrdəki Makronuna - Napoleonuna Rusiya ilə müharibəsinə həsr olunmuşdu.*







*Napoleon indiki NATO kimi kərtənkələ dövlətləri də başına yığıb Rusiya ilə müharibə edir və gəlib Moskvanı da tutur. Amma Moskvada duruş gətirə bilmir. Moskvadan çıxır, qərargahını Smolenskdə qurur, amma orda da tikiş tuta bilmir.*

*Moskvadan çıxarkən Moskvanı yandırır, binaları partladır, həmin vaxt Moskvada 4 min binadan 3 mindən artığını yandırır və ya partladır. Sonra Smolenski də o günə qoyur. Geri çəkildikcə qarşısına çıxan bütün şəhər və kəndləri yandırır. Kəndlərdə adamları kilsəyə yığıb kilsələrə od vurur. Sonra da arxasını tuta-tuta Fransaya qaçır. Rusiyadan çıxana qədər önünə çıxan bütün şəhər və kəndləri erməni Ağdamı, Füzulini, Kəlbəcəri nə günə qoymuşdusa o günə qoyur.*

*Kutuzovun başçılığı ilə rus qoşunları da onu Parisə qədər qovur.*

*Napoleonun Moskvada keçirmək istədiyi və keçirə bilmədiyi hərbi nümayişi sonda Kutuzov Parisdə keçirir.*

*Və belə qənaətə gəldim ki, ermənilər belə vəhşiliyi böyük bacıları fransızlardan öyrənibmiş. Və bilmirlər ki, sonları da fransızların gününə düşə bilər. Günlərin bir günü Azərbaycan Ordusu İrəvanda hərbi parad keçirər.*

*Atalar deyir: "Fahişəlik və oğurluğun ömrü 40 gün çəkər". Ermənilərin fahişəliyi və oğurluğu 30 il çəkdi və onların fahişəliyinə və oğurluğuna 44 günlük müharibədə son qoyduq.*

*Amma öyrənmişə tövbə yoxdur, yenə fahişəliklərindən qalmırlar. İndi onları tövbələtmək zamanı çatıb.*

*Atı atın yanında bağlasan rəngini götürməsə də, xasiyyətini götürər. Ermənini də fransızların yanına bağlasan mədəniyyətlərini götürməsə də, fahişəliyini götürər. Və ya tərsinə.*

# *“Rusiya Avropa İttifaqı ilə əlaqələri dayandırmalıdır”*

**Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev, Telegram kanalında bəyan edib ki, Rusiya Abtopa İttifaqı ilə diplomatik əlaqələri dayandırmalıdır.**

Avropa İttifaqı rusiyalıların şəxsi smartfonları və avtomobilləri ilə Avropaya girişinə qadağa qoyub. Avtomobili bilmirəm, amma məlum olduğu kimi smartfon və planşet Dimitri Medvedevin yaralı yeridir. Adam onlarsız bir addım da atmaz. Medvedevin sözlətinə görə, avropalılara qarşı simmetrik tədbirlər görmək lazım deyil. ”Biz bir çox ölkə rəhbərləri kimi rasist deyilik”- deyə o, bildirib.



Təhlükəsizlik Şurasının sədr müavini əlavə edib ki, ”səfirliyin bu yanaşma ilə bağlı təxliyyə olunması, Avropada təlaş yarada bilər”.

Medvedev elə düşünür ki, Avropa Rusiyanı itirməklə, çox şeylərdən məhrum ola bilər. Bu arada Putinin yaxın silahdaşı öz ampulasında ABŞ və Qərbi təhdid etmək ritorikasını bir daha nümayiş etdirib. Medvedev, 11 sentyabr terror aktının təkrarlana biləcəyini, Vaşinqtonun apardığı siyasətin nəticəsində bu riskin artdığını və özü də yeni terror aktlarının, nüvə və yaxud baktreoloji vasitələrlə həyata krçirilə biləcəyini istisna etmədiyini bildirib.

Rusiya Təhlükəsizlik Şurasının sədr müavini bir növ özü də bilmədən və ya bilərəkdən dolayısı ilə, 11 sentyabr terror aktında Rusiyanın iştirak etdiyini etiraf etmiş kimi görünür.

Əslində dünyada terror təşkilatlarının ABŞ və Rusiyanın ”xeyirduası” ilə yaradıldığı sirr deyil. Hətta artıq bunu açıq şəkildə, qeyri-rəsmi silahlı qruplaşmalar yaratmaqla da davam etdirirlər. On minlərlə peşəkar hərbiçilərdən və zeklərdən təşkil olunmuş ”Vaqner” kimi silahlı qruplaşmalar bina misal ola bilər.

Yəni Rusiya kimi bir dövlətin prezidenti, Baş naziri olmuş, hazırda Təhlükəsizlik Şurasının sədr müavini vəzifəsində işləyən bir adamın təhdidləri əsaszız sayıla bilməz.

Faktiki olaraq bütün dünyanın hər tərəfdən sıxışdırmağa çalışdığı Rusiyadan hər zaman təhlükə gözləmək üçün ciddi əsaslar var...

**Rüstəm Hacıyev**

# *AB-nin Türkiyə ilə əlaqələri inkişaf etdirmək istəyi yoxdur*

**AB ölkələri arasında Türkiyə ilə əlaqələrin inkişafı baxımından nə istək, nə də konsensus var.**



Adalet.az xəbər verir ki, bu barədə ”Hürriyet” qəzeti məlumat yayıb.

Nəşr iddia edir ki, Ankara ilə Brüssel arasında danışıqlar prosesinin indiki mərhələsində heç də hər şey qaydasında getmir: ”AB ilə münasibətlərdə Türkiyə üçün ən problemli qurumlardan biri olan Avropa Parlamenti (AP) Ankara ilə Brüssel arasında fərqli əməkdaşlıq formatı barədə israr etməyə davam edir. Ankaranın AB ilə münasibətləri yoluna qoymaq istəyini gizlətməməsi və Birliyin ali nümayəndəsi Jozep Borrellin əlaqələrin gələcəyi ilə bağlı hesabatını yekunlaşdırdığı bir şəraitdə, bu tələbin bütün ölkələr arasında dəstək tapacağı ehtimalı sıfra yaxındır. Bunu görən AP-nin Türkiyə üzrə məruzəçisi, ispaniyalı parlamentari Naço Sançez Amor məsələni dayandırmaq məcburiyyətində qalıb. İndiki mərhələdə münasibətlərdə hər şey hamar deyil və bəzi ölkələr, məsələn, Avstriya fəal şəkildə danışıqlara son qoymağa çağırır”.



Rüstəm Hacıyev

## Prezidenti istefaya göndərmək istəyirlər?

*ABŞ Konqressinin Nümayəndələr Palatasının spikeri Kevin Makkarti prezident Co Baydenin impiçmentinə səbəb ola biləcək araşdırmalara başlamağa çağırıb. Bu barədə ABC News məlumat yayıb.*

*Araşdırmslara nümayəndələr palatasınln üç komitə sədri, respublikaçılar Ceyms Komer, Cim Cordan və Ceyson Cmit rəhbərlik edəcəklər.*

*Baydenə qarşı irəli sürülən əsas ittiham, onun oğlu Xanterin və digər ailə üzvülərinin biznes əməllərindən guya xəbəri olmaması barədə ictimayətə yalan məlumat verməsidir.*

*Makkarti həmçinin bəyan edib ki, Baydenin ailə üzvüləri və onların biznes tərəfdaşları guya qondarma şirkətlər vasitəsiylə təxminən 20 milyon dollar mənimsəyiblər. Amerikan prezidentinə qarşı ittihamda prezidentin oğlunin da çalışdığı Burişma Ukrayna enerji şirkətinin adı keçir. Baydemin opponetləri hesab edirlər ki, guya prezidentin oğlu Kiyevi onların firmasında araşdırma aparan prokuror Viktor Şokini vəzifəsindən azad edilməsi üçün, təhdid edib. Ağ Ev Makkartinon bəyənatına sərt reaksiya verib. Amerikan administrasiyasının nümayəndəsi İyen Sems bəyan edib ki, nümayəndələr palatasının respulikaçı fraksiyası uzun aylardır ki, Baydenin günahlandırılması üçün dəlillər axtarışındadır. Lakin heç nə tapa bilmirlər.*

*Semsin sözlərinə görə, Respublikaçılar partiyasının özlərinin şahidlərin və topladıqları sənədlərin heç birində Baydenin oğlu Xanterin biznes əlaqələri ilə bağlı hər hansı bir sübut yoxdur. The New York Times qəzeti yazır ki, Nümayəndələr palatasının spikeri Makkarti daha əvvəl, səs çoxluğu qazana bilməyəcəklərindən ehtiyat edərək bu məsələni müzakirəyə çıxarmaq istəməyib. Hazırda da bir çox pespublikaçı deputatlar hesab edirlər ki, bu prosedurun keçirilməsi üçün kifayət qədər sənəd-sübut toplanmayıb. Reuters agentliyi hesab edir ki, Baydeni prezident kürsüsündən düşürmək istəyi iflasa uğrayacaq. Çünki pespublikaçılar çoxluq təşkil etdikləri nümayəndələr palatasında istəklərinə nail olsalar da belə, digər paladada-Senatda azlıqda olmaları niyyətlərinə çatmalarına mane olacaq.*

*Əslində impiçment oyunları 2024-cü ildə keçiriləcək prezident seçkilərdə Baydenə qarşı aparılan təbliğat kompaniyası üçün nəzərdə tutulub. Hətta bunu respublikaçılar partiyasının ən radikal nümayəndələri də etiraf edirlər.*

# AĞDAMLILARIN BALIQ OVU VƏ ÇİNGİZ ABDULLAYEVİN DOSTLARI

**Deməli, belə. Ağdam uşaqları Ağcabədiyə - kanala balığa gedirlər. Beş-altı nəfər oturublar, qarmaqlarını sallayıblar kanala. Kanalın qarşı tərəfində isə yerli bir ağsaqqal oturub balıq tutur.**

Uşaqların biri ilə yerli ağsaqqal arasında mübahisə düşür. Mübahisə söyüşə çevrilir. Ağdamlılar da başlayır məzə tutmağa:

**- Ay ağsaqqal, heç bilirsən kimə söyürsən, onun atası filankəs Ağdamda beş kişidən biridi.**

Ağsaqqal:

**- Onun beş kişidən biri olan atasının...**

Və başlayır atasını söyməyə. Uşaqlardan başqa birisi deyir:



**- Ağsaqqal, onun dayısı filankəs on il türmə yatıb, eşidər gələr sənin ciyərini çıxarar.**

Ağsaqqal:

**- Lap onun dayısının...**

Və başlayır dayısının olub-qalanını söyməyə.

Uşaqlardan biri:

**- Ağsaqqal, yaxşı deyil, onun əmisi Ağdamda baza müdiridi, eşidər durub oturar maşına və gəlib sənin tifaqını dağıdar.**

Ağsaqqal:

**- Onun baza müdiri əmisinin...**

Və başlayır əmisini söyməyə.

Uşaqlardan başqa birisi:

**- Onun xalası oğlu filankəsov Ağcabədinin abaxeyisidi, eşidər gəlib səni atar kanala.**

Ağsaqqal:

**- Onun xalasının da, xalası oğlunun da...**

Başlayır xalasıgilini sıvamağa.

Uşaqlar gülür, söyülən də özündən çıxır, üzməyi də bilmir kanalı üzüb keçə, ən yaxın körpü də bir-iki kilometrlikdədi, dostlarına bağırır:

**- Ə yekə kişisiniz, bəsdirin də bütün nəslimə söydürdünüz.**

Dostları da gülmək tutur, ağsaqqal da o biri tərəfdən gülür.

İndi iyirmi gündür Çingiz Abdullayev həmin ağdamlı oğlanın gününə düşüb. Dostları həmin ağdamlı oğlanın dostları kimi, sanki onu söydürməkdən ləzzət alırlar, elə bir balaca ara sakitləşən kimi başlayırlar müdafiə eləməyə və müdafiənin altında da Çingiz Abdullayevə qarşı təhdid, təhqir sıralanıb gedir.

Nicat Novruzoğlu

# BİZ AFRİKALIYIQ?!

*Məni həmişə bir sual düşündürür, biz hansı qitənin sakinləriyik? avropalıyıq, asiyalıyıq, yoxsa afrikalıyıq? Xüsusilə, futbol oyunlarında çox tez-tez bir söz işlənilir: ”Onlar avropalılardır”. Məsələn, milli komandamızın qeyri-milli baş məşqçisi De Byazi Albaniyanı tərifləyir, orda müəyyən bir uğuru olub və bunu da belə əsaslandırır ki, Albaniya Avropadı.*

*Belçikaya uduzuruq, deyirlər ki, Belçika Avropadı. Nə bilim hansı itə-qurda uduzuruq hamısını belə əsaslandırırlar ki, bu it-qurdlar hamısı avropalıdı.*

*Allahın Lüksemburqu, Lixtenşteyni bizdən yaxşı futbol oynayır, bakılılar demiş, nöşün, nöşün ki, avropalıdırlar. Lixtenşteyn təxminən Yasamaldan balacadı, Lüksemburq da olsa-olsa Bərdənin Kətəlparax kolxozunun yarısı boydadı. O qədər balacadır ki, aeroport tikməyə yerləri də yoxdu. Amma məsələ nədi? Avropadılar.*

*Bəs, biz haralıyıq? Avropalıyıq, asiyalıyıq, yoxsa afrikalıyıq? Əgər avropalı deyiliksə niyə Avropa çempionatında oynayırıq?*

*Avropalılardan qəşəng geyinirik,onlardan bahalı maşın sürürük, evlərimiz də onlarınkından yaraşıqlıdı, mətbəximizə də söz ola bilməz.*

*Bəstəkarlarımız, şair və yazıçılarımız, sənətkarlarımız Avropanın hər hansı bir ölkəsinin bəstəkarlarından, şair və yazıçılarından, sənətkarlarından çoxdur və onlardan da istedadlıdır.*

*Bəs, biz niyə avropalı ola bilmirik? Bəlkə siz deyəsiniz?!*

# Sərhəddəki mübahisəli zavod Ararata köçürülür: Arazdəyən QƏLƏBƏSİ

**Xəbər verdiyimiz kimi, bu ilin mart ayında tarixi adı Arazdəyən olan, emənilərin isə Yerasx adlandırdığı rayonda 70 milyon dollar sərmayə ilə ”erməni-amerikan” adlı metallurgiya zavodu tikintisi başlanıldı. Məlumat üçün bildirək ki, zavodun tikintisinə 70 milyon dollar yatırılacaq. Sahəsi 16 min 500 kvadratmetr olan binada yerləşəcək zavod ildə 180 000 ton məhsul istehsal edəcək. Müəssisənin tikintisinə artıq 200 nəfər cəlb olunub və işə salındıqdan sonra işçilərin sayı 1000 nəfərə çatacaq. Zavodu tikən ”GTB Steel” şirkəti iddia edib ki, zavod Naxçıvanla sərhəddən 800 metr aralıda yerləşir, yaxınlıqda flora və fauna, münbit torpaq qatı, tarixi abidələr və mühafizə olunan təbiət əraziləri yoxdur. Ancaq bu inandırıcı deyil. Çünki yerli ekofəallar da buna etiraz edir. Bizim narahatlığımız odur ki, bu müəssisə böyük ehtimalla zərərli istehsalat tullantılarını Araz çayına axıdacaq.**



Adalet.az erməni mediasına istinadən xəbər verir ki, Arazdəyəndə tikintisi başlamış metallurgiya zavodu başqa yerə köçürülür. Məlumata görə, köçürmə üçün ən ideal variant kimi Ararat şəhəri yaxınlığı göstərilir. Zavod rəhbərliyi məlumatı Ermənistan mətbuatına şərh etməkdən imtina edib. Eyni zamanda, AB-nin Ermənistandakı mülki missiyası X sosial şəbəkəsindəki səhifəsində zavodun başqa yerə köçürüldüyünü təsdiqləyib.

Qeyd edək ki, 1 həftə əvvəl Ermənistan baş nazirinin müavini Mher Qriqoryan həmin zavodun başqa yerə köçürülməsi barədə verilən sualları cavablandırdı: ”Məndə belə bir məlumat yoxdur və gələcək hadisələrlə bağlı daha ətraflı məlumat verə bilmərəm. Hesab edirəm ki, bütün aidiyyatı orqanlar bu məsələ ilə məşğuldur ki, investor Ermənistan Respublikasında iqtisadi fəaliyyətlə məşğul olmaqda tam rahatlığa malik olsun”, - Qriqoryan vurğuladı.

Baş nazirin müavini çıxışında erməniləri əmin etdi ki, Zavodun tikintisinə təxminən 6 ay əvvəl başlanılıb və ilin sonuna kimi başa çatdırılması gözlənilir, lakin Azərbaycanın ETSN-dən bildiriblər ki, layihə regionun ekoloji təhlükəsizliyinə təsir göstərir və Arazın sularını çirkləndirə bilər. Bundan bir neçə gün sonra atışma başladı. Hətta iki inşaatçı yaralandı, tikinti texnikası zədələndi”.

Qriqoryan investorun tam rahatlığı və sərmayənin təhlükə altında olmaması üçün hər şey ediləcəyini bildirsə də bu gün zavodun yerinin dəyişdirilməsi prosesinə başlanılır.

***P.S.** **Ermənilərin Naxçıvanla sərhəddə tikintisinə başladığı müəssisənin tullantılarının Araz çayına axıdılmasından narahat olan Azərbaycan məsələyə etirazını bildirmişdi. Artıq zavod bağlanır və başqa yerə köçürülür. Bu da Azərbaycan siyasətinin bir qələbəsi hesab olunur.***

**Əntiqə Rəşid**

## İranlı müdafiə naziri: “İnanırıq ki, Qarabağda müharibə olmayacaq”

**”İran yaxın vaxtlarda Ermənistanla Azərbaycan arasında hərbi qarşıdurmanın baş verməyəcəyini hesab edir”.**

Adalet.az ”Tasnim” agentliyinə istinadən xəbər verir ki, bunu İranın müdafiə naziri Məhəmməd Rza Aştiyani deyib.

”İnanırıq ki, Qafqazda müharibə olmayacaq və İranın bu məsələ ilə bağlı mövqeyini dəqiqliklə bildirmişik. Biz dövlətlər arasında sərhədlərdə dəyişikliyi qəbul etmirik, lakin düşünür ki, yaxın zamanlarda regionda ciddi hadisə baş verməyəcək”, - deyə iranlı nazir qeyd edib.

## Xankəndində ermənilər iki rus kişisinə və arvadına üç yüz manat pul verib

**Xəbər verdiyimiz kimi Adalet.az-ın əməkdaşı bir müddətdir ki, 1905-1906-cı illərdə erməni-müsəlman davasıyla bağlı silsilə yazılara start verib. Növbəti yazını təqdim edirik:**

Kazakların Qarabağda ermənilərin başına gətirdiyi müsibətlər və müsəlmanlara qarşı isə hörmətlə yanaşmaları erməniləri çox narahat edirdi. Odur ki, ermənilər paxıllıqdan rahat ola bilmir, onların başlarına gətirilmiş müsibətlərə müsəlmanların düçar olması və kazakların yanında hörmətlərini itirməsi üçün tədbirlər əllərindən gələni edirdilər.

Xankəndində ermənilər iki rus kişisinə və arvadına üç yüz manat pul verib onlardan xahiş etdilər ki, müsəlmanların da dövlət yanında müqəssir olmaları üçün bir tədbir görsünlər. Bizim kimi kazaklar onların da mal-dövlətini qarət etsin və qadınlarının ismətlərinə toxunsunlar.



Ruslar bu təklifi qəbul edərək ermənilərin məqsədini həyata keçirmək üçün övrətləri ilə arabaya minib Ağdama yola düşdülər. Onlar iki bağın arasından keçən yola çatanda birdən dad-fəryad çəkdilər:

- Ay gəlin, müsəlmanlar bizi soydular, əynimizdə, əlimizdə hər nə var idi aldılar. Bizi lüt etdilər.

Bu qərarla Ağdam hakiminin yanına gəldilər. O, rus idi. Hakim gördü ki, bu dörd nəfəri elə soyublar ki, əyinlərində alt paltarından başqa bir şey qalmayıb. Hamısı soyuqdan tir-tir əsirlər. Hakim qəzəblənərək əhvalatı dərhal generala yazmaq və müsəlmanları tənbeh etmək istədi. Bu zaman müsəlman olan yasavul osetin hakimin yanına daxil olaraq rusların gəldiyi arabada axtarış aparmaq üçün icazə istədi. Osetin hakimdən razılıq əldə etdikdən sonra gəlib arabanın içindəki otu o tərəf-bu tərəfə çəkib yoxlayanda gördü ki, ruslar və onların arvadlarının bütün paltarları və çəkmələri otun altındadır. Əhvalatdan xəbərdar olan hakim qeyzlənərək həmin rusların və arabaçının döyülməsi haqqında əmr verdi.

Arvadlarına isə dedi ki, bu saat doğrunu deyin görüm bu nə işdir, yoxsa sizi həbsxanaya göndərəcəm. Matuşkalar dedilər ki, bizi nə döyün, nə də həbsxanaya göndərin, əhvalat belədir: Qımdatlar bizə üç yüz manat pul veriərək bu hiyləyə təhrik etdilər ki, bir müsəlmanları belə bir əməllə günahlandıraq və bunun nəticəsində ruslar onları cəzalandırsınlar. Biz də bunu edə bilmədik. Hiyləmizin üstü açıldı.

Müsəlmanlar onlara qarşı yönəldilmiş bu hiylənin üstünü açdığına görə xeyli pul yığıb osetinə verdilər və böyük təşəkkürlərini bildirdilər. Beləliklə, ermənilərin növbəti hiyləsi faş olub, rüsvay oldular. Ona görə də atalar deyib ki, başqasına quyu qazanın özü düşər. Yaxud hər nə kərsən, onu da biçərsən”.

**Mənbə: Mir Möhsün Nəvvabın ”1905-1906-cı illərdə erməni-müsəlman davası” kitabı.**

**(Ardı var)**

**Vasif Əlihüseyn**

# «Xankəndidə yeganə Azərbaycandilli məktəbin acı və 25 il məchul qalan taleyi»

*Dünyanın bir çox ölkələrində bu gün bilik günü - ilk dərs günüdür. Bu gün həm şagirdlərin, həm müəllimlərin, həm məktəb direktorunun ən sevincli, eyni zamanda ən məsuliyyətli günləri start götürüb. Belə məktəblərdən biri də Xankəndidə fəaliyyət göstərən yeganə Azərbaycan dilli təhsil ocağı Nizami Gəncəvi adına Xankəndi şəhər 4 nömrəli orta məktəbi olub.*

*Bu gün həmsöhbətim, Xankəndidə doğulmuş, yaşamış, oradakı yeganə Azərbaycan dilli məktəbin şagirdi olmuş hazırda tarixçi - jurnalist kimi tanınan İlham Cəmiloğlu ilə həmin məktəbi, onun müəllim kollektivini, orada təhsil alan şagirdləri və nəhayət uzun illər məktəbin direktoru olmuş Nazim Xudiyevi xatırlayacağıq.*

**-İlham müəllim, əvvəlcə oxucularımıza bu məktəb haqqında məlumat verərdiniz...**

- 1945-ci ildən fəaliyyət göstərən bu məktəb , əslində, XIX əsrin sonlarında yaradılıb, sovet rejiminin ilk illərində onun bazasında orta məktəb təşkil edilib və Xankəndi şəhərində yaşayan (məskunlaşan) ermənilər tərəfindən hər bir cəhdlə onun Xankəndindəki azərbaycanlı uşaqlarının maarifləndirilməsi üçün əllərindən gələni ediblər.

Nəhayət, Xankəndində yaşayan azərbaycanlı ziyalıların qətiyyəti sayəsində 1969-cu ildə Nizami Gəncəvi adına Xankəndi şəhər 4 nömrəli orta məktəbin müstəqil fəaliyyəti yenidən bərpa olunub. Məktəb yenidən Lenin və Atarbekov küçələrinin kəsişməsində yerləşən ikimərtəbəli binaya köçüb və yalnız azərbaycanlıların təhsil aldığı təhsil ocağı kimi fəaliyyətini davam etdirib.

**- Ermənilərin iç üzünü dəqiq bilən biri kimi soruşuram: Nə əcəb, məktəbə öz "kadrlrarı"nı yerləşdirməyiblər? Əminəm azərbaycanlıların kompakt yaşadığı bir yerə çoxbilmiş erməni ya öz casuslarını yerləşdirər, ya da mütləq oradan bir satqın ələ keçirərlər.**

- Yox, kollektivdə satqın tapa bilmədikləri üçün milliyətcə erməni olan müəllimləri məktəbdə işə düzəldə bildilər. Raya Balayan - rus dili müəllimi, Georgi Arzumanyan - idman müəllimi, Armen Baqdasaryan - nəğmə müəllimi kimi bu tədris ocağında olub-bitən ən xırda hadisələri lada işğal etməyə özündə güc tapan ermənilər üçün bir məktəbi sıradan çıxarmaq çətin olmaz...

- Ssenarisini indiki Rusiya yazdığı, özlərinin oynadığı "Sumqayıt hadisələri"ndən sonra düşmənçilikləri gizli fazadan açıq fazaya keçdi. Artıq uşaqdan böyüyə bütün ermənilər silahsız, sadə dinc azərbaycanlılara terrorçu, min illik şəxsi düşmənləri kimi baxırdılar. Hər an bir dinc azərbaycanlının



nin fəaliyyətinin yenidən bərpa olması arzusu həyata keçdi. Azərbaycan təhsilinin inkişafına töhfələr vermiş, özünəməxsus bir tarix yaşamış bu təhsil ocağının xidmətləri prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirildi. Dövlət başçısının 30 dekabr 2012-ci il tarixli sərəncamı ilə məktəbin fəaliyyəti yenidən bərpa olundu. Sərəncama əsasən Bakının Sabunçu rayonunda köçkünlər üçün salınmış Şuşa şəhərciyində müasir standartlara uyğun məktəb inşa edilib istifadəyə verildi.

**- İlham müəllim, bir məktəbi önəmli edən onun adlı-sanlı məzunlarıdır. Kimləri yetişdirib bu məktəb?**

- Məktəbimizin müəllim kollektivinin yüksək bilik və bacarığı, keyfiyyətli tədris metodu nəticəsində bu təhsil ocağı Azərbaycan cəmiyyətinə dövlət xadimi, general-polkovnik Ramil Usubov, əməkdar müəllim, tibb elmləri doktoru, professor Mübariz Allahverdiyev, Milli Məclisin deputatı seçilmiş Flora Qasımova, "Azərbaycan Bayrağı" ordenli, millət vəkili Elman Məmmədov, Beynəlxalq Energetika Akademiyasının üzvü, fizika-riyaziyyat elmləri doktoru, bir çox elmi ixtiraların müəllifi olmuş Vidadi Əliyev, filologiya üzrə elmlər doktoru İlhami Cəfərsoy, filologiya elmləri namizədi Şəfəq Cabbarova, Bakı Metropoliteninin ilk dəfə tikilib istifadəyə verilməsində aparıcı mütəxəssislərdən biri olmuş Firudin Əhmədov, "Şərəf nişanı" ordenı və "Əmək rəşadətinə görə" medalı ilə tətlif olunmuş Rasim Hacıyev, texnika elmləri namizədi, dosent Rəşid Haşimov, yazıçı-publisist, əməkdar jurnalist Hikmət Xudiyev, tibb elmləri namizədi Səidə Zeynalova, əməkdar mühəndis Kamil Xudiyev, dəyərli tədqiqatçı, "Qızıl qələm" mükafatı laureatı Aydın Qarabağlı, AYB-nin üzvü, "Qızıl qələm" mükafatı laureatı, istedadlı jurnalist və naşir Vasif Quliyev, Əməkdar mühəndis Ziyəddin Quliyev, Xalq artisi Fəxrəddin Manafov kimi dəyərli insanlar bəxş edib. Məktəbimiz təhsillə bərabər şagirdlərə yüksək vətənpərvərlik hissləri də aşılamağı bacarıb. Xalqımızın qəhrəmanlıq tarixinə yenu səhifələr yazan 40-a yaxın şagird və məzunu şəhidlik zirvəsinə ucalıb. Azərbaycanın Milli Qəhrəmanları Şirin Mirzəyevin, Nizami Məmmədovun həyat yolları bu gün hər bir Azərbaycan gəncinə örnəkdir.

**- Tələsdim, əvvəl müəllimləriniz haqqında soruşmalıydım... Ermənilərlə əhatəsində hər an ögeyliyi görən, düşmənçiliyi hiss edən müəllimlərinizin özəlliyi nə idi?**

- Doğmalıq! Hər bir müəllimimiz içi mən qarışıq bütün şağırdlərin öz balası kimi qayğısına qalırdı. Qoruyurdular! Bu məktəbin bir məzunu kimi neçə illər ötsə də, əziz müəllimlərimin, ilk dəfə mənə qələm tutmağı öyrədən Tahirə Məhərrəmovanın, Sabir Əliyevin, Əkbər Xudiyevin, Məhbubə Əliyevanın, Müşkülat İmanovanın, Nuridə Cəfərovanın, Telli Mirzəyevanın, Xavər Əliyevanın, Nadir Rəşidovun və sözsüz ki, bu məktəbin fəaliyyətində əməkləri heç də az olmayan valideynlərim Cəmil Xudiyevin və Şura Məmmədovanın adlarını böyük ehtiramla çəkirəm.

**- İlham müəllim, qarabağlıların böyük əksəriyyətinin tanıdığı və adını hörmətlə çəkdiyi mərhum qardaşınız Nazim Xudiyev haqqında da məlumat verərdiniz...**

- 40 il pedaqoji fəaliyyətlə məşğul olmuş Nazim müəllim cismani olaraq aramızda olmasa da, görün onu nə qədər şagirdi, müəllim yoldaşı, vətənpərvər soydaşları tanıyır, xatırlayır, ruhuna dualar oxuyurlar...Bəli, müəllimlik bütün peşələrin zirvəsində dayanır və elə bir ilahi missiyadır ki, yalnız bu adı layiqincə daşıyanlar o zirvəni fəth edə bilirlər, bizim Nazim müəllim kimi... Vaxtsız ölüm bu istedadlı, səmimi, qayğıkeş insanı, bacarıqlı pedaqoqu, uğurlu məktəb təşkilatçısını aramızdan aparsa da, ölüm belə, onun parlaq xatirəsini yaddaşımızdan silməyə acizdir. Nazim Xudiyev 1957-ci ildə Xankəndi şəhərində müəllim ailəsində dünyaya göz açmışdı. Orta təhsilini bu şəhərdəki Nizami Gəncəvi adına 4 nömrəli orta məktəbdə almışdı. 1979-cu ildə Xankəndi Pedaqoji İnstitutunun fizika fakültəsini bitirdikdən sonra təyinatla Şuşa rayon Malıbəyli kənd orta məktəbində pedaqoji fəaliyyətə başlayan Nazim Xudiyev 2012-ci ilə qədər bu təhsil ocağında müəllim kimi çalışmışdı.

**- 2012-ci il Prezidentin məlum sərəncamından sonra Xankəndi şəhər 4 nömrəli orta məktəbinə direktor təyin edildi.**

- Bəli, vaxtı ilə şagirdi olduğu məktəbə direktor təyin edildi. Sözsüz ki, bu vəzifəyə təyinat böyük etimad olduğu qədər də böyük məsuliyyət idi. Hər şeyi yenidən başlamaq, zəngin təhsil ənənəsi olan Xankəndi məktəbində ənənələri yenidən bərpa etmək böyük zəhmət tələb edirdi. Təbii ki, Nazim müəllimin direktor kabinetinə getdiyi yol heç də rəvan olmayacaqdı. Amma o, bütün bu çətinliklərə baxmayaraq özünü bütövlükdə bu işə həsr etdi və çox qısa bir müddət ərzində sıfırdan başlayan məktəb ən yüksək göstəriciləri ilə fərqləndi. Nazim Xudiyev 61 illik ömründə bu həyat yolunu seçdi və onun çətinliklərindən keçə bildi...Təəssüf ki 62 yaşına keçə bilmədi, 2019-cu ildə haqqın dərgahına qovuşdu...

Amma sevinirəm ki, Nazimi daim kədərləndirən Qarabağın işğalı kimi dərdverici bir amil ortadan qalxıb və Azərbaycanın müdrik siyasəti eyni zamanda möhtəşəm ordusu Xankəndi yolu ilə irəliləyir. Bu bizim ailənin təsəllisidir. Ümumiyyətlə, bu gün fürsətdən istifadə edərək, dünyasını dəyişmiş bütün müəllimlərə Allahdan rəhmət diləyirəm, "yeriniz cənnət olsun" deyirəm. Bütün müəllimlərə isə əsl pedaqoq kimi fəaliyyətlərində uğurlar arzulayıram. Xankəndi sakinlərinə isə tövsiyəm var: Bir azca da dözün, evimizə, Xankəndimizə dönəcəyik! Mütləq dönəcəyik!

**- İlham müəllim, maraqlı söhbətə görə təşəkkür edirik və arzularınıza qoşuluruq! O şəhər bizim, o şəhərdə şəhərləri açmaq şansı çox yaxında baş tutacaq!**

Azərbaycan məktəbi kimi fəaliyyət göstərməsinə maneələr törədilib. Xankəndi şəhərində, erməni şovinizminin əhatəsində milli hissləri, azərbaycançılıq ideyalarını və məfku-rəsini daim qoruyub saxlayıb, şəhərin azərbaycanlı icmasının mənəvi dəyərlərinin formalaşmasında xüsusi rol oynayıb. Xankəndi də 11 orta təhsil ocağı fəaliyyyət göstərib. Onlardan yalnız 4 nömrəli orta məktəb və Kərkicahan qəsəbəsində 6 nömrəli səkkizillik məktəb Azərbaycan məktəbləri olub. Qalan 9 məktəb rus və əsasən erməni məktəbləri olub. Ona görə də bütün dövrlərdə məktəb ermənilərin gözünə bıçaq kimi batıb.

**- Məktəb harda yerləşib?**

-Ağır, çətin və keşməkeşli yollar keçən bu təhsil ocağı yarandıqdan sonra fəaliyyətini baxımsız zirzəmi şəraitində başlayıb. Bir müddət keçdikdən sonra məktəb birmərtəbəli, heç bir şəraiti olmayan binaya köçürülüb. Belə yerdəyişmələr məktəbin həyatında adi hala çevrilib. Hələ o illərdən erməni millətçiləri bu məktəbin fəaliyyətinə əngəlliklər yaratmaq üçün bütün vasitələrə əl atıblar. Nəhayət onlar Xankəndində bu yeganə Azərbaycan məktəbinin müstəqil fəaliyyətinə problemlər yarada biliblər. Belə ki, 1964-cü ildə Nizami Gəncəvi adına 4 nömrəli orta və rus təhsilli 5 saylı məktəbin bazasında beynəlmiləl məktəb yaradılıb. Məktəbə milliyətcə qeyri-azərbaycanlı direktor təyin edilib. Bütün çətinliklərə, süni şəkildə yaradılmış maneələrə baxmayaraq Nizami Gəncəvi adına Xankəndi şəhər 4 nömrəli orta məktəbin müəllim kollektivi "beynəlmiləl məktəbdə" də azərbaycançılıq ideyalarını qoruyub saxlaya bilib, bütün qüvvələrini səfərbər edərək zımı adamlara , məmurlara yetişdirmək üçün yerləşdirildiyini hamı anlayırdı. İndi təsəvvür edin, bu orta məktəb neçə onilliklər boyu erməni millətçiləri tərəfindən mənəvi və fiziki təzyiqlərə məruz qalaraq neçə ağır mübarizələrdən keçib.

**-1980-cı illər ermənilərin millətçiliyi başlarına vuran vaxtlar yəqin ki, məktəb ən çətin dönəmini yaşayıb. Yəni "ölüm-qalım" məsələsi ilə üzbəüz qalıb.**

- 80-ci illərin sonlarında ermənilərin Dağlıq Qarabağla bağlı məkrli planlarında qarşıda duran ən başlıca vəzifələri ilk növbədə Xankəndini azərbaycanlılardan təmizləmək olub. Təbii ki, şəhərdə fəaliyyət göstərən, azərbaycanlıların təhsil aldığı təhsil ocaqlarının fəaliyyətinə son qoymaq isə bu planın tərkib hissəsi kimi önə çəkilib. Sırada isə birinci yerdə Nizami Gəncəvi adına Xankəndi şəhər 4 nömrəli orta məktəbi durub.

**- O illərdə Ağdam kimi bir rayonu, Qarabağ regionunun digər rayonlarını**



həyatına qıyacaqları məlum idi. Neçə illik dinc yanaşı yaşadığımız erməni qonşuların bizdən üzü dönmüşdü. Küçə ilə gedən azərbaycanlıya söyüşlər, təhqirlər, lənətlər yağdırırdılar. Artıq burada yaşamaq təhlükəli həddə çatmışdı. Erməni polislər isə bütün bunları görməzliyə vururdular. 1988-ci ilin sentyabr ayında erməni millətçilərinin i orta məktəbinin fəaliyyətinə son qoymaq cəhdi baş tutdu. 700-dən çox şagirdin təhsil aldığı, 60-dan artıq müəllimin çalışdığı məktəb fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı. Xankəndində yaşayan köməksiz azərbaycanlıların ciddi cəhdlərinə baxmayaraq məktəbin fəaliyyətini bərpa etmək mümkün olmadı.

Beləliklə Qarabağ münaqişəsi, ermənilərin təcavüz siyasəti Azərbaycan təhsilinin inkişafında xüsusi xidmətləri olmuş Nizami Gəncəvi adına Xankəndi şəhər 4 nömrəli orta məktəbinin, onun müəllimlərinin və məzunlarınının taleyinə beləcə ağrılı-acılı səhifələr yazdı.

**- Məktəb də qarabağlılar kimi köçkün düşdü...Sonrakı taleyi necə oldu?**

- Əslində məktəb köçkün düşməkdən daha betər oldu, pərən-pərən oldu. O vaxtkı ölkə başçıları bu məktəblə bağlı heç bir addım atmadılar. 25 illik fasilədən sonra xankəndililərin istəyi, doğma məktəbləri-

**Söhbətləşdi:**
**Əntiqə Rəşid**

## HAMAM-HAMAM İÇİNDƏ, ƏCNƏBİ MƏŞQÇİLƏR OTURUR MİLLİ KOMANDANIN İÇİNƏ!

**Rəsmi oyunlarda ”Argentinanın formasını geyinib, Masallının ”Viləş” komandası kimi oynayan” (ifadə türk jurnalisti İrfan Sapmazındı) milli komandamız qeyri-rəsmi oyunlarda italiyalıların formasını geyinib elə italiyalılar kimi oynayır və topun nə olduğunu təzə-təzə öyrənən İordaniyanı güc-bəla ilə uduruq və xoşbəxt oluruq.**

De Byazi komandanı elə tərifləyir ki, elə bil ”Qarabağ” klubundan danışır və ya ”Sabah”dan.

Beş il Foqts milli komandanın başında dəlləklik elədi, indi də De Byazi edir. Bir beş il də belə gedəcək.

Pah atonnan, böyük bir iş olub, yoldaşlıq görüşündə İordaniyanı udmuşuq!

**Nicat Novruzoğlu**

## Paşinyan erməni hərbçilərini Qarabağdan çıxarır: "tələbə" adı ilə...

**Hərbi xidmətə cəlb olunan separatçılar Qarabağı tərk edirlər.**



Adalet.az bildirir ki, bu barədə görüntülər sosial şəbəkələrdə yayılıb.

Görüntülər Laçın sərhəd-keçid məntəqəsində çəkilib.

Ermənilərin daha bir qrupu Qarabağdan Ermənistana gedib. İçlərində qadın yoxdur. Aydındır ki, tələbələr deyil. Ermənistanın işğalçı əsgərləridir ”tələbə qiyafəsində”. Siz də onlara qoca deyə bilməzsiniz. Birdən nə oldu?

**Bəs, ”sona qədər barışmaz mübarizə” haqqında nə demək olar?**

# XALQA VƏ DÖVLƏTƏ SƏDAQƏTLƏ XİDMƏT ETMƏK NÜMUNƏSİ

**İctimai asayişin qorunması və cinayətkarlığa qarşı mübarizədə öz fəallığı ilə həmişə diqqət mərkəzində olan Azərbaycan polisi cəmiyyətin ən çox inanıb etibar etdiyi mükəmməl dövlət strukturu kimi indi yeni bir mərhələdədir. Xalqına və dövlətinə sədaqətlə xidmət anlayışı Azərbaycan polisinin həyat amalına çevrilib. Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov bütün görüş və çıxışlarında polisin xalqa və dövlətə arxalandığını vurğulayır. Dövlətçiliyə və xalqa xidmətində fədakarlıq nümunəsi göstərən doğma polisimiz ictimaiyyətin rəğbətini məhz bu istiqamətdə əldə etdiyi nailiyyətlərlə möhkəmləndirir. Bu xüsusda bir fakt ayrıca vurğulanmalıdır: Azərbaycan Respublikası sabitliyin və ictimai asayişin qorunması reytinqinə görə keçmiş SSRİ məkanında birincilər sırasındadır.**

Cinayətkarlığa qarşı mübarizədə qazanılan uğurların ən vacib məqamlarından biri, şübhəsiz, polisin xalqla daha da yaxınlaşması, xalqdan dəstək almasıdır. Məhz bunun nəticəsidir ki, polisin gündəlik dinamik fəaliyyətində profilaktik və əməliyyat-axtarış istiqamətli tədbirlərin effektliyi daha da yüksəlir, əldə olunan nailiyyətlərdə öz əksini tapır.

Bu baxımdan Göyçay Rayon Polis Şöbəsində də uğurlu nəticələrə yönəlik tədbirlər davamlı olaraq həyata keçirilir. Rayonun hüquq-mühafizə orqanları asayişin qorunması və cinayətkarlığa qarşı mübarizədə həlledici rol oynayan birgə fəaliyyətə xüsusi həssaslıqla yanaşır, tədbirlərin effektliyini təmin edirlər.

Bu mənada polisin fəaliyyəti daha çox diqqət mərkəzindədir. Camaatla daha çox təmasda olan, yerlərdə keçirilən görüşlər zamanı daha çox suallar, istəklər ünvanlanan Göyçay polisi özünün adekvat münasibəti ilə sakinlərin inam bə rəğbətini qazanır. Vətəndaşların qəbulu, ərizə və şikayətlərə baxılması, o cümlədən DİN-in 102 xidmətindən daxil olan müraciətlərə dərhal əməli reaksiya verilməsi işi gündəlik nəzarətdədir.

Göyçay Rayon Polis Şöbəsinin əməkdaşları Azərbaycan Respublikasının Konstitusiyasını, Qanunlarını, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarını, DİN-in kollegiya qərarlarını, DİN rəhbərliyinin əmr və göstərişlərini rəhbər tutaraq xidməti ərazidə cinayətkarlığa qarşı mübarizə, ictimai qaydaların qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində fəaliyyət göstərərək etimadı doğrultmağa çalışırlar.

Ən mühüm məsələlərdən biri də budur ki, vətəndaşların şöbə rəhbərliyi və aidiyyəti əməkdaşlar tərəfindən mərkəzdə və polis sahə məntəqələrində vaxt məhdudiyyəti qoyulmadan müntəzəmliklə qəbulu və müraciətləri üzrə qanuni tədbirlər görülməsi yüksək səviyyədə təmin edilir.

Elə DİN rəhbərliyinin də tələb və istəyi belədir: ölkə vətəndaşlarının hər bir müraciətinə həssaslıqla yanaşılmalıdır. Müxtəlif profilaktiki tədbirlərin və cəmiyyət-polis mövzusunda aparılan işlərin fonunda aldığımız məlumatlar bu məsələlərin Göyçay Rayon Polis Şöbəsində xüsusi önəm daşıdığını bir daha təsdiqləyir. Xüsusilə, şöbənin rəisi, polkovnik Müqabil Abdıyevin bu istiqamətdə nümunəvi iş üslubu əməkdaşların da fəaliyyətində ciddi xarakter alır.

Polis şöbəsinə müraciətlər edən, qəbullara gələrək prinsipial və səmimi rəislə, əlaqədar əməkdaşlarla təmasda olan onlarla sakinin razılıq və təşəkkür dolu sözlərini eşitmişik. Polisə üz tutan hər hansı bir rayon sakini qanunların tələb etdiyi səviyyədə dinlənilir və istisnasız olaraq hamıya köməklik göstərilir.

Göründüyü kimi, vətəndaşların qəbulu, ərizə və şikayətlərə həssaslıqla yanaşılması,yerlərdə aparılan görüş və söhbətlər polisi xalqla daha da yaxınlaşdıran, qarşılıqlı hörmət və inam yaradan gözəl xüsusiyyətlərdir.

Göyçay polisinin fəaliyyətində digər nümunəvi tədbirlər də diqqət çəkir. Cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin qorunması istiqamətində daha çox maarifləndirmə tədbirlərinə önəm verilir. Sakinlərin, xüsusilə gənclərin cəmiyyətimizə zidd əməllərdən çəkindirilməsi məqsədilə rayon icra hakimiyyətinin müvafiq qurumlarının, rayon prokroluğunun, təhsil şöbəsinin rəhbər vəzifəli əməkdaşları, rayonun tanınmış ziyalılarının və müharibə veteranlarının iştirakı ilə çoxsaylı görüşlər keçirilmiş, müxtəlif mövzularda mühazirələr oxunmuş, disputlar təşkil edilmişdir. Təkcə bu ilin ötən altı ayı ərzində (təhsil müəssisələri yay tətilinə buraxılan müddətə kimi) rayon ərazisindəki məktəblərdə narkomaniyanın bəşəriyyət üçün ciddi bəla olması, faciələrə yol açması, baş verən digər bir sıra cinayət hadisələrində rol oynaması əsaslandırılaraq gənclərin diqqətinə çatdırılmışdır. Ötən müddət ərzində Göyçay RPŞ-nin təşəbbüsü ilə yerlərdə 23 dəfə bu xarakterli görüşlər keçirilərək gənclərə əlavə nümunəvi məlumatlar da verilmişdir. Bu cür kütləvi-effektiv tədbirlər rayon ictimaiyyəti tərəfindən razılıqla qarşılanır. Buradaca bir vacib məqamı xüsusi vurğulamaq lazımdır ki, narkomaniyaya qarşı, ümumiyyətlə cinayətkarlığa qarşı mübarizədə bütün məsuliyyət təkcə polisin və digər hüquq-mühafizə orqanlarının üzərinə düşməməlidir. İctimaiyyətin dəstəyinə həmişə ciddi ehtiyac duyulur. Təkcə nakomaniya ilə mübarizədə deyil, bütün cinayət hadisələrinin qarşısının alınmasında.




Belədə Göyçay Rayon Polis Şöbəsi rəisinin də məsələyə münasibəti paralelliyi əks etdirir.

Polkovnik bildirir: "Biz əgər profilaktik tədbirləri və cinayətkarlığa qarşı mübarizə üsullarını daha da təkmilləşdirməyi, müasirləşdirməyi və gücləndirməyi qarşımıza mühüm vəzifə olaraq qoymuşuqsa, bu mübarizənin anatomik xüsusiyyətlərini də dəqiqliyi ilə istiqamətləndirməliyik. Faktik bütün cinayətlər mübarizə hədəfindədir. Polisin ənənəvi peşəkarlığı və potensialı hər zaman yeniliklərə meyillidir. Biz öz gündəlik fəaliyyətimizi hörmətli nazirimiz, general-polkovnik Vilayət Eyvazovun əmr və göstərişlərinə əsasən məhz bu səviyyədə qurmağa çalışırıq. Xalqımızın və dövlətimizin də tələbi məhz belədir..."

Göründüyü kimi digər cinayət hadisələri ilə yanaşı, rayonda narkomaniya cinayətlərinə qarşı da ciddi mübarizə aparılır. Biz bunu bir sıra tədbirlərin, görüşlərin timsalında göstərdik də. Bütün mənəvi-əxlaqi baxışlarla yanaşı, təbii ki, əsas məsələ profilaktik tədbirlərin effektliyi və bu istiqamətdə aparılan güzəştsiz mübarizədir. Məhz belə ciddi mübarizənin nəticəsidir ki, təkcə bu ilin ötən 8 ayı ərzində bütövlükdə 52 nəfər olmaqla hər biri 8 nəfərdən ibarət 4 qrup halında birləşmiş cinayətkar dəstə zərərsizləşdirilmişdir. Keçən ili bütövlükdə, bu ilin isə ötən dövrünü müqayisələrlə təhlil edib bir sıra nəticələrə diqqət yetirsək məsələyə daha ciddi yanaşıldığının, narkomaniyaya qarşı güzəştsiz mübarizə aparıldığının şahidi olarıq.

2022-ci il ərzində dövriyyədən çəkisi 8 kq 214,848 qram olan müxtəlif növ narkotik vasitələr, çəkisi 254,414 qram olan psixotrop maddə, ümumi sayı 300 ədəd olan 67,5 qram çəkidə narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan, lakin güclü təsir edən zəhərli maddələr, həmçinin qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə yolu ilə 10 fakt aşkar olunmaqla ümumilikdə çəkisi 147 kq 465 qram olan 608 kol maddi sübut kimi götürülmüşdür.

Eyni zamanda Göyçay RPŞ-nin əməkdaşları tərəfindən rayon ərazisində tərkibində narkotik maddələr olan yabanı bitkilərin məhv edilməsi istiqamətində 2022-ci il ərzində ümumilikdə çəkisi 1 ton 255 kq olan 2495 ədəd yabanı halda bitmiş kol aşkar edilərək məhv edilmişdir. 2023-cü ilin 8 ayında isə ümumilikdə çəkisi 1 ton 350 kq olan 1927 ədəd yabanı halda kol aşkar edilərək məhv edilmişdir.

2023-cü ilin 8 ayı ərzində dövriyyədən çəkisi 10 kq 547,557 qram olan müxtəlif növ narkotik vasitələr, çəkisi 192,7 qram olan psixotrop maddə, ümumi sayı 1015 ədəd olan 220,325 qram çəkidə narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan, lakin güclü təsir edən zəhərli maddələr, həmçinin qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmək yolu ilə 6 fakt aşkar edilməklə ümumilikdə çəkisi 32 kq olan 44 kol maddi sübut kimi götürülmüşdür. 2022-ci il və 2023-cü ilin müvafiq dövrünə qədər 55 şəxs küllü miqdarda narkotik vasitələri və psixotrop maddələri satış məqsədi ilə istifadə edib saxladığına görə tutulmuşdur.

2022-ci ilin 12 ayı ilə müqayisədə 2023-cü ilin 8 ayı ərzində müxtəlif növ narkotik vasitələrin və zəhərli maddələrin qanunsuz dövriyyədən çıxarılması 2 kq 485,534 qram çəkidə çox olmuşdur.

Aşkar edilmiş narkotik vasitələrin külli miqdarda qanusuz dövriyyəsi və satışı ilə məşğul olan 1978-ci il təvəllüdlü Şahmuradov Natiq Xamoy oğlu, 1992-ci il təvəllüdlü Qaraşov Elvin Rüstəm oğlu, 1984-cü il təvəllüdlü Babayev Rahib Maarif oğlu, 1982-ci il təvəllüdlü Məmmədov Elçin Aydın oğlu, 1996-cı il təvəllüdlü İsgəndərov Malik Mahir oğlu və 1987-ci il təvəllüdlü Abdullayev İlham Firudin oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.1 və 234.4.3 maddələri ilə təqsirləndirilən şəxs qismində barələrində həbs qətimkan tədbiri seçilmişdir.

Göründüyü kimi Göyçay Rayon Polis Şöbəsinin əməkdaşları cinayətkarlığa qarşı mübarizədə, sabitliyin və ictimai asayişin qorunması istiqamətlərində 2023-cü ili də uğurla başa vurmaq əzmindədirlər. Xüsusilə narkomaniyaya qarşı mübarizədə.

Rayonda cinayətkarlığa qarşı mübarizənin bütün istiqamətləri üzrə tədbirlər davam edir.

***P.S. Son vaxtlar polisin gecəli-gündüzlü fəaliyyətinə kölgə salmaq cəhdləri də olur. Qanunları bilməyənlər, bilib əhəmiyyət verməyənlər nadan hərəkətlərlə polisin vaxtını alıb çaşqınlıq yaradırlar. Bəziləri də sosial şəbəkələr vasitəsilə sutkanın 24 saatını iş başında olan polisə böhtan atmaqdan belə çəkinmirlər - utanıb qızarmadan! Ancaq belələri unutmasınlar ki, bu qanunsuz hərəkətlərinin bumeranq effekti də həmişə öz qüvvəsindədir...***

**Məzahir ƏHMƏDOĞLU**

## Bakı-Ankara hərbi əməkdaşlığı "problem"dirsə, bəs, 85 ABŞ hərbçisi nədir?

**Bu ilin iyulunda Azərbaycan və Türkiyə HDQ arasında keçirilən 9-cu Qərargah toplantısı baş tutdu və Azərbaycan Hərbi Dəniz Qüvvələri (HDQ) komandanı vitse-admiral Sübhan Bəkirov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə HDQ Komandanlığının Təftiş və Qiymətləndirmə rəisi kontr-admiral Yücel Darcanla Bakı ilə Ankara arasında hərbi əməkdaşlığı müzakirə etdilər.**

Qərargah toplantısında iki ölkə arasında hərbi, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparıldı və yekun protokol da imzalandı.

Sən demə belə bir məsələ iki aydır Rusiyanın qarnına əməlli başlı sancı olub. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bunu nəhayət biruzə verdi.



O, Bakı ilə Ankara arasında fəal hərbi əməkdaşlığı şərh edərkən deyib ki,Rusiya problemli məsələlərlə bağlı narahatlığını birbaşa Türkiyəyə çatdırır:" Xüsusilə, siz indicə Türkiyə haqqında danışdınız, biz bu məsələləri birbaşa onlarla müzakirə edirik", - o bildirib.

Zaxarova qeyd edib ki, bu, Ermənistan-Azərbaycan münasibətləri və Qarabağ ətrafındakı vəziyyətə də aiddir: "Tərəflərin razılığı olmadan mövcud razılaşmalara zidd və ya onların zərərinə heç bir kənar təsir baş verməməlidir - xüsusən də bu təsirin diplomatik iş, vasitəçilər və sülhməramlıların sayəsində əldə edilən kövrək qüvvələr balansını pozacağına dair ən kiçik bir perspektivi varsa". Deməli, Zaxarovanın, daha dəqiq, Rusiyanın fikrincə, 2 müstəqil dövlət hərbi əməkdaşlıq haqda toplantı keçirib, müzakirə aparmaq istəyirsə, ilk öncə Rusiyadan icazə almalıdır.

Əgər elədirsə, bu tip hadisələri Rusiya problem hesab edirsə, Ermənistanın ABŞ-dan 85 hərbçi və ağır silahları Qarabağa gətirəndə, İran Qafanda konsulluq açanda Rusiya niyə narahat olmurdu? Niyə bunu problem kimi görmürdü? Görürdüsə əgər, hanı cəzası? Ermənistanın Baş naziri Nikol Paşinyan 85 ABŞ hərbçini Qafqaza gətirəndə Putinə "genəşdimi" , məsləhət etdimi? Azərbaycan müstəqil dövlətdir, kimi hərbi əməkdaş seçib, onunla müzakirələr aparacağına bir dövlət olaraq özü qərar vermək ixtiyarındadır!

***P.S.* Lütfən bunu özünüzə problem olaraq götürməyin və günlərin bir günü Qafqazın hakimi TÜRK olacaq!**

**Əntiqə Rəşid**

## "KTMT Ermənistan qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmir"

**"KTMT Ermənistan qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməyib və hələ də yerinə yetirmir".**

Adalet.az xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib.

O, Roma Nizamnaməsinin ratifikasiya edilməsinin zəruriliyini təfərrüatlandırarkən deyib ki, əlavə təhlükəsizlik vasitələri, o cümlədən beynəlxalq vasitələr əldə etmək üçün addımlar atmaq lazımdır: "Bu gün sərhəd təhlükəsizliyinə bizə kömək edəcək amilləri əlavə etmək üçün əldə edə biləcəyimiz vasitələrdən istifadə etməyə çalışırıq.

Roma Əsasnaməsinin Ermənistan-Rusiya münasibətlərinə heç bir aidiyyatı yoxdur. Biz bunu ratifikasiya edirik. Bu, KTMT-nin Ermənistan qarşısında öhdəliklərini yerinə yetirmədiyi bir şəraitdə təhlükəsizlik səviyyəmizin artırılması baxımından əhəmiyyətli təsir göstərə biləcək digər amildir".

Paşinyan qeyd edib ki, onlar bu addımlarının Rusiya Federasiyasında düzgün təsəvvürlərin formalaşdırılması üçün fəal işləyirlər: "Biz Roma Nizamnaməsi ilə bağlı bütün qorxuları aradan qaldıra biləcək çox konkret həll təklif etmişik və biz bu həll istiqamətində çalışırıq".

## Xəstəlik yayıla bilər?



**Artıq bir müddətdir koronavirus xəstəliyinin yayılması sanki dayanıb.**

Amma ilk baxışdan belə görünür. Çünki bu günün ozündə də həmin xəstəliyə yoluxan insanlar var. Ona görə də birmənalı şəkildə demək olmaz ki, bu xəstəliyin yayılmasının qarşısı tamamilə alınıb. Onu da qeyd etməliyik ki, payız və qış mövsümündə koronavirusun yayılma ehtimalı daha yüksəkdir. Deməli, buradan belə bir məntiqə nəticəyə gəlmək olar ki, insanlar xəstəliyə qarşı bir o qədər də məsuliyyətlə yanaşmırlar. Bizim fikrimizcə, bu sahədə maarifləndirmə işləri genişləndirilməlidir.

Təəssüf ki, böyük əhali kütləsi koronavirusun yenidən sürətlə yayılmasına inanmır,bu məsələlərə laqeyd yanaşir. Ancaq gəlin onunla razılaşaq ki, hər hansı virus baş qaldıranda camaata demir ki, mən gəlirəm. Ona görə də payız mövsümünün gəlişi ilə əlaqədar olaraq biz bu virusun qarşısını almaq üçün cıddi adamlar atmalıyıq. Əgər bu addımlar vaxtında atılmasa, sonra gec olacaq!

## Bizə sığorta lazımdır, ya yox?!

**Təbii fəlakətlər zamanı- zəlzələ olanda, sel gələndə, dolu yağanda, güclü külək əsəndə insanların əmlakına və təsərrüfatına böyük ziyan dəyir.**

Bu ziyan bəzən elə güclü olur ki, daxili imkanlar hesabına onun altından çıxmaq mümkün olmur. Belə olanda da ayrı-ayrı iş adamları , eləcə də təsərrüfatına və mülkiyyətinə ziyan dəymiş sadə insanlar dövlətdən kömək istəyir. Birmənalı olaraq sıgortası olan dəymiş




ziyanın ödənilməsində heç bir çətinliklə üzləşmirlər. Amma sığortası olmayanlar çətin vəziyyətə düşürlər. İri ticarət mərkəzlərində kiminsə obyekti yananda, ya da sel suları oranı basanda iş adamları vay-şivən qoparırlar.

Çünki vaxtında o obyektləri və içərisindəki sənaye, ərzaq məhsullarını sığortalatmayıblar. Və sonrakı peşmançılıq da fayda vermir. Şıgorta eksperti Cəfər Məmmədov deyir ki, bizim bəzi iş adamları və o cümlədən vətəndaşlarımız vaxtında obyektlərini və təsərrüfatlarını sığortalatmirlar. Biz onları vaxtaşırı maarifləndiririk, amma bizim dediklərimizə əhəmiyyət vermirlər.

Bir fəlakət də baş verəndə bizdən kömək istəyirlər. Sual olunur: sıgortası olmayan obyekt sahibinə neçə kömək etmək olar? Onlara heç bir yardım etmək mümkün deyil. Ona görə də hər bir iş adamı, eləcə də sadə insanlar öz mülkiyyətlərini və obyektlərini mütləq sığortalatmalıdır!

## Güclü küləyin fəsadları

**Hələ payız gəlməmişdən ölkəmizdə payız havası hökm sürür.**

Leysan yağışlar yağır, güclü külək əsir, dolu düşur və hətta Şahdağa qar yağır.

Bu çür anomal hava şəraiti dünyanın hər yerində yaşanır. Bir neçə gündür ki, ölkəmizdə qeyri-sabit hava şəraiti davam edir.

Bölgələrə leysan yağışlar, dolu yağır, sel gəlir. Artıq sentyabrın 10-u səhər saatlarından Bakıda, Sumqayıt və digər yaşayış yerlərində güclü külək əsir.

Bir çox yerlərdə ağaclar qırılıb və kökündən çıxaraq aşıb. Aydındır ki, küləkli havada yüksək mərtəbəli binanın və qurumuş yaşlı ağaçların yandan getmək , orada durmaq çox təhlükəlidir. Bu barədə öncədən Fövqəlada Hallar Nazirliyi əhalini xəbərdar edib. Elə bəlkə buna görə də insanlar ehtiyatla olub, güclü külək əsəndə xəsarət alanlar olmayıb. Ümumiyyətlə , belə qeyrisabit havada həmişə daha diqqətli olmalı, məsuliyyət hissi unudulmamalıdır!



## Zəncirvari qəzalar

**Bu gün respublikamızın avtomobil yollarında elə bir gün olmaz ki, yolnəqliyyat hadisələri baş verməsin. Bunun bir günahgarı sürücülərdirsə, digər səbəbkarı piyadalardir.**

Əlbəttə, belə qəzaların tez - tez baş verməsi həm yol polisini, həm hərəkət iştirakçılarını, həm də cəmiyyəti narahat edir.

Xüsusən də zəncirvari qəzalar. Heç şübhəsiz belə hadisələrin yaranmasına bəzi məsuliyyətsiz sürücülər səbəb olurlar. Heç uzağa getməyək. Bir neçə gün bundan əvvəl Bakıda bir sürücünün səhlənkarlığı üzündən zəncirvari qəza baş verib. Bu zaman səkkiz avtomobil bir-biri toqquşub. Belə bir anda səkkiz avtomobilə ziyan dəyib. Sığorta şirkətləri də belə qəzalarda bir çox halda dəyimiş ziyanı ödəmirlər və deyirlər ki, biz ancaq bir maşının ziyanını ödəyə bilərik, qalan avtomobillərə dəymiş ziyanı qəzanı törədən sürücü ödəməlidir.

Baş Dövlət Yol Polisi İdarəsinin içtimayyətlə əlaqələr şöbəsinin baş inspektoru, polis kapitanı Toğrul Nəsirli bildirie ki, zəncirvari qəzalar əsas səbəb sürücülərin istər respublika əhəmiyyətli , istərsə də şəhərdaxili yollarda avtomobillər arasında məsafə saxlamamasıdır. Öndə gedən avtomobil hər hansı mane ilə üzləşəndə sürücü əyləcdən istifadə edir və bu zaman da



arxadan gələn sürücü ara məsafəsi saxlamadığı üçün maşın qabaqdakı avtomobilə çırpılır və qəza baş verir.

**Belə zəncirvari qəzalarda bir neçə maşına ziyan dəyir. Ona görə də sürücülər birmənalı olaraq avtomobil yollarında ara məsafəsi saxlamalıdırlar!**

**Emil FAİQOĞLU**

## "Dünyanın o üzü"




**Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olan və müddətdən artıq Azərbaycan Ordusunda xidmət etmiş şəhid Elçin Tehran oğlu Süleymanovun qəhrəmanlığından bəhs edən çoxlu sayda publisist yazılar, məqalələr, şeirlər dərc olunub.**

Çünki Elçın Süleymanov 44 günlük İkinci Qarabağ savaşında "Ohanyan səddi" ni tankla yaran ,yaşayış məntəqələrimizi erməni işğalından azad edən igidlərimizdəndir. Bu günlərdə Elçin Süleymanovun döyüş yolundan Əməkdar jurnalist Faiq Qismətoğlunun qələmə aldığı "Dünyanın o üzu" kitabı çapdan çıxıb. Kitabın ideya müəllifi şairə Zeynəb Bəhmənli, redaktoru tanınmış yazıçı- jurnalist Sabir Hüseynovdur.

Kitabda Elçin Süleymanovla bağlı doğmalarının, müəllimlərinin, sinif yoldaşlarının, silahdaşlarının xatirələri toplanıb. Onun sınif yoldaşı Ramil Məmmədovun bir fikrini xatırlatmaq istəyirik:" Elçin kimi qəhrəmanlar şəhid olanda ölmürlər, onlar unudulan da ölürlər. Biz də onları, o cümlədən E. Şüleymanovu heç vaxt unutmayacağıq."

Şəhidlər haqqında nə qədər kitab yazılsa, film çəkilsə, yenə azdır. Düşünürük ki, yeni çapdan çıxmış bu kitab şəhid Elçin Süleymanovun ruhunu sevindirəcək , valideynlərinə və onu sevənlərə bir təsəlli olacaq!

**Emil FAİQOĞLU**

## Ekspert həyəcan təbili çaldı

**"Təhlükəli geyim mallarının satışa çıxarılması gözlənilir"**



**"Azad İstehlakçılar İctimai Birliyi "FB Company" MMC ilə "Azure Business Center" -də yerləşən "Megafun" Ticarət Mərkəzinin sahibləri arasında davam edən münaqişə ilə əlaqədar sənaye mallarının keyfiyyətinə dair akkredasiya olunmuş rəsmi qurumlar tərəfindən hazırlanmış ekspertiza sənədlərini əldə edib"**

Bunu Adalet.az-a açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib. Ekspert bununla bağlı əhalini diqqətli olmağa çağırıb:

"Sınaq nəticələrinə dair rəsmi cavabların təhlili göstərir ki, ekspertizaya təqdim olunan çoxlu sayda uşaq və böyüklər üçün üst və alt geyimlərinin uzun müddət saxlanması zamanı (20 min sayda) geyimlərdə yananmış kiflərin, qurd və həşaratların təmizlənməsi üçün Beynəlxalq konvensiya ilə istifadəsi qadağan olunmuş DDT və onun metabolitləri vasitəsi ilə kimyəvi müdaxilələr olunmuşdur. DDT və onun metabolitləri vasitəsi ilə kimyəvi müdaxiləyə məruz qalmış bu geyimlər istehlak olunarsa, insan orqanizminə kansoregen, hormonal, dermatoloji, allergik, nevroloji, həzm sistemi pozğunluğu kimi problemlər yarada bilər. Biznes qurumları öz mənafeləri naminə hər cəhdlə belə malları bazara çıxarıb əhaliyə satmağa cəhd göstərə bilərlər. Qeyd edim ki, istənilən sənaye malının, o cümlədən daha həssas olan uşaqlar üçün geyim mallarının müəyyən saxlanma şəraiti, yararlılıq müddəti kimi standartlar mövcuddur. Azad İstehlakçılar İctimai Birliyi bu malların hərəkət trayektoriyasını təqib edəcəkdir və mümkün olan işləri görəcəyik ki, bu mallar istehlakçılara çatmasın. Dövlət orqanlarına müraciət edirik ki, bu məsələni təqib etsinlər və bu cür təhlükəli malların insanlara çatdırılmasının qarşısı alınsın. Azad İstehlakçılar İctimai Birliyi olaraq qeyd edirik ki, bu cür geyimlərin satışı yolverilməzdir. Biznes qurumlarını da istehlakçıların həyat və sağlamlıqları üçün təhlükəli əməldən çəkinməyə çağırırıq"-deyə ekspert bildirib.

**Vasif Əlihüseyn**

## Dövlətlərarası gizlin pul köçürmələri ilə məşğul olan şəbəkə ifşa olundu



**Avropadan Azərbaycana və əks istiqamətdə xüsusilə külli miqdarda valyutanın köçürülməsi üzrə gizlin sistem təşkil edən dəstə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilmiş tədbirlərlə ifşa olunub.**

Adalet.az xəbər verir ki, həmin şəxslərdən biri Azərbaycan Respublikası vətəndaşı Pərviz İsmayılovdur. Belə ki, Səbail Rayon Məhkəməsinin qərarı ilə Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq orqanı tərəfindən verilən vəsatət əsasında İsmayılov Pərviz Rövşən oğlu barəsində Cinayət Məcəlləsinin 206-1.3-cü (xüsusilə külli miqdarda xaricdən və xaricə qanunsuz pul köçürmələri) maddəsi ilə həbs qətimkan tədbiri seçilib.

İttihama əsasən, Pərviz İsmayılov xarici ölkə vətəndaşları ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında qəsdən əvəzləşdirmə və digər qarşılıqlı hesablaşma üsulları ilə müxtəlif valyutalarda xüsusilə külli miqdarda pul vəsaitlərinin qanunsuz olaraq xarici ölkədən Azərbaycan Respublikasına və Azərbaycan Respublikasından xarici ölkəyə köçürülməsi fəaliyyəti ilə məşğul olmaqda təqsirləndirilir. Milyonlarla dövriyyəsi olan qeyd olunan kölgə iqtisadiyyat şəbəkəsi vasitəsilə dövlət qeydiyyatından kənar Azərbaycana keçirilmiş həmin pul vəsaitlərinin çatdırıldığı şəxslər sırasında dövlət təhlükəsizliyinə qarşı müxtəlif cinayətlərə görə məsuliyyətə cəlb edilmiş şəxslər, habelə müxtəlif radikal ekstremist yönümlü qruplar da olub.

Qeyd edək ki, kölgə iqtisadiyyatının imkanlarından istifadə edən casusların və terrorçu birləşmələrin maliyyələşdirilməsi, korrupsiya cinayətlərindən əldə edilən gəlirlərin xaricə çıxarılaraq leqallaşdırılmasına qarşı mübarizə sahəsində qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq, Azərbaycan Prezidentinin Fərmanı ilə 2022-ci ilin dekabr ayında Cinayət Məcəlləsinə 206-1-ci maddə əlavə edilib, istintaqının İqtisadiyyat Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətində aparılacağı müəyyən edilib.

**Analoji fəaliyyətlə məşğul olan şəbəkələrə qarşı ciddi tədbirlər görüləcəyi gözlənilir.**

## Tramp: "Baydenin ağlı fiziki sağlamlığından da zəifdir"

**Fox News yazır ki, Respublikaçılar partiyasından olan amerikan sentoru Mitt Rommi, ABŞ prezidenti Co Baydeni 2024-cü ildə keçiriləcək prezident seçkilərində namizədliyini irəli sürməməyə çağırıb.**

Senator yada salır ki, hazırki prezident keçən seçkilərdə namizədliyini irəli sürərkən, özünü növbəti cavan nəsil üçün keçid fiquru olduğunu nümayiş etdirirdi. "Buyurun, keçid dövrü yetişir"-deyə Rommi bildirib. ABŞ -ın eks prezidenti Donald Tramp isə daha əvvəl Co Baydenin növbəti prezident seçkilərinə qədər yaşamayacağını bildirmişdi.77 yaşlı eks prezident, 80 yaşlı hazırki prezident barədə deyib ki, "Onun ağlı fiziki sağlamlığından da zəifdir". Ağ evin hazırki sahibi Co Bayden hələ fevral ayında bəyan etmişdir ki, 2024-cü ildə keçiriləcək prezident seçkilərində namizədliyini irəli sürməyi planlaşdırır. O, yaşın bu məqsədə çatmaq üçün problem olmadığını, hələ qəti fikirə gəlmədiyini, yalnız namizədliyini irəli sürmək fikrində olduğunu açıqlayıb.

**Rüstəm Hacıyev**

# Göyçay yeni inkişaf mərhələsində

**Dövlətimizin siyasəti belədir: Müstəqil Azərbaycan Respublikası daim inkişaf etməli, xalqın rifahı yüksəlməlidir. Cənab Prezidentin apardığı uğurlu daxili və xarici siyasətin nəticəsidir ki, bir zamanlar arzulardan da uzaq görünənlər indi reallıqlara, gerçəkliyə çevrilir, sevinclər bəxş edir. Bakının ucalan və modernləşən dünyaya şöhrəti, regionların sosial- iqtisadi inkişafındakı müasirləşmənin təntənəsi... Və bu təntənənin, bu iftixarın ən böyük ünvanlarından biri olan doğma Qarabağımız!**

Azərbaycanımızın hər qarış torpağı doğma, əziz və şirindir. Mərkəzdən tutmuş ucqar dağ rayonlarına kimi müasir Azərbaycanın vətəndaşı olmaq necə də böyük iftixar hissi oyadır.

Bu günün Göyçayından söhbət açarkən, əvvəlcə mütləq olaraq bir məsələni xatırlatmaq, müqayisə aparmaq zərurəti yaranır. Ərazisi kiçik, əhalisi sıx olan nadir rayonlardan biri kimi Göyçayın özünəməxsusluğu həmişə diqqət mərkəzindədir.

Hər yerdə olduğu kimi, burada da insanlar ürəkdən çalışır, kənd təsərrüfatı, sənaye, ticarət və digər sahələr inkişaf edir, əhalinin rifah halı yüksəlir. Rayon mərkəzindəki, şəhərdəki sıxlığın normal istiqamətlərə yönəldilməsi əlavə tədbirlərə, dövlət qayğısına tələbatı da artırır. Çatışmazlıqlar, problemlər də olur, hətta lokal təbiət hadisələri də baş verir. Ötənlərdən qalmış xoşagəlməz mirasların ləğv edilməsinin cəfaları da Ancaq bunlar indiki Göyçayın həyatında ümumi ritmi, düzəni poza bilməz. Onda bura adlı-şanlı, şöhrətli Göyçay olmazdı ki,! Əbəs yerə Göyçaya Şirvanın şah əsəri demirlər ki! Çinarlar şəhəri, dünyanın ən yaxşı gülövşə narının vətəni, həm də Həbibinin, Rəsul Rzanın Ənvər Məmmədxanlının, Anarın, Əli Kərimin.. şöhrətləndirdiyi Göyçay!

Son on- on bir ayda Göyçay günbəgün dəyişir, inkişaf edir, abadlaşır. Yalnız rayon mərkəzində deyil, kəndlərdə də bu yeniləşmə hiss olunur, duyulur.

İnsanların da əhval -ruhiyyəsi dəyişir, ovqatı təzələnir, onlar sabaha inamla baxır, bu quruculuq, abadlıq prosesinin davamlı olacağına ürəkdən inanırlar. İllər uzunu bir sıra problemlərin aradan qaldırılması istiqamətində ardıcıl, davamlı işlər aparılır. Rayon rəhbərliyinə üz tutan vətəndaşlarda artıq inam hissi yaranmışdır ki, onların problemləri aradan qaldırılacaq, yığılıb qalmış nöqsanlar müsbət həllini tapacaqdır.





Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevin rayon sakinləri, ağsaqqallar, ziyalılarla keçirdiyi görüşlər, müntəzəm olaraq icra hakimiyyətində və kəndlərdə keçirilən səyyar qəbullar, bu görüşlər və qəbullarda irəli sürülən təkliflər nəticəsiz qalmır. Problemlərin bir qismi dərhal, bəziləri isə tədricən həll edilir. Vətəndaşlar artıq inanırlar ki, haqlı iradlar, göstərilən nöqsanlar rayon rəhbərliyi tərəfindən nəzərə alınır, aradan qaldırılması üçün yollar axtarılır.

Göyçay şəhərinin əvvələrdəki problemlərindən olan elektrik enerjisinin, içməli suyun fasiləsiz verilməsi istiqamətində xeyli işlər görülmüş, küçələrdə açıq elektrik xətləri kabel xətləri ilə əvəzlənmiş, yeni transformatorlar quraşdırılmış, qəza vəziyyətində olan elektrik və telefon dirəkləri yeniləri ilə əvəz olunmuşdur. İndi əhalinin daha keyfiyyətli internetlə təmin olunması üçün optik internet xətləri çəkilir.

Son on ayda Göyçay şəhərində küçələr, meydanlar abadlaşdırılır, ən ucqar küçələrə də asfalt vurulur, səkilər bərpa edilir. Bir sıra, gözdən uzaq döngə və dalanlar da simasını dəyişməkdədir. Şəhərin mərkəzi küçələri ilə yanaşı ucqar küçə və dalanların axşam və gecə saatlarında işıqlandırılması sakinlər tərəfindən razılıqla qarşılanır. Parklara, yolların kənarına yeni gül kolları , meyvə və bəzək ağaclarının əkilməsi şəhərin ekoloji mühitinin yaxşılaşmasına səbəb olur. Yol kənarında evlərin divarlarına üzlük daşlar vurulur, suvaq, rəngləmə və ağartma işləri aparılır. Rayon rəhbərliyi abadlıq işlərinin daha geniş ərazini əhatə etməsi üçün tədbirlər görür. Artıq şəhərin içərisindən keçən arxlar tamamilə təmizlənmiş, köhnə , yararsız vəziyyətdə olan su boruları yeniləri ilə əvəzlənmişdir. Şəhərin təmiz saxlanılması üçün küçələrə 200- dən artıq ağzı qapaqlı zibil qutuları qoyulmuşdur. Parklarda və səkilərdə zibil və tullantı qablarının sayı artırılmışdır. Şəhərin Sabir bağı adlanan ərazisi, M.Ə.Rəsulzadə, R.Rza , Ə.Kərim , Ə.Səmədli ,Nizami küçələri müasir görkəmdə abadlaşdırılmışdır.



Əhalinin istirahəti, asudə vaxtının səmərəli keçirilməsi üçün Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevin təşəbbüsü ilə şəhərdə iki yerdə - şəhərin şimal hissəsində, şəhərin dağlara söykəndiyi yerdə, Göyçay çayının sahilində dörd hektar ərazidə və şəhərin cənubunda "Üç yol" adlanan ərazidə sahəsi dörd hektardan artıq olan parklar salınır. Yeni parkların salınması insanların istirahəti ilə yanaşı, şəhər ərazisinin genişlənməsinə və ab -havasının yaxşılaşmasına səbəb olacaqdır. Göyçayın kəndlərində də - abadlıq, bərpa və təmizlik işləri aparılır. Kəndlərdə əkin sahələrinin suvarma suyu ilə tam təmin olunması istiqamətində səmərəli işlər görülür. Suvarma arxları, kanallar lil və çöküntülərdən təmizlənir,uçub -dağılmış hissələri bərpa edilir, su itkisinin qarşısını almaq üçün tədbirlər görülür. Kənd inzibati ərazisi üzrə nümayəndəliklərin, bələdiyyələrin təşkilatçılığı ilə daxili yollar hamarlanır,təmir edilir. Yol kənarlarındakı kol - kos qırılır, ağaclar əkilir, kənd qəbirstanlıqları ərazisində təmizlik işləri aparılır.

Eyni zamanda kəndlərdə pay torpaqlarına gedən yollar, körpülər abadlaşdırılır. Vaxtı ilə qanunsuz zəbt edilmiş, icarəyə verilmiş örüş yerlərinin yenidən kənd əhalisinin istifadəsinə verilməsi üçün rayon rəhbərliyi tərəfindən görülən işləri əhali- böyük razılıqla qarşılayır.

Kəndlərin daimi içməli su ilə, elektrik enerjisi , təbii qazla, telefon və internet rabitəsi ilə təminatının yaxşılaşdırılması üçün görülən məqsədyönlü işlər əhalinin razılığına səbəb olmuşdur.

Kənd əhalisinin ən böyük problemi olan həyətyanı sahələrində və pay torpaqlarında yetişdirdikləri meyvə və tərəvəzlərin, xüsusən heyva, xurma, alça, gavalı, armud və s. məhsulların onlara sərfəli şəkildə satışının olmaması rayon rəhbərliyinin diqqətini çəkmiş və bu sahədə müəyyən işlər görülməyə başlamışdır. Rayon İcra Hakimiyyəti başçısı Natiq Ağayev aqrar sahədə çalışan iş adamları və kəndlilərlə görüşərək bu problemin aradan qaldırılması yollarını müzakirə etmiş, satışın olmadığı üçün heyva məhsulunun çürüyüb tələf olmasından və əhalinin heyva bağlarını ləğv etməsindən narahatlığını bildirmişdir. İş adamlarına təklif olunmuşdur ki, ekoloji cəhətdən təmiz, faydalı heyva şirəsinin istehsalı həm kənd əhalisi, həm də sahibkarlar üçün faydalı olar. Onun təklifi ilə "Göyçayın iş adamları " Assosasiyası yaradılmış, göyçaylı iş adamları bir araya gələrək rayonda ekoloji cəhətdən təmiz , keyfiyyətli və rəqabətə dözümlü məhsul istehsal etməyi, ölkə bazarına çıxarmağı hədəf götürmüşlər.

Kəndlərin su ilə təminatının yaxşılaşdırılması, yazlıq və payızlıq əkinin həcminin artmasına səbəb olmuşdur. Örüş yerlərinin kənd əhalisinə qaytarılması rayonda iri və xırdabuynuzlu heyvanların sayının, eyni zamanda süd məhsullarının həcminin və çeşidinin artmasını stimullaşdırır.

İctimaiyyətlə əlaqələrin genişlənməsi üçün xeyli işlər görülmüş, əhalinin müəyyən hissəsi "Təmiz Göyçay naminə" hərəkatına qoşulmuşdur.

Yeni yaranan Göyçay İcma İnkişaf Mərkəzi özündə rayonun bir çox fəal sakinini birləşdirir. İcmada ziyalılar, iş adamları ilə yanaşı evdar qadınlar da vardır. İcma üzvlərinin sayı durmadan artır.

Mərkəzin "Məişət tullantılarının idarə olunması" mövzusunda keçirdiyi ictimai dinləmə öz faydasını verməkdədir. İctimai dinləmənin məqsədi Göyçay rayonunda məişət tullantıları probleminin həlli və bu sahə üzrə icma və yerli qanunvericilər arasında əlaqələrin gücləndirilməsidir.

**Göyçay bu gün tərəqqi və inkişaf yolundadır. Əhali rayonun sabahına daha böyük ümid və inamla baxır.**

**Məzahir Əhmədoğlu**
**Adil Vəlioğlu**

## Məhkum olunmuş 5 mindən çox şəxs elektron qolbaq daşıyır



**Ötən dövrdə Probasiya xidmətinin fəaliyyəti ilə bağlı mühüm təşkilati, kadr və institusional tədbirlər görülüb, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələri geniş tətbiq olunub, Elektron monitorinq mərkəzi yaradılaraq məhkumların coğrafi yerdəyişməsinin ani vaxt rejimində izlənilməsi təmin edilib.**

Adalet.az xəbər verir ki, bunu ədliyyə naziri Fikrət Məmmədov Ədliyyə Nazirliyi Probasiya xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı qarşıda duran vəzifələrə həsr olunan müşavirədə deyib.

Qeyd olunub ki, hazırda azadlıqdan məhrumetməyə alternativ cəzalara, o cümlədən azadlığın məhdudlaşdırılması cəza növünə məhkum olunmuş 5.000-dən çox şəxs elektron qolbaq daşıyır və onların üzərində fasiləsiz probasiya nəzarəti həyata keçirilir.

Nazir görülmüş işlərlə yanaşı, probasiya fəaliyyətinin müasir çağırışlara uyğun təkmilləşdirilməsini, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılmasının vacibliyini diqqətə çatdıraraq xidməti vəzifələrinin icrasında pozuntulara, o cümlədən xidmətdənkənar münasibətlərə və korrupsiyaya şərait yaradan hallara yol verən əməkdaşlarla bağlı görülən ciddi intizam tədbirlərinə toxunub. İşin səmərəli təşkili, nizam-intizamın möhkəmləndirilməsi və işçilərin məsuliyyət hissinin yüksəldilməsi məqsədilə nazirlik tərəfindən Monitorinq qrupunun yaradıldığını bildirib.

Dövlət başçısının insanlara layiqli xidmət göstərilməsi, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, qanunun aliliyinin təmin edilməsi barədə tələblərinin daim rəhbər tutulmasının zəruriliyini vurğulayıb, qanunçuluğa, etik davranış qaydalarına dönmədən əməl olunmasının, insanların müraciətlərinə qayğı və həssaslıqla yanaşılmasının hər bir əməkdaşın ümdə vəzifəsi olduğunu diqqətə çatdırıb.

Müşavirədə bu sahədə iş yükünün çoxalması nəzərə alınaraq Xidmətin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi ilə bağlı əlavə tədbirlər müəyyən edilib, qurumun yeni rəis müavini vəzifəsinə təyinat aparıldığı qeyd olunaraq tabe qurumların fəaliyyətinə nəzarətin, əməli və metodiki köməkliyin gücləndirilməsi, şəffaflığın və tələbkarlığın artırılaraq aşkar olunan nöqsanlara prinsipial münasibət bildirilməsi ilə bağlı konkret göstərişlər verilib.

Tədbir çərçivəsində həmçinin, Xidmətin Elektron monitorinq mərkəzinin fəaliyyəti ilə tanış olunub, azadlıqdan məhrumetməyə alternativ cəzaların vaxtında və dürüst icrasının təmin olunması, məhkumların islahında, cəmiyyətə reinteqrasiyasında innovativ yanaşmanın tətbiqi, əməkdaşların peşəkarlığının yüksəldilməsi tapşırılıb.

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Türkiyədə keçirilən tədbirlərə dəstək verir

**11 sentyabr 2023-cü il tarixində Türkiyənin İstanbul şəhərində Beynəlxalq Səs və Audio-Vizual Arxivlər Birliyinin 54-cü İllik Konfransı və 4-cü Beynəlxalq Ənənəvi Musiqi Şurası Forumu öz işinə başlayıb. İstanbul Universitetinin Dövlət Konservatoriyasının ev sahibliyində gerçəkləşən tədbirin əsas dəstəkçilərindən biri kimi Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu çıxış edir.**

Tədbirlərin açılış mərasimində İstanbul Üniversiteti Dövlət Konservatoriyasının rektoru Şebnem Ünal, Beynəlxalq Səs və Audio-Vizual Arxivlər Birliyinin rəhbəri Tre Berney, Türk Dünyası Bələdiyyələr Birliyinin Baş katibi Fahri Solak, TÜRKSOY-un sabiq Baş katibi Düsen Kaseinov çıxış edərək, qloballaşan dünyada bəşəri sivilizasiyanı zənginləşdirən müxtəlif xalqlara məxsus mədəni irsin yaşadılmasının önəmindən bəhs ediblər.



Tədbirdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunu təşkilatın nümayəndəsi Ləman Ağagülova təmsil edib. Fondun prezidenti Günay Əfəndiyevanın adından iştirakçıları salamlayan L.Ağagülova, Türk dünyasının ortaq köklərinin, irsinin təbliği və gələcək nəsillərə ötürülməsinin vacibliyini vurğulayıb.

Ləman Ağagülova müasir dövrdə dünyada mədəni sərvətlərin qorunması yönündəki səylərin artmasına diqqət çəkərək, türk xalqlarının zəngin milli-mənəvi dəyərlərinin öyrənilməsi, qorunması və geniş miqyasda tanıdılması üzrə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətlərindən söz açıb. O, bu tip tədbirlərə dəstək verilməsinin təmsil etdiyi təşkilatın əsas vəzifələrindən olduğunu qeyd edərək, Fond tərəfindən müxtəlif ölkələrdə həyata keçirilmiş layihələr haqqında məlumat verib.

Tədbirin bədii hissəsində Azərbaycandan Səbinə Ərəbli (xanəndə), Rəşad İbrahimov (tar), Təbriz Yusubov (kamança) və Siyavuş Kərimov (nağara), Qazaxıstandan Kairat Aitbayev, Yerlan Ryskali, Raushan Urazbayeva, Yernar Omiralinin, Qırğızıstandan Roza Amanovanın ifalarında Türk Dünyasının musiqisi səsləndirilib. Türkiyənin "İrfan və Meydan Meşkleri", "Dövlət Xalq Rəqsləri" ansambılları Türk xalqlarının rəqslərini nümayiş etdirib.

Tədbirlər 15 sentyabr 2023-cü il tarixinədək davam edəcək.



*Eminquey*

## Bayram Nurlu, Baboş kimilər niyə sevilir?

*Bayram Nurlu, Baboş və digər bu kimi üzdən"iran"lar milyonlarla insanımız tərəfindən niyə sevilir?*

*Söyə-söyə!*

*Lazım gəlsə, döyə-döyə!*

*Ən aşağı, ən iyrənc və ən lazımsız hesab etdikləri halda belə sevirlər. Sevməklə kifayətlənmirlər, yedirib, içirib, doyurub bəsləyirlər, başlarından pul yağdırırlar.*

*İşin "açar-qıfıl" hissəsi də buradadır.*

*Nə üçün ziyalısına yaxın düşməyən milyonlarla adam heç bir ictimai, mədəni, siyasi və sairə faydası olmayan, işi-gücü oynamaq, gic-gic danışmaq, həyasızlıq etmək olan bu üzdəniranları izləyir, dəstəkləyir?*

*Bu, milyonların içində gözəgörünməyən bir ovuc insanı düşündürən sualdır.*

*Bəs yaxşı, niyə, nə üçün, hansı səbəbdən?*

*Otuz yaşa kimi cəmi-cümü bir həftə ölkədən, xalqdan kənarda qalan, ömrünün 99,9 faizini bu xalqın içində keçirən, müxtəlif təbəqələrlə ünsiyyəti olan biri kimi bu suala cavab tapmışam.*

*1. Qibtə, həsəd aparmaq hissi*

*Milyonlarla insan bu üzdəniranların vulqarlığına, kefinin hər zaman saz olmasına, komplekssizliyinə, bəlkə də bir yarısı içində yatıb qalmış "gey"liyin bu adamlarda təcəlla etməsinə həsəd aparır.*

*2. Söyə bilmək*

*Bu "fenomen"lər yola çıxanda bütün söyüşləri, təhqirləri gözə alıb çıxıblar. Onlar üçün yazılan söyüş nə qədər bol olsa, o qədər reytinqləri qalxır. Xalq söymək azadlığını, orqazmını yaşadırlar.*

*3. Xalqa qarşı çıxmamaq, ağıl öyrətməmək*

*Bəli, ən əsas və vacib məqam budur. Xalq özünə yaltaqlananları həmişə sevir, ağıl öyrətmək istəyənləri isə ac qoyur, sürgünə göndərir, öldürür. Tarix boyu ziyalılarımızın ağıl öyrətməyin ucbatından başına gələnlərin şahidiyik. Kim ki bu xalqa ağıl öyrətmək, yol göstərmək istəyib, ya ağlını itirib, ya yeməyə bir tikə əppək tapmayıb, ya da diqqətdən kənarda qalıb ömrünü başa vurub. Xalq ziyalısına sadəcə hörmət edə bilər, vəssalam. Bu baboşlar, bayramlar isə heç kimə ağıl öyrətmir, əksinə hamıya ağılsız olmağı təbliğ edir.*

*Aydın oldumu?*

*Yox, sizə Aydın olanda çatmır, sualı belə verim: Baboş oldumu?*

*Bayram oldumu?*

## ABŞ bu ölkəyə F-35-lərin satışını təsdiqlədi

**ABŞ Dövlət Departamenti Cənubi Koreyaya F-35 qırıcıları və avadanlıqlarının satışını təsdiq edib.**

Bu barədə ABŞ Müdafiə Təhlükəsizliyi Əməkdaşlıq Agentliyi məlumat yayıb.

Məlumata görə, F-35 qırıcıları və avadanlıqları Cənubi Koreyaya 5,06 milyard dollar müqabilində satılacaq.

## Qarabağdakı yolların kənarına meyvə ağacları daha çox yaraşar - TƏKLİF

**Mənim jurnalistikadan əvvəlki ixtisasım iqtisadiyyat sahəsi olduğu üçün bu mövzuda yazmağı da özümə borc bilirəm.**

Oxucularımızla, eləcə də bu sahənin səlahiyyətliləri ilə bir məsələni müzakirə etmək istərdim.

Bu il rayonların birinə gəzməyə getmişdik. Aran zonasından keçərkən, xüsusən, Biləsuvar, İmişli, Bəhtamtəpə, Beyləqan şosse yolların bəzi hissələri ürəkaçan bir görüntü təsiri bağışlayırdı. Əvvəlki illərlə nisbətdə xeyli dəyişiklik, yaşıllıq quruculuq işləri göz oxşayırdı. Ürəyimdən keçdi ki, kaş diğər hissələr də belə yaşıllığa bürünəydi. Adıçəkilən rayonların iqlimi isti və quru iqlimdir və bozçəmən, qismən boz və çəmən boz torpaqlardan ibarətdir, bitki örtüyü yarımsəhra tiplidir deyə o ərazilərdə xüsusən yol kənarlarında bəzək ağaclarının yetişdirilməsi böyük əziyyət tələb edir. Buna baxmayaraq, bütün təbii iqlim şəraitinə uyğunlaşan şam ağacı bu yerlərin yaşıllaşdırılmasında gözəl tapıntıdır.

Bizim işğaldan azad olmuş Qarabağ isə həm suyu, həm, havası, həm torpağı ilə başqa bölkələrdən seçilir. Hələ işğaldan əvvəl belə bir deyim vardı: "Qarabağda torpağa bir dən atırdın, torpaqdan 10 sünbül çıxırdı" .

Özüm hələki bu 3 ildə öz doğma Ağdamıma, Baş Qərvəndimə gedib baş çəkə bilməsəm də sağ olsun o tərəfi "su yoluna döndərən" dostlar, yoldaşlar. Hər dəfə yurdunu gəzib gələndən sonra təəssüratlarını sosial şəbəkədə yazır, yolda-rizdə görüşəndə danışır. Deyirlər ki, Ağdamda möhtəşəm bir tikinti



gedir. Ağdam əvvəlkindən daha gözəl layihələndirmə yolundadır. Minalar təmizlənir, yollar çəkilir, yaşıllıqlar salınır. Hər şey inkişafa doğru irəliləyir.

Adını çəkilməyini istəməyən bir tanış danışırdı ki, Ağdama 4 yol istiqamətindən hərəkət etdik:"Bərdə -Ağdam arasında yerləşən ərazidə elə bir şosse yolu salınıbdır ki, sanki dövlətlətarası bir trasdır! Yüksək səviyyədə! Yolların kənarına isə cərgə ilə şam ağacları əkilib. Yol adama zövq verir.

Bir haşiyə çıxım: Bizim kəndimiz Bərdə-Ağdam yolunun 18-ci km yerləşir. Ağdama gedən turistlər, qonaqlar işğaldan əvvəldəki kimi həmin yolla Ağdama gedərdilər. O vaxt kəndimizin yol kənarından başlanğıc nöqtəsi ilə qurtaracaq nöqtəsinin arası təxminən 6-7 km olardı. zatən zümrüd rəngdə isi, hər tərəfdə yaşıllıq. Ordan sonra tarlalar başlayardı.Tarlalarla şosse yolu isə ağaclar ayırardı. Ərik, nar, gilənar, əncir, heyva. Bar-bəhərin çoxluğundan isə ağacın qol-budağı yer "süpürərdi". Onsuzda bağbağatımızın məhsulunu yığıb çatdıra, yeyib qurtara bilmirdik. O səbəbdən də yol kənarındakı meyvələr elə ağacda qalırdı. Daha doğrusu ağacda qalmırdı, Ağdama, Şuşaya, Laçına, Kəlbəcərə gedən turistlər, qonaqlar, böyük-böyük avtobuslar, o meyvə ağaclarının yanında saxlayar istədikləri qədər meyvələrdən həm yığıb yeyər, həm də avtomobillərinə doldurub aparardılar.

Camaatımız "qonağın payı"na dəyməzdi. Bu bir bolluq idi, bərəkət idi, gözütoxluq idi...

İndi , Ağdamı tikib-quranlardan, layihələndirənlərdən xahişim budur ki, Ağdam rayonu Baş Qərvənd kəndində yolun kənarların şam ağacları yox meyvə ağacları əksinlər. Əkənlərə rəhmət, yeyənlərə çan sağlığı arzulayanlar olacaq.

Ümumiyyətlə Qarabağ ərazisində çəkilən bütün yolların kənarında meyvə ağacları əkilsə elə əhalimiz də qazanar, iqtisadiyyatımızda qazanar, qonaqlarımızda sevinər. Şam ağaclarını isə iğlimi quru, torpağı səhra tipli rayonlara köçürün... Xeyrini özünüz görəcəksiniz!

Qarabağa şam ağacı ehtiyac deyil... Təklif isə bir jurnalist və yurdunun vurğunu olan biri kimi mənim subyektiv fikrim şəxsi, qənaətimdir!

**Əntiqə Rəşid**

## Yeni fırıldaqçılar peyda olub



**Son günlərdə insanlara xarici nömrələrlə tanışlıq məqsədilə yazanlar peyda olub.**

Adalet.az-ın məlumatına görə, bu barədə xeyli insan sosial şəbəkələrdə paylaşım edib.

Xarici ölkələrdən gələn mesajların əsas məqsədi insanlardan müxtəlif yollarla pul almaq olub. Onlar müxtəlif səbəbkər göstərməklə insanlardan göstərdikləri karta pul yollamağı istəyiblər.

Qeyd edək ki, bu tip mesajlara əsla cavab verməyin və ətrafınızdakı insanları xəbərdar edin.

**Emin**

## Bakıda evlərin qiyməti nə qədər bahalaşıb?

**Avqust ayında Bakıda mənzil bazarında qiymət artımları müşahidə olunub.**

İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) verilən məlumata görə, avqust ayında, əvvəlki ayda olduğu kimi, bağ və fərdi həyət evlərinə tələbin artması müşahidə olunub.

Fərdi evlərdə və torpaq sahələrində əvvəlki aya nisbətən 1.7 faiz qiymət artımı qeydə alınıb. Yaşayış binalarında və qeyri-yaşayış sahələrinə tələb dəyişməyib. Yaşayış binalarında olan mənzillərdə 1.8 faiz aylıq qiymət artımları müşahidə olunub.

Qeyri-yaşayış sahələrində 2.3 faiz aylıq qiymət artımı qeydə alınıb. Daha çox qiymət artımları kirayə bazarında müşahidə olunub. Avqust ayında kirayə bazarında qiymətlər 5.2 faiz yüksəlib. Bu yeni təhsil ilinin yaxınlaşması ilə əlaqədar tələbin artması ilə bağlıdır.

## Karqo şirkətindən tərsinə "A" addımı




**"Trendyol"un istifadəçilərə göndərdiyi bildiriş sosial şəbəkələrdə gündəm olub.**

Adalet.az-ın məlumatına görə, karqo şirkəti olan "Trendyol" yeni kampaniyasını tərsinə "A" hərfləri ilə yazılmış "Başladı" sözü ilə istifadəçilərinə bildirib. Bu bildirişlər isə sosial şəbəkə istifadəçiləri tərəfindən birmənalı qarşılanmayıb.

Qeyd edək ki, son günlər Azərbaycan ordusunun hərbi maşınlarının üstünə yazılmış başıaşağı "A" hərfi xeyli müzakirələrə səbəb olmuşdu. Təxmin edilir ki, "Trendyol" da bunu özünə PR vasitəsi kimi seçib.

**Emin**

## Psixoloq: "Qadın ərindən sevgi, qayğı görməyəndə..."

**"Bu dəqiqə ölkəmizin əsas problemi evli cütlüklərin bir-biri ilə xoşbəxt olmamasıdır. Evli cütlüklərin ya bir-birini tanımadan ailə qurması, ya ailə qurmaq xatirinə ailə qurması, ya da sadəcə ailədən kənar münasibətlərə meyilli olmasını görürük"**

Bunu Adalet.az-a açıqlamasında psixoloq Zeynəb Əyyubova ailə münaqişələri haqda danışarkən deyib. Psixoloq münaqişələrin səbəblərini də sadalayıb:

"Nə baş verir? Ailədə qadın ərindən sevgi, qayğı, diqqət gözlədiyi halda bunu görmür. Bu, isə qadının hərəkətinə bəraət qazandırmır. Sadəcə psixoloq kimi buna münasibət bildirə bilərəm. Qadınlar bunu adətən ona görə edir ki, evdə qayğı, diqqət, sevgi görməyən bir qadın, qırağda diqqət, sevgi, qayğı gördüyü halda o qırağa meyillənir. Kişilərin də düşüncəsi fərqlidir deyə artıq bir hamilə qadına "gəl mənimlə yaşa"" deyə bilirlər. Əvvəllər kişilərdə də baryerlər, sərhədlər, qırmızı xətlər var idi, amma indi nə kişilərdə, nə də qadınlarda əsas etibarilə bu sərhədlər yoxdur. Ona görə də artıq hamilə qadını başqa bir kişi öz evinə çağıra bilir. Hətta ona qəbullanıb onunla ailə həyatı da qura bilir. Əvvəllər belə hadisə baş verəndə biz deyirdik ki, aparacaq, səni yarı yolda buraxacaq. Amma indiki hadisələrdə görürük ki, kişilərdə də bu baryer yoxdu deyə münasibət davam edir. Kişilər və qadınlar niyə qıraqda sirdaş axtarırlar? Sualının səbəbi isə odur ki, çünki evindəkiylə nə dost, nə sevgili, nə də ailə ola bilir. Evindəki elə dırnağarası olaraq evindəki kimi qalır. Ailələrdə artıq nəfs ailəni idarə edir. Hamı küçəyə, qırağa gedir".

Qeyd edək ki, Bakıda başqası ilə yaşayan hamilə qadın əri tərəfindən bıçaqlanıb.

**Vasif Əlihüseyn**



Əbülfət MƏDƏTOĞLU

# Etiraf

*Başqa heç nə bilmirəm.*

*Deməli, yazılan hər bir yazı deyilən hər bir söz kimi onu dilə gətirənin və yaxud yazanın məsuliyyət hisini də özündə ifadə edir. Təbii ki, bütünlüklə yox, müəyyən nüanslarla və bir də təbii ki, mən yazı adamı olaraq həmin təqdim etdiklərimə uyğun özümün bədii donumu da biçirəm. İstəyirəm ki, oxucu yorulmasın, bezməsin və ən vacibi imzamı görəndə ötüb keçməsin...*

*Bəli, hər bir Allah bəndəsi kimi mənim demək olar ki, günümün 99 faizi özümlə, Allahımla, bir də içərisində olduğum məkanla söhbətdən keçir, söhbətdən ibarətdir. Demək olar ki, mən atdığım hər addımda xəyalıma, ürəyimə gətirdiyim hər fikirdə, hər sözdə Allahımın münasibətini nəzərə almağa çalışıram. İstəyirəm ki, nə sözümlə, nə hərəkətimlə, nə də varlığımla Allahsız olmayım. Heç kimin yadında yenə deyirəm, dinsiz, imansız, Allahsız kimi qalmayım. Bəlkə də kimlərsə məni din fanatı saya bilər. Amma yox. Mən namaz qılmasam da, ibadətgahlara getməyi, nəzir bağışlamağı, fitrə verməyi, ruhları bir salavatla salamlamağı, gecə yatanda son duamı oxumağı, səhər oyananda günümə şükür etməyi unutmuram. Yəni, alnımı yerə döyüb sonra kiminsə haqqına əl uzatmıram.*

*İçimdəki, ruhumdakı Allahımla təmasdan əziz, müqəddəs mənim üçün heç nə yoxdur. İndi, bax, bu yazdıqlarımı oxuyub mənim nə qədər dindar olduğumu özünüz müəyyənləşdirin. Bu haqqınıza qarışmıram. Amma məni dinsiz saymaq istəyənlərə də deməyə sözüm olduğunu və bu ixtiyarı da özümdə saxladığımı unutmuram. Bütün bunları yazıma ipucu ona görə edirəm ki, mənim üçün Diqqət, Sayqı, Sevgi Allahın zərrələridi. Bu da o deməkdi ki, kimliyindən asılı olmayaraq, diqqətini, sayğısını gördüyüm, sevgisini yaşadığım, diqqət, sayğı, sevgi yaşatdığım hər kəsin həyatımda olması, həyatıma təsir etməsi mənə bütün mənalarda (hətta əzab versə belə- Ə.M.) mənə xoşdur. Bir az da dəqiq ifadə etsəm, Şərəfdi!*

*Deməli, bildiyimə görə "Aydan arı, sudan duru" olmaq bir ata deyimidi, bir hikmətli kəlamdı. Əgər dünya tək məndən və yaxud səndən ibarət olsaydı aydan arı, sudan duru ifadəsinə bəlkə də heç ehtiyac qalmayacaqdı. Ona görə Allah insana görmək, düşünmək, müqayisə etmək və sonra fikir söyləmək haqqı verib. Bu haqqı yemək, tapdalamaq, ən azından insafsızlıqdı. Mən də bir Allah bəndəsi olaraq özümü aydan arı, sudan duru saymıram. Heç belə bir iddiam da yoxdu.*

*Lakin bilə-bilə, düşünərək və yaxud da qəsdən kiminsə haqqına əl uzatmamışam, kiminsə payını əlindən almamışam, yeməmişəm. Bacardığım qədər gücüm, imkanım daxilində bir Allah bəndəsi ömrünü yaşamağa çalışmışam. Bu işdə, daha doğrusu, bu istəkdə ən böyük yardımçım, əlimdən tutanım, yol göstərənim, hər zaman dediyim kimi öncədən Allahım, sonra da Sən və dostlarım olubdur. Həyat dərsi insanın yaddaşına birbaşa yazılır. Mən də sıxıntıların, ağrıların, evsiz-eşiksiz qalmağın, yurdsuzluğun, qaçqınlığın, şəhid nisgilinin nə olduğunu öz ürəyim və kafam tutumunda bilirəm, anlayıram. Odur ki, çiynimdəki missiyanı adam balası kimi icra etməyə, daşımağa çalışmışam və çalışıram. Dünən də belə olub, bu gün də belədi, sabah da əgər salamat olsam, belə davam edəcək. Odur ki, içimi didib-parçalayan, haqlı-haqsız basqıları, ağrıları yola vermək, daha doğrusu, sona kimi daşımaq istəyimi Allahımın və sənin varlığınla reallaşdırmaq yolunu tutmuşam. Və hətta yuxudan oyananda da sökülən dan yerinə baxıb, pıçıldamışam:*

*Oyanmayıb, yuxuludur bu səhər,*
*Yuxusunu kim yozacaq gözümün?!*
*Sıralayıb hərfləri birtəhər -*
*Misrasını kim yazacaq sözümün?!*

*Bir dəlisov, xəyalpərvər bəndənin,*
*Eləmədin sən ümidə bənd, əlin...*
*Həsrətimin ödədikcə bədəlin -*
*Pərən saldım illərimin düzümün...*

*Fərq eləməz tənhalıqda ağ, qara,*
*Bir də kim var, ağ, ya qara axtara...*
*Dənizimsən - indi mənim, Ağ, Qara -*
*Körüyüdü ləpələri gözümün...*

*Bu bəllidi - Tanrı da tək, sən də tək,*
*Eləmədim ona, nə də sənə şək!*
*Üşüyəndə yadına sal, kirbit çək -*
*Az-az yandır, Əbülfətin dözümün!..*

***

*Hərdən ya təsəlli üçün, ya əsəbini sıxıb, tutub saxlamaq üçün, ya içindəki hikkəni, təlatümün, bir sözlə narahatlığı nizama salmaq üçün gözüyumulu bir addım atırsan.*

*Və yaxud birini bilmədiyin bir vasitənin, bir alətin, bir cihazın düyməsini basırsan... bundan sonra gələn ismarıclar, iradlar, təriflər, daha nələr, nələr bitib-tükənmir. Alqışlayanlar qarğış edənlərə, qarğış edənlər alqışlayanlara içində hücum çəkir. Hər iki tərəfin də yükü yenə sənin ürəyinə yüklənir. Yenə sən qalırsan ortada. Yenə sən əllərdə olan yaxanın nə vaxt əllərdən çıxacağına, alınacağına gözləyə-gözləyə sozalırsan, əriyirsən və ...*

*Heç kimə sirr deyil ki, sübutlar həm hüquqdan, həm cinayətdə, həm də lap elə sevginin özündə də ən güclü silahdır. Necə deyərlər, adamı divara söykəyir. Dəhşətlisi onda olur ki, həmin silah səni istəməyənlərin əlinə keçir, səni sevməyənin arqumenti olur. Bax, onda quyuda oturub kəndir gözləyən Məlikməmməd kimi içinlə çölün bir-birini didə-didə əlində silah olanın nə zaman insafa gələcəyini gözləyirsən. Bu yerdə "İnsaf" sözü həm xilas kəndiridi, həm yandırılan işıqdı, həm də boğulan üçün bir udumluq havadı. Bütün bunları bilən insanın, lap elə mənim özümün etdiyim yalnışlıq təbii ki, bağışlanılmazdı. Bunun bağışlanması üçün Allaha və Sənə üz tutmaq, qarşında diz çöküb yalvarmaq, rəhm diləmək, yəqin ki, heç nəyi və yaxud da çox şeyi dəyişməyəcək. Bu yerdə deyilmiş, amma indi uydurmaq istədiyim bir atalar sözü də var. Ona görə də "uydurmaq istədiyim" yazıram ki, bəlkə bu bir xoşməramlı istəyə çevrilə, təsir göstərə bilə, ovqat yarada, rəhm deyilən o böyük hissi hərəkətə gətirə. Nə isə...deməli, "uydurmaq istədiyim" kəlamda deyilir ki, "özü yıxılan ağlamaz". İndi nə dediyimi və yaxud nəyə işarə etdiyimi duyanlar, anlayanlar qarşısında baş əyərək dərinliyə varmayaraq Allahıma və Sənə bildiyinizi, hətta mənim özümdən öncə sizə məlum olanı bir kənara qoyub, yenə şeirə üz tuturam. Deməyin ki, sözümün altından qaçdım, fikri yayındırmaq istədim... Yox! Sadəcə elə anlar, elə məqamlar var ki, onu deməmək, onu yenidən xatırlamamaq, daha doğru qərardı.Və bir də...*

*Heç nə izsiz, tozsuz qeybə çəkilmir. Bu fikri hətta çoxları deyir. Hətta elmdə də heç nəyin itmədiyi, yalnız formasını dəyişdiyini bizə aşılayıblar. Mən elmin əleyhinə getmədən öz həyatımda bilirəm ki, yaşadıqlarımı və yaşadılanları həyat ömrünə naxışlayır, ilməsini vurur. O sadəcə olaraq, obrazda desək, bir arxiv materialına çevrilib. Söz sözü çəkəndə, xatirələr qapı döyəndə onlar da gün işığına çıxır, onların da ağrısını-acısını, sevincini təkrar yaşamağa məcbur oluram.*

*Yəqin sizdə də belədi. Mən heç kimin istəyinə, bilgisinə, hətta arxivinə əl uzatmadan özümlə bağlı deyə bilərəm ki, altmışı keçən ömründə üzüldüyüm tək-tək məqamlar var ki, onların hər biri üçün ömrümdən keçməyə hazıram. Təki mənim üzümdən, mənim varlığımdan, mənim günahımdan, mənim səbəbkar olmağımda baş verən həmin o üzüntünü ömrümdən, həyatımdan, yaddaşımdan, təbii ki, həm də qarşı tərəfin ömründən, həyatından, yaddaşından silə biləydim.*

*Bunun mümkünsüz olduğu gün işığı kimi məlumdu. Bəlkə yazmağım da, deməyim də artıqdı. Amma yazmaqla, deməklə yaranı qanatmaq, qabığını qopartmaq istəyində deyiləm. Sadəcə qanmaz olmadığımı, nadan olmadığımı, ən vacibi isə o üzüntüləri qəsdən, düşünülmüş etmədiklərimi söyləmək üçün, bildirmək üçün pıçıldadım bu sözləri.*

*Ürəyimdə dediyimi, Allahımın və sənin eşitdiyini təkrar pıçıldadım ki, yerin də qulağı var, qoy gedib hansısa qapını döysün...*

*İnsanın həyatı onun özündən asılı olduğu qədər də həm də asılı deyil. Mən bu qənaətimdə birmənalı şəkildə qərarlıyam. Yəni, şəraitin, müəyyən təsirlərin hansı gücə malik olduğunu bilirəm. Üstəlik, adamın zəif damarının olması fikrini də qəbul edirəm. Bax, bunların fonunda mənim üçün ən dözümlüsü ürəkdi. Çünki o hər şeyi qəbul edir, hər şeyi özündə yerləşdirir və hər şeyin də ağrısı ilə yanaşı, sevincini də son nəfəsə qədər daşıyır. Bu mənada mənim üçün ürəyin ölçüsü də onun tutumu boydadı, onun dözümü boydadı və nəhayət, dünyada ürəklə yaşamaq, ürəklə sevmək həm də açıq şəkildə ürəyi şam kimi yandırmaqdı. Lakin... o şam kimə işıqdı, kimə oddu, kimə də yol nişanıdı. Uzaqdan hər kəs onu özünün düşündüyü, bildiyi fərz və təxmin etdiyi kimi görür. Ən dəhşətlisi də bax, elə budur.*

*Düşündüyüm, daşıdığım bir adla,*
*Xəyalımın atlandığı Düratla...*
*Dizin-dizin, yorulmadan, inadla -*
*Gəlib çatdım bu durumla sona mən...*

*Güvəndiyim duasını göyərtdi,*
*Mənə dərdin hər üzünü öyrətdi...*
*Sevinirdim, birdən elə kövrəltdi -*
*Donub qaldım baxa-baxa ona mən!..*

*Mənim ruhum lələkləri ürtülmüş,*
*Bülbül donda daş parçası - bütüymüş!*
*Lap doğuşdan məhəbbətim lütüymüş -*
*Salmamışam onu heç bir dona mən...*

*Çəkdiklərim fırçalıq, nə qələmlik,*
*Bir xırmanda xəlbirləndik, ələndik...*
*Biz Allahın göz yaşına bələndik -*
*Tanrım kimi baxdım yerdə ONA mən!*

*...Bu yazının ifadə etdiyi hər nədisə, onu açmayacam, deməyəcəm. Çünki, yazı boyu bundan Allahın və Sənin xəbərdar olduğunu təkrar-təkrar vurğulamışam. Soruşa bilərsən ki, onda niyə yazdın? Mən də cavab verirəm. Allaha və Sənə bildiklərinizi yazılı təqdim etmək üçün. Başqa heç bir səbəb bilmirəm!*



VAQİF YUSİFLİ

# ÇİNARLININ ŞAİR QIZI

**Çinarlı Şəmkirin ən gözəl, təbiəti göz oxşayan kəndlərindən biridir.Rəfiqə Qasımqızı Abbasova 18 yaşında Orta məktəbi fərqlənmə ilə bitirdi. Arzusu bu idi ki, Tibb İnstitutuna daxil olsun, həkim olsun, ən ağır xəstəni ürəklə sağaltsın, sözlə sağaltsın. Və elə birinci il arzusuna çatdı.Düz 45 ildir ki, Rəfiqə xanım bu müqəddəs sənətin sahibidir. Mən öz işinin kamillik zirvəsinə çatan həkimlərdən söz düşəndə, həmişə Rəfiqə xanımın həmyerlisi, Şəmkirin Morul kəndində dünyaya gələn, indi o kənin məzarlığında uyuyan, amma mərhum deməyə dilim gəlmədiyi gözəl şairimiz Səyavuş Sərxanlının bu misralarını xatırlayıram:**

***Ömrün çlraq-çıraq sönən anları***
***Onun sinəsini dəlib keçirlər.***
***Bütün ölümlərin meridianları***
***Həkim ürəyindən gəlib keçirlər.***
***Onun səsindəki ən gizli qəm də,***
***Xəstəyə dağ yükü olub deyirəm.***
***Harda bir otağa həkim girəndə***
***Ora ümid seli dolub deyirəm.***

Rəfiqə xanım da belə həkimlərdəndir deyirlər.

Sənətləri bir-birilə müqayisə etməzlər, hər sənətin özünəməxsus bir missiyası var. Amma müqayisə eləyəndə ən tutarlı, oxşar təşbihlər yada düşür. Həkimliklə şairliyi nə birləşdirə bilər? Şəfalı əllər-şair ürəyimi?. Məncə, ürək .. Əgər şair ürəyi içində yatan o duyğuları sözə çeviirmirsə, şairin yazdığı şeir ŞEİR olarmı? Əgər həkim ürəyi sağaldacağı xəstənin keçirdiyi həyəcanları duymursa, ona HƏKİM deyə bilərikmi? Ən gözəl həkim elə ən duyğulu-içi sözlərlə dolu şair deyilmi? Bəlkə Rəfiqə xanımı da şeir tilsiminə salan elə bu şairanə duyğulardır.

Rəfiqə Abbasovanın 2018, 2019 və 2020-ci illərdə çapdan çıxan üç şeir kitabı və bir də "Azərbaycan" jurnalının 2022-ci il mart-aprel birləşmiş nömrələrində dərc olunan şeirləri ilə tanış oldum. Mənim fikrimcə, "Xatirələr əl edir" kitabındakı şeirlər geniş şair erudusiyasını, həyat, insanlıq, dünya və yaşadığı mühit haqqına poetik düşüncələrini əks etdirir. Təkcə məzmun baxımından deyil, həm də sənətkarlıq nöqteyi-nəzərdən də bir şairin imkanlarını aşkara çıxarır. Amma "İlmələnən arzular" və uşaqlar üçün yazılan "Utancaq bənövşələr" kitablarına da müraciət edəcəyəm.

Qadın dünyası etiraflarla, xatirələrlə dolu bir aləmdir və bu aləmə daxil olmaqla sən ona məxsus zərifliyi, incəliyi, həyat eşqini, sevgi-məhəbbət aləmini və bütün bunlardan daha öncə vətənpərvərliyini, təbiətə, onun gözəlliklərinə heyrətini hiss edəcəksən. Rəfiqə Abbasovanın şeirləri də bu təəssüratları səndə yarada bilirmi?

İlk növbədə, şairin ənənəvi mövzulara müraciətinə diqqət yetirək. Çünki şairin təzə söz demək istedadı məhz bu ənənəvi mövzularda üzə çıxır. Bizim poeziyada təbiətə,onun ayrı-ayrı atributlarına yüzlərlə, minlərlə şeirlər həsr olunub. Nə qədər dağlar şeiri var, nə qədər bənövşələr, lalələr, qızılgüllər, qərənfillər, ilin fəsilləri şeirimizdə məskən salıblar (hərçənd ki, onların sırasında zəif və ortabab nümunələr də az olmayıb). Bizim poeziyada analara həsr edilən şeirlərin sayı da çoxdur, amma bu çoxluqda seçilən, indi də yaddaşlardan silinməyən şeirlər çox deyil. Vətənə şeir həsr etməyən şair tapılarmı? Amma Vətən sevgisi heç də bütün şeirlərdə öz poetik ifadəsini tapıbmı? İndi görək Rəfiqə xanım bu ənənəvi mövzularda təzə söz deyə bilirmi?

Bəri başdan eyim ki, mən onun təbiətə həsr olunan şeirlərini daha çox bəyəndim (subyektiv fikrim olsa da).Təbii ki, hər hansı şairin (necə ki, başqa sənət sahiblərinin də) təbiəti sevməsi adi hal kimi qəbul edilir, amma şairin təbiətə sevgisi adi hal olmamalıdır. Ələsgərin, Səməd Vurğunun, Osman Sarıvəllinin, Musa Yaqubun, Hüseyn Arifin təbiətə sevgiləri poeziya sevgisinə çevrilib. Amma elə şeirlərə rast gəlmişəm ki, bu sevgini görməmişəm, yəni dağlar, güllər-çiçəklər, dəniz poetik sevgiyə çevrilməyib. Rəfiqə xanımın təbiət şeirləri elə təbiətin özü kimi təbiidir, duyumludur. O, təbiəti sevir və bu sevgi öz ifadəsini də şeirlərində əks etdirə bilir. Məsələn, onun dağlara həsr etdiyi bir neçə şeirində təbiət duyğusu DAĞ obrazında təcəssüm edir.

***Sanki bir kəmərdirzümrüd meşələr,***
***Dolanıb belinə qoca dağların.***
***Üzüyün parlayan qaşına bənzər,***
***Qarlı zirvələri uca dağların.***

Yaxud:

***Burada günəş də tezdən oyanır,***
***Çiçəklər bərq vuranşehdə yuyunar.***
***Göy üzü şəfəqdən nura boyanar,***
***Yağış rəngli çələng toxuyar, dağlar.***

Rəfiqə xanımın gülləri, çiçəkləri çox sevdiyi diqqəti cəlb edir. Və çalışır ki, hər gülün, hər çiçəyin şeirdə özünəməxsus naxışlarını yarada bilsin.

Bənövşə, lalə məncə, onun çox sevdiyi çiçəklərdir. Amma bu sevgilər təkcə bir təbiət aşiqinin heyranlığı deyil, həm də şeirdə onların hər birinin obrazını yaratmaqdır.

***Səhərin mehindən titrəyən çiçək,***
***Bəzə çölü, düzü sən ləçək-ləçək.***
***Şehli yanaqların nə qədər göyçək,***
***Çiçək dənizinə qarışdın, lalə***

***("Lalə")***

***"Hər yetən əllərə düşməmək üçün***
***Kolların içində itib bənövşə"***

***("Bənövşə")***

Rəfiqə xanımın "Şəhid çiçək" şeirini oxuyanda kövrək hisslər səni bürüyür. Bir vaxtlar sevdiyi çiçək indi şəhid qanına batıb və o çiçək də şəhid olub.

***Çiçək, dayanmısan sən məlul-məlul,***
***Başını əymisən sinənə sarı.***
***Bir vaxtlar sən sevgi çiçəyi idin,***
***Xatırla adını bir əfə barı.***

Onun anasına həsr etdiyi şeirlər də beləcə kövrək misralarla öz əksini tapır. Onun Azərbaycanı-sevdiyimiz Vətəni tərənnüm edən şeirlərində bəzən rast gəldiyimiz tərənnüm misraları olsa da, hər halda böyük Vətənə sevgilərdən güc alır. Amma "Çinarlıya gedən yollar" şeiri həmin o böyük vətən məhəbbətinin başlanğıcı sayıla bilər. "Mənim gözümdən başlayır Çinarlıya gedən yollar".Rəfiqə xanımın vətənpərvərlik şeirlərinin içində bir "Başına dönüm" şeirini ayrıca qeyd etmək istəyirəm. Kimsəna kədərli şeir eyə bilər. Amma belə deyil. Kəərin içində də böyük işıqlı məhəbbət çırpınar. Əsl Vətən məhəbbəti.. Baxın:

***Başına dönüm mən, ana vətənim,***
***Bircə görünməsin gözünün yaşı.***
***Oğlu şəhid olan vətən ağlayar,***
***Hönkürər dağları torpağı, daşı.***

***Sıldırım qayası dağların döşü,***
***Göz oxşayan çəmən, çiçək vətəndir.***
***Bir qarışı üçün hər gün döyünən***
***Torpaq üçün susan ürək vətəndir.***

Elə bir qadın şairimiz tapılmaz ki, o, sevgidən, onun qəlbini alışdıran o hisslərdən, o duyğulardan söz açmasın. Bu mənada qadın qəlbi sirlərlə doludur, amma poeziya o sirlərin şeirlərdə açımı deməkdir. Hər bir qadın tənhalıq içindədir-deyirik. Rəfiqə xanım "Tənhalıq yamanca bürüyüb məni" deyir. Bu tənhalıq ümidsizlikdən, hansı bir arzununsa reallaşmamasından doğurmu? Bu tənhalığın ömrü bitəcəkmi? Bu suallara cavab vermək çətindir. Amma lazımdır bu tənhalıq-çünki tənhalıqda sevgi var və o sevgi nə zaman ki, sənin içində yaşayır və həsrət-qəm-kədər onu çulğalayırsa, tənhalıq o vadidən çəkilməyəcək. Rəfiqə xanımın sevgi şeirləri də elə bu tənhalıqdan doğur. Baxın:

***Hardan əsdi bu külək,***
***Yerə çırpdı gümanı.***
***Yollarımı bağlayıb***
***Ümidlərin dumanı.***

Yaxud:

***Soyuq dtvarları üstümə gəlir,***
***Xarabaya dönüb indi can evim.***
***Azalıb gülüşüm yarıbayarı,***
***Kədəri, qüssəni mən necə sevim.***

Əlbəttə, kədəri də, qüssəni də sevmək olar. Amma o kədərdə, o qüssədə sabaha ümid işartıları görünsün.

Bu yazıd mən Rəfiqə Abbasovanın bir sıra şeirlərindən söz aça bilmədim: "Mən Qarabağam", "Doğmalıq", "Yaman darıxır göy üzü" , "Məhəbbət çiçəyi", "Ata", "Ata evimiz", "Xəzər", "Verməz sənin yerini" və. Bu şeirlər onun ən yaxşı şeirlərinə misal ola bilər.

O ki qaldı onun uşaq şeirlərinə. Mən Qəşəm Nəcəfzadənin onun uşaq şeirlərindən ibarət "Utancaq bənövşələr" kitabına yazdığı ön sözə heç nə əlavə edə bilmərəm. Yaxşı təhlil edib o şeirləri.

Rəfiqə xanımın şeir dili sadədir, təmizir, kiçik qüsurlar nəzərə çarpsa da əsl şeir diliir.

Yalnız uğurların bol olsun deyrəm Rəfiqə xanım!



İbrahim Yusifoğlu

## *BAKI KÜLƏYİ*

**Sanki,bəd qaynana fağır gəlinə,**
**Hayqırırb səslənir,doymur ürəyi.**
**Zalımlıq fürsəti düşüb əlinə,**
**Həm asır, həm kəsir Bakı küləyi,**

**YamancasərtəsirBakıküləyi.**
**Göyüzübüsbütünbələnibtoza,**
**Günəşin al rəngi,bülənibboza,**
**Həyatıdöndəribiçiboşqoza,**

**Həmatır ,həmtuturxəlbir, ələyi.**
**YamancabərkəsirBakıküləyi.**
**Dənizçalxalanır,aşırsəddini,**
**Köklüağaclarınbükürqəddini.**

**Cığaladamkimikeçirhəddini,**
**Diziüstündədiduzu,çörəyi,**
**YamancatərsəsirBakıküləyi.**
**Gəlir uzaqlardanatlanıbgəlir,**

**Təbiətəzabaqatlanıbgəlir,**
**Qorxuya ,harayaşadlanıbgəlir.**
**Yıxıb - dağıtmaqdıistək, diləyi,**
**YamancapərtəsirBakıküləyi**

**Birsəbəbtapılmırdavalarına ,**
**Oynadırxəzəlihavalarına,**
**EdilənhərTanrıdualarına,**
**Yumşalır,səngiyirçılğınürəyi,**
**Yavaş-yavaşkəsirBakıküləyi**

## *NUR SAÇILSIN*

**Bir azcana üzüm gülcək,**
**Qismətimə daş atılır.**
**Zərrə boyda sevincimə,**
**Kədər, qüssə, qəm qatılır.**

**Bu ömürdən bezikmişəm,**
**Çox istəyə geçikmişəm,**
**Əlli ilə ev tikmişəm,**
**Nəm çəkməkdən ev dağılır.**

**Yetəmmədim söz taxtıma,**
**Heç düşmədi söz vaxtına,**
**Közü basdım öz baxtıma,**
**Söz süzülür, qaş çatılır.**

**Saçım, qışın qırov qarı,**
**Yeməyimdi yazma darı.**
**Şəkər, təzyiq düşmür barı,**
**Yeməyimə həbb qatılır.**

**İçim isti, çölüm buzdu,**
**Dodaq quru, dil susuzdu,**
**"Düşmənlərim" şəkər, duzdu,**
**Yağ da, bal da nəs sayılır.**

**Qızıl ömrüm döndü misə,**
**Alov söndü, düşdüm hisə,**
**Fərq olmadı yaxşı, pisə,**
**Yerə, göyə çən yayılır.**

**Bu halımla gedim hara,**
**Dərd əlindən gəldim zara.**
**Ulu Tanrı, et bir çara -**
**Dan sökülür, nur saçılır.**

## *ÖLÜMÜ GÖZLƏYƏN QOCA*

**Gen otaqlar ona dardı,**
**Çıxıb həyətdə gözləyir.**
**Deməyə çox sözü vardı,**
**Yetişən anı izləyir.**
**Qol da açıb onu quca,**
**Ölümü gözləyən qoca**

**Nəfəs dərir ağır-ağır,**
**Üz-gözündən giley yağır.**
**İstər dindir, istər çağır,**
**Çətin sözə qulaq asa,**
**Ölümü gözləyən qoca**

**Saf ömrünə lil qatdılar,**
**Böhtan, nöqsan, çirk atdılar,**
**Sındırdılar, alçatdılar**
**Hər halında oldu uca,**
**Ölümü gözləyən qoca.**

**Dönüb bir də geri baxmır,**
**Nə kövrəltmir, nə də yaxmır,**
**Torlu görür, eynək taxmır**
**Baxışları dönüb buza,**
**Ölümü gözləyən qoca**

**Bilə bilmir, bu nə haldı,**
**Ölüm harda ölüb qaldı.**
**Yəqin, şeytan tora saldı,**
**Heç bilmir ki, necə yoza,**
**Ölümü gözləyən qoca.**

**Dinən çağı dinənmədi,**
**Gülən vaxtı gülənmədi,**
**Ölən çağı ölənmədi.**
**Həyatından bezən qoca**
**Ölümü gözləyən qoca!**

## *BİR QIZ GÖRDÜM SƏNƏ BƏNZƏR*

**Bir qız gördüm sən yerişdə,**
**Sən duruşda, sən biçimdə.**
**Sənə oxşar gülüşündən,**
**Ovsunlandı söz içimdə**

**Yanağı dağ lalasıydı,**
**Hürkək ceyran balasıydı,**
**Pəmbə bulud talasıydı,**
**Yağasıydı su içimdə.**

**Qaşlarını dartması da,**
**Gözdə ocaq çatması da,**
**Saçların yan atması da,**
**Sən nizamda, sən edimdə**

**Süzgün baxıb boylanmağı,**
**Nazla gəzib dolanmağı,**
**Hamını xoş, dost sanmağı,**
**Sənə bənzər, sən seçimdə.**

**Bir az dəcəl, şıltaq qızdı,**
**Neçə donmuş qəlblər qızdı,**
**Baxışları sərhəd çızdı,**
**Sənə bənzər, sən seçimdə.**

**Bir qız gördüm, sənə bənzər,**
**Duyğulanıb saldım nəzər,**
**Bu sən idin, lap təzə-tər,**
**Çözələndi köz içimdə**

## *QƏLBİNDƏN VƏTƏN BOYLANIR*

*Ömür gün yoldaşı şəhid olmuş mərd qadına*

**Gözlərinin didəsindən,**
**Kiprik boyu nəm boylanır,**
**Baxışların piləsindən,**
**Kədər hoppuş qəm boylanır.**

**Ay şən gülüb,lal ağlayan,**
**Qara örpək , şal bağlayan,**
**Acı dərdi, bal saxlayan,**
**Zilin yenib, dəm boylanır.**

**Sinən dözdü çarpaz dağa,**
**Şəhid verdin nəm torpağa,**
**Döndün saralmış yarpağa,**
**Günəş sönüb çən boylanır.**

**Bir üzü qız, bir gəlin,**
**Yorulmadı işdə əlin,**
**Oğlun, qızın, nəvələrin,**
**Sabahına şən boylanır.**

**Bu gün ana ,həm nənəsən,**
**Səndən olmaz birdənəsən,**
**Göylər boyda ümmansan sən,**
**Qəlbindən Vətən boylanır.**

## *HARAYA QAÇIR BU ADAM*

**Addımları qırıq-qırıq,**
**Üzü, gözü cırıq-cırıq,**
**Gödəkçəsi sırıq-sırıq -**
**Haraya qaçır bu adam?**

**Eli yoxdu, eldən qaça,**
**Evi yoxdu, evdən qaça,**
**Yağış yağmır, seldən qaça -**
**Qəm-kədər saçır bu adam.**

**Göz yaşı gözündə donub,**
**Saçlarına qırov qonub,**
**İtə, pişiyə dost olub**
**Dərdini açır bu adam.**

**Nəyi gəlir qəmdən gəlir,**
**Görən deyir: "Dəmdən gəlir",**
**Qarğa, quzğun həmdəm gəlir -**
**Onları qucur bu adam.**

**Ömür sürür qurdla, quşla,**
**Gül qoxlayır belə huşla,**
**Yola gedir bəd virusla,**
**İnsandan qaçır bu adam!**

## *MƏNƏ BİRCƏ GİLƏ GÖZ YAŞI BƏSDİ*

**Göylərin üzünü aldı buludlar,**
**Qəlbimi ürpədən külək də əsdi.**
**Mənim səndə xeyli əmanətim var,**
**Qaytarsan... bir gilə göz yaşı bəsdi.**

**Bitdin bənövşətək yolumun üstə,**
**Yaydın yaylığını qolumun üstə,**
**Yığdım dərdlərimi solumun üstə,**
**Ağrılar çoxaldı səbrimi kəsdi,**

**Mənə bircə gilə göz yaşı bəsdi.**
**Vətənin obasın, elin sevmişəm,**
**Günəşin, yağışın, yelin sevmişəm,**
**Anamın şipşirin dilin sevmişəm,**
**Zirvənin qartalı, sərt qaşı bəsdi**
**Mənə bircə gilə göz yaşı bəsdi.**
**Bəxtimə düşənlər Tanrıdan gəlir,**
**Sevincim, kədərim yarıdan gəlir**

**Bütün istəklərim "barı"dan gəlir,**
**Həyat nə verdisə bir üzü tərsdi,**
**Mənə bircə gilə göz yaşı bəsdi.**
**Bir gün göz yaşıyla yuyulacağam,**

**Üç qarış torpaqda uyuyacağam.**
**Bir parça sal daşda duyulacağam,**
**Tanrımın verdiyi öz yaşı bəsdi,**
**Mənə bircə gilə göz yaşı bəsdi.**

## *ÇƏTİN OLACAQDI BU PAYIZ SƏNƏ*

**Daha sısqa-sısqa yağışlar yağır,**
**Yağışa qarışan qarğışlar yağır,**
**Qarğışa qarğıyan şimşəklər çaxır,**
**Yolların bürünür dumana, çənə -**
**Çətin olacaqdı bu payız sənə.**

**Sevdiyin çiçəklər, güllər solacaq,**
**Pəncərən önündə tüllər solacaq,**
**Hərsolangününəgözündolacaq,**
**Saçlarınbələnirqırova, dənə -**
**Çətinolacaqdıbupayızsənə.**

**Heyinqalmayıbdıçağlamağına,**
**Ürəkdənhönkürübağlamağına,**
**Sonuncudüymənibağlamağına,**
**Taqətinyenibdiyarıya-tənə -**
**Çətinolacaqdıbupayızsənə.**

**Bu payızgününügörəydingərək,**
**Sevginəbirqəsirhörəydingərək,**
**Dizinə-başınadöyəydingərək,**
**İndi köksötürməkeçib-gedənə -**
**Çətinolacaqdıbupayızsənə.**

**PayızDədəQorqudlibasıgeyib,**
**Hərömrünpayını, adınıverib,**
**Sənəsənəana, nənənədeyib,**
**Tənhalıqçökübdüsolmuşçöhrənə -**
**Çətinolacaqdıbupayızsənə.**

## *GECİKMİŞ MİSRALAR*

**Özümü duyandan gizlicə, aşkar,**
**Ruhumu oxşayan gül axtarırdım.**
**İlməsi qardan ağ, üstündə cüt nar.**
**Pəncərə önündə tül axtarırdım.**

**Sənə tuş gəlmədim baharda, yayda,**
**Çölü, çəmənliyi gəzdi gözlərim.**
**Bir payız günündə çatdılar dada,**
**Səndən əllərini üzən gözlərim.**

**Gödüm, o çiçəksən_ gəzdiyim gülsən,**
**Ruhuma yayılan ətrin bəsimdi.**
**Nə qədər xöşbəxtəm , nə qədər, bilsən,**
**Sevincdən ürəyim əsim_əsimdi.**

**Gəlmisən mələyin qanadlarında,**
**Saçını küləklər darayırdılar.**
**Alma qızartısı yanaqlarında,**
**Gözlərin yolumu arayırdılar.**

**Yamanca hürkəkdin, yaman təlaşlı,**
**Arxanca bir qısqanc göz izləyirdi.**
**Ancaq xəyalında bir qaraqaşlı,**
**Səni oxşayırdı , əzizləyirdi.**

**Sənli keçəcəkdi ömrümün ardı,**
**Qəlbimdən kədəri, qəmi silmişəm,**
**Nə yaxşı, həyatın paqızı vardı,**
**Nə yaxşı, mən səni tapa bilmişəm.**

# Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

**№ 35 (2359) 15 sentyabr 2023-cü il**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# SÖZÜN DÜZÜNÜ DEMƏK...

**Hər bir fikir, hər bir cümlə sözdən başlayır. Çünki sözlə insan bütün düşüncələrini və fikirlərini ifadə etməyi bacarır. Başqa sözlə demiş olsaq, sözün gücü, qüdrəti və qüvvəsi hər şeydən üstündür. Tanınmış yazıçı-publisist Əli Rza Xələfli söz haqqında danışanda deyir: "Söz insan dünyasının mənəvi mənzərəsidir - gözəlliyi özünə çəkmiş mənzərəsi. Söz insanın fikir-düşüncə aləminə yoldur. Söz adlı iksirin gücünə insanların qəlbində məhəbbət ağacı bitir. Sözdən su içir həyat ağacı - tumurcuqları yarpağa, çiçəyə dönür, barbəhər gətirir. Söz səslə eşidilir, söz sözlərdən də oxunur - bütün hallarda körpü sözdür. Söz doğuluş olduğu kimi, həm də geriyə dönməz hərəkət, sonsuzluqdakı labüd sonluqdur. Söz bütün ağrıların ən üstün dərmanıdır. Söz türkün silahıdır; türkün sözü - qılıncın sözü!".**



Bax, söz belə bir gücə, belə bir enerjiyə malikdir. O söz ki vaxtında deyilmir, vaxtında çiçəklənmir, vaxtında öz nöqtəsinə çatmır, deməli, heç o sözü deməyə dəyməz. Amma gəlin onunla razılaşaq ki, uzun müddət deyiləsi, yazılası, kimlərəsə ünvanlanası sözlər ürəyimizdə qalıb dərdə, kədərə çevrilib. Xüsusən də o söz ki mətbuatda, cəmiyyət arasında və digər kütləvi informasiya vasitələrində, lap elə kitablarda yazılmırsa, deyilmirsə və deyiləndə də o sözü deyən adamın başına oyun açırlarsa, bax, burda günah sözdə deyil, günah o cəmiyyətin özündədir. Əlbəttə, Sovet dönəmində söz, mətbuat, fikir azadlığına çox böyük qadağalar olub. Təsəvvür edin, biz universitetdə oxuduğumuz illərdə Novruz bayramı ilə bağlı səməni göyərtdiyimizə və bir yığıncaqda milli ruhda çıxış etdiyimizə görə başımıza olmazın müsibətlərin açdılar. Tələbə dostlarımızın bir neçəsini yuxarılara çağırdılar, orda onlara elə təpindilər ki, az qala sarılarını udmuşdular. Və demişdilər ki, bu dəfə sizi bağışlayırıq, ikinci dəfə belə işlərə qol qoysanız millət, xalq, cümhuriyyət desəniz universitetdən qovulacaq və hətta türmədə yatacaqsınız. Ona görə də biz tələbələr həmin dövrlərdə kütləvi tədbirlərdə də iştirak edəndə diqqətli olurduq ki, ağzımızdan Sovet hökumətinin əleyhinə bir söz çıxmasın və bizi də çək-çevirə salmasınlar.

Tək biz deyildik, sözün düzünü deyən, həqiqəti, azadlıq ideyalarını millətə çatdıran şairlərin, yazıçıların, alimlərin, publisistlərin günlərini göy əskiyə bükmüşdülər. Bir balaca haqqı, həqiqəti deyən adam o dəqiqə müxtəlif təzyiqlərə və təsirlərə məruz qalırdı. Hətta deyirdilər ki, filankəs tələbələr arasında anti-sovet təbliğat aparır. Bütün bunları biz 70-ci illərdə tələbəlik dövründə görmüşük və yaşamışıq. Görməyənlərə də xatırladırıq ki, bax, o dövrdə söz, fikir və polemika münasibətlərinə çoxları bir o qədər də ədalətlə yanaşmayıblar və hər şeydə bir qaranlıq məqam, bir qəmbərqulu axtarıblar.

Nə yaxşı ki, ölkəmiz müstəqillik qazandı və bu istiqamətdə qısa zaman kəsiyində çox böyük sağlam mühit və rahat bir şərait yaradıldı. O sağlam mühit də ondan ibarət idi ki, Azərbaycanda söz və mətbuat azadlığına, fikir plüralizminə "yaşıl işıq" yandırıldı. Düzdür, biz birdən-birə bu azadlığı və sərbəstliyi əldə edəndə "qırmızı xətti" keçməyə başladıq. Bir çox halda bəziləri elə düşünürdülər ki, demokratiya, söz, mətbuat, fikir azadlığı o deməkdir ki, adam ağzına gələni danışa bilər. Ona görə də bəzi fikirlər söz azadlığından çox təhqirə bənzəyirdi. Və bu müddətdə bir çox insanlar, xüsusilə də vəzifəli şəxslər mətbuatda təhqir olunmaları ilə bağlı məhkəmələrə müraciət etdilər və bu məhkəmə prosesləri zamanı həmin şəxslər bəraət qazandılar. Yəni məlum oldu ki, həmin vəzifəli şəxslər tənqid deyil, təhqir olunublar.

Təbii ki, illər keçdikcə həm mətbuatımız, həm də cəmiyyətimiz müəyyən təcrübə qazandı. Sağlam və milli ruhlu mətbuat Azərbaycanın müstəqilliyini, bu yolda aparılan məqsədyönlü və uğurlu siyasəti dünyaya və cəmiyyətimizə çatdırdı. Cəmiyyətdə də gördülər ki, həqiqi sözü, ədalətli fikiri insanlara çatdıran mətbuat orqanları doğrudan da fəaliyyət göstərir. Və bu mətbuat orqanlarının həm başında duran, həm də əməkdaşları birmənalı olaraq Azərbaycan xalqının bütövlüyünə, demokratik dəyərlərə yiyələnməsinə, fikir və söz azadlığına xidmət edir.

Üstəlik də Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıtması birmənalı olaraq Azərbaycan mətbuatının üzərindən və çiynindən ağır yükü götürmüş oldu. Çünki Ulu Öndər həm Milli Mətbuat günündə, həm də digər görüşlərində jurnalistlərə bildirmişdi ki, qəzetlərin və mətbuatın demokratik ruhda çap olunması üçün bütün köməklikləri göstərəcək və onlara dəstək verəcək. Aydındır ki, Ulu Öndər öz sözünə həmişə sadiq olub və verdiyi vədi zamanında yerinə yetirib.

Ona görə də mətbuat işçiləri Ulu Öndərin qayğısını və köməyini hiss etdilər. Başqa sözlə demiş olsaq, mətbuata maddi və mənəvi dəstək gəldi. Bu dəstəyi biz jurnalistlər hər zaman, hər dəqiqə hiss etməyə başladıq.



Onu da qeyd edək ki, cəmiyyətdə gedən bu cür sağlam münasibətlər istər-istəməz yeni nəslin yetişməsində, vətənpərvərlik ruhunda böyüməsində demokratik və hüquqi yol tutmasında önəmli əhəmiyyət kəsb etdi. Artıq gənclərimiz, yeni nəsil gördü ki, Azərbaycanda söz, mətbuat və fikir azadlığına böyük önəm verilir. Sözün düzünü demək özü də cəsarət tələb edir. Çünki sözün düzü həmişə haqqın, ədalətin, demokratiyanın və təmiz vicdanın qələbəsi deməkdir. Belə bir mühitdə, belə bir şəraitdə yaşamaq, işləmək və fəaliyyət göstərmək əlbəttə, daha rahat və daha asandır. Şübhəsiz ki, Azərbaycanda çox böyük demokratik proseslər bundan sonra da uğurla davam edəcək. Sözün, mətbuatın, fikrin və düşüncənin azadlığı ölkəmizdə daha geniş vüsət alacaq. Başqa sözlə demiş olsaq, Azərbaycan siyasi, iqtisadi, hərbi sahədə böyük uğurlar əldə etdiyi kimi, söz, mətbuat və fikir azadlığına da bundan sonra da münbit şərait yaradacaqdır.

**Dünyanın bu gün diqqəti Azərbaycana yönəlib. Ən azından ona görə ki, bütün inkişaf etmiş qabaqcıl ölkələr Azərbaycanla iqtisadi-siyasi və mədəni əlaqələr qurmağa çalışır. Çünki Azərbaycan öz ərazi bütövlüyünü 2020-ci il noyabrın 10-da 44 günlük İkinci Qarabağ savaşında təmin edib və ölkədə əmin-amanlınq, sabitlik və sülh yaradıb. Təbii ki, belə bir şəraitdə söz və mətbuat azadlığı da sürətlə inkişaf edəcək.**

**Faiq QİSMƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# Uşaq zorakılığına qarşı mübarizə

## Cəmiyyətin ən ağrılı problemi




*Zakir Bayramlı,*
*Şair-publisist, AY və AJ Birliyinin üzvü, qocaman təhsil işçisi*


**Əvvəlki söhbətlərimizdə dediyim kimi zoraklıq öz güc-qüvvətindən,səlahiyyətindən, imkanlarından, nüfuzundan, eləcə də xidməti vəzifəsindən və b. sui istifadə edərək digərlərinin bilə-bilə, yəni qəsdən incidilməsi və onlara əzab verilməsidir. Təhlillərdən məlum olur ki, zoraklığın bir çox iyrənc, təhlükəli və qorxulu növlərini uşaqlar üzərində tətbiq etmək daha asan və rahatlıqla həyata keçirilir.**

Uşaq zoraklığı kal armud kimi bu gözəl və yaraşıqlı dünyamızın boğazında ilişib qalıb. Nə irəli, nə geri gedəsi yolu var.

Dünya ictimaiyyəti, nüfuzlu beynəlxalq təşkilatlar nə qədər yeni-yeni proqramlar işləyib hazırlayaraq müəyyən tədbir görsələr belə bu işin mənfi yüklü fəsadlarından hələ də bəşəriyyət yaxa qurtara bilmir. Ona görə də istər valideynlər, istərsə dətərbiyəçilər və müəllimlər uşaqlarla , yeniyetmələrlə və gənclərlə münasibətlərdə çox ehtiyatlı davranmalı, şəxsi emosiyalara qapılaraq tərbiyəni kökündən baltalayan kobud səhvlərə yol verməməlidirlər.

Ümumdünya Səhiyyə Təşkilatının hesabatına əsasən hər il dünyada 1,5 milyon uşaq zoraklığa məruz qalır. Hər beş uşaqdan biri ( yəni ümumi uşaqların 20%-i) zorlanaraq cinsi istismarın qurbanı olur. Dünya üzrə 120 milyon qız uşağı, onların 10%-dən çoxu 20 yaşına qədər olanlar zorlama və başqa seksual formada istismara məruz qalmışdır. Bütün beynəlxalq birliklər, o cümlədən Avropa Şurası Parlament Assamleyası da hər il uşaq zoraklığına qarşı mübarizəyə qoşulur. Avropa Şurasının Azərbaycandakı Ofisinin tövsiyyəsi ilə respublikamızdakı vətəndaş cəmiyyətlərinin, siyasi və sosial qüvvələrin birgə mübarizəsinin əsas məqsədi 3 yaşına kimi körpələri zoraklığın hər hansı formasından xilas etmək məqsədi daşıyır. Bundan əlavə uşaq hüquqlarının müdafiəsinə aid 2002, 2004 və 2005-ci və sonrakı illərə aid olan bütün beynəlxalq kampaniyalarda respublikamız fəal iştirak edib. Lakin istər beynəlxalq aləmdə, istərsə də respublikamızda uşaqların qorunmasına aid möhkəm hüquqi baza yaradılsa da , qəbul olunmuş qərar və qanunların icrasının təmin edilməsi məqsədilə yeni işlək mexanizmlər işlənib həyata keçirilsə də yenə, uşaq zoraklığının həlli problemi bütün dünyada olduğu kimi respublikamızda da tam həllini tapa bilməmişdir.

BMT-nin Uşaq Fondu UNCEF-in hesabat məlumatlarına əsasən təkcə 2012-ci ildə Latın Amerikası və Karib hövzəsi dövlətlərində 95 min uşaq və yeniyetmə zoraklıq yolu ilə öldürülmüşdür. Dünya üzrə çoxlu sayda uşaqlar və yeniyetmələr fiziki və seksual zoraklıqdan başqa ciddi fəsadlara yol açan psixoloji zoraklığa da məruz qalımışlar.

Dünyanın 190 ölkəsində zorakılıq adlı qorxunc və iyrənc bəla uşaqların sağlamlığına, yaşayış tərzinə mənfi təsir edir, onların normal həyatlarını zəhərləyir. Dünya üzrə ən çox Konqo Demokratik Respublikasında, Zimbabyedə, Tanzaniyada, Uqanda və başqa ölkələrdə uşaqların valideynləri, himayəçiləri və başqa şəxslər tərəfindən zorakılıq yolu ilə fiziki cəzalara məruz qaldıqları bildirilir.

2015-ci ildə təkcə Afrikada 500 nəfərə yaxın qadın və uşaq zorakılıq yolu ilə terrorçular tərəfindən oğurlanmışdır. BMT-nin məlumatlarına görə dünyada qadın və qızların 35%-i ən azı bir dəfə fiziki və cinsi zoraklığa məruz qalır.

Beynalxalq araşdırmalar göstərir ki, bəzi valideynlər özləri də öz hüquq və vəzifələrindən sui istifadə edərək uşaqları söyür, döyür, alçaldır, təhqir edirlər. Onlar uşaqların əl-ayağını bağlayır, əllərini, ayaqlarını və ya bədəninin başqa nahiyələrini yandırır (damğalayır), uşaqları evdə yatdığı çarpayılarına bağlayırlar.

Oz valideynlik vəzifələrini unudan bəzi ata və analar uşaqları istirahət etməyə və yatmağa evə buraxmır, qəddarcasına hərəkət edərək onları əlverişsiz havada küçədə və ya çöldə gecələməsinə məcbur edirlər.

Göstərilən səbəblərdən bəzi uşaqların valideynləri tərəfindən uzun müddət fiziki və psixoloji təzyiq altında saxlanılması, uşaqlarda öz doğma valideynlərinə qarşı güclü nifrət hissi yaradır. Uzun illər bu nifrət hissi uşaqların yaddaşını tərk edə bilmir. Uşaqlar öz valideynlərini görmək belə istəmirlər. Onlar valideynlərinin barbar hərəkətinə etiraz etməyə, kiməsə bu barədə danışmağa və ya məlumat verməyə isə qorxur və ehtiyat edirlər.

Böyuk yunan alimi Apistotel vaxtıkən uşaq zorakılığına aid belə bir gözəl və ibratamiz ifadə işlətmişdi: " Döyməklə uşağı yalnız korlamaq olar".

Dünya üzrə hər il təkcə valideynlər tərəfindən deyil, bəzən tərbiyə və təhsil verənlər tərəfindən də uşaqların döyülməsi və təhqir edilməsi faktları mətbuat, radio və televiziya, eləcə də sosial şəbəkələrdə açıqlanır.

Bəzi məktəblərdə təhsil alan şagirdlərin müəllimləri tərəfindən döyülməsi yer üzündə zoraklıq probleminin həllini daha da çətinləşdirir.

Belə ki, uşaqların dərs aldığı sinifdə və ya oxuduğu məktəbin hər hansı bir hissəsində şagirdlərin gözü qarşısında müəllimi tərəfindən döyülməsi, söyülməsi və digər üsullarla təhqir edilməsi, alçaldılması uşağın qəlbində müəllimə qarşı uzunmüddətli kin,küdurət yaradır. Bu acıq, kədər hissi sanki sağalmaz bir yaraya çevrilir.

Uşaqların daxilindəki bu neqativ, dağıdıcı hiss, mənfi enerji getdikcə daha da güclənir. O cür zərər çəkmiş uşaqlar bütün şagird yoldaşlarına, məktəbə, hətta özlərinə belə nifrət edirlər. Və bu mənfi hissləri daşıyan uşaqlar böyüyüb yaşlansalar belə həmin neqativ yükü onların yaddaşlardan silib, kənarlaşdırmaq heç vaxt mümkün olmur.

Demək olar ki, ilk dərsə başlayanda bütün uşaqlar, kiçik istisnalar olmaqla, hamı məktəbə oxumaq, mükəmməl təhsil və tərbiyə almaq məqsədilə gəlirlər. Ancaq bəzi valideynlər nadanlıqları, savadsızlıqları və ya vaxt bölgüsünə riayyət edə bilməmələri səbəbindən vaxtında uşaqlarını məktəbə hazırlamaq imkanını əldən verirlər.

Uşaq bağçası-körpələr evində tərbiyə almayan, evdə valideynləri tərəfindən məktəbə hazirlanmayan belə uşaqlar məktəbə gəldikdə ibtidai siniflərdə dərs deyən müəllimlər üçün onların bilik və davranış məsələsində müəyyən çətinliklər yaranır.

Müəllim həmin uşaqlarla əlavə məşğul olmaq və ya bu sahəyə aid sınanılmış qabaqcıl təcrübədən istifadə etmək, yeni tədris üsulları və texnologiyaları axtarıb, tapmaq əvəzinə yersiz həyəcanlanır, əsəbiləşir. Pedaqoji etikadan kənara çıxaraq dərsi öyrənməyən və ya sinifdə nadinclik edərək dərsin gedişini pozan uşaqları sinifdəki şagirdlər arasında söyür, döyür, təhqir edərək aşağılayır, sinif otağının küncündə saxlayır və s. Müəllimin əsas məqsədi fiziki təzyiq yolu ilə geridə qalmış həmin şagirdləri irəlidə gedən şagirlərə çatdırmaq olsa da o, bunu pedaqoji ustalığının zəifliyi və psixoloji təcrübəsinin azlığı üzündən bacarmır.

Səs-küy salmaq, qışqırıb-bağırmaq, geridə qalan uşaqlara acıqlanmaq, onları döymək, söymək və başqa yollarla istəyinə çata bilmir.

Həyatda hələ tam bərkiməmiş həyəcan və qorxu içərisində olan həmin uşaqlar isə müəllimin hər gün təkrarlanan təzyiqlərinə davam gətirə bilmirlər. Onların məktəbə və dərsə həvəs və istəkləri yavaş-yavaş zəifləməyə və ölməyə başlayır. Məktəbə hazırlıqsız gəlmək, ev və sinif tapşırıqlarını yerinə yetirməmək, dərsə gecikmək, müəllimə diqqətlə qulaq asmamaq və s. adi hala çevrildiyi üçün bu hal müəllimləri də bezikdirir. Onlar geridə qalan uşaqları özlərindən kənarlaşdırmaq üçün müxtəlif yollar axtarırlar.

Bəzən isə hətta sinifdən çıxarırlar. Bax, faciə elə buradan başlayır. Valideyn və müəllim nəzarətindən kənarda qalan nadan , təcrübəsiz, dünya görüşü məhdud həmin uşaqlar əvvəlcə küçələrdə boş-boşuna veyillənirlər. Bir müddətdən sonra isə onlar valideynin, məktəbin və ictimaiyyətin nəzarətindən tamamilə kənarda qalırlar.

Nəticədə nə baş verir? Həmin uşaqlar öz ağılsızlıqları üzündən onlardan yaşca böyük olan hiyləgər, pis vərdişləri, adətləri və hərəkətləri yayan bəzi insanların qurduğu qorxunc tələyə düşürlər.

Və çox keçmir ki, onlar bu gözəl dünyamızı zəhərli ilan kimi sancan zərərli, qorxulu və qanunla qadağan edilmiş pis vərdiş və adətlərin ağuşuna düşərək bir azdan əsl qurbana çevrilirlər. Ömürlərinin sonuna kimi isə bu çirkab dolu bataqlıqdan çıxa bilməyib əvvəlcə müxtəlif infeksiyalara, sağalmaz xəstəliklərə tutulurlar. Daha sonra isə yaşadıqları acı və dözülməz faciəli həyatın ağırlığına dözə bilməyib nəticədə məhv olurlar.

Mənim zənnimcə uşaqların təlim-tərbiyəsi işində bəzi valideynlər və müəllimlər uşaq psixasını iflic edən zorakılıq-mənfi yüklü fiziki və psixoloji təsir üsul və vasitələrindən istifadə etmək əvəzinə daha faydalı və təhlükəsiz yollar axtarıb tapmalıdırlar. Xüsusilə müəllimlər əvvəlcə uşağın fiziki sağlamlığını, psixoloji durumunu, xarakterini, meyl və maraqlarını, daxili dünyasını, onun ailə vəziyyətini, xüsusilə ata-anası və yaşayış şəraiti haqqındakı məlumatları əldə edib geniş təhlil aparmalıdırlar.

Hər bir səbəb yaxşıca araşdırılıb təhlil edilmədən müəllim tələm-tələsik qərar verməməlidir. Öz işində "yüz ölç, bir biç! " prinsipinə əməl edən müəllim mənim şəxsi fikrimcə heç vaxt təlim-tərbiyə işində ciddi və kobud səhvə yol verə bilməz. Uşaqları başa salmaq, inandırmaq, onların kiçik qəlbinə yol tapmaq, şəxsi nümunədən istifadə etmək, onlarda kitaba, oxuya və yazıya daha yüksək maraq oyatmaq, onlara nəzarəti gücləndirmək və s. üsullarla təlim- tərbiyədə istənilən uğuru qazanmaq olar.

Dünyada uşaqlara qarşı cinsi zoraklığın artmasında internetdə nümayiş etdirilən parnofilmlər də böyük rol oynayır. İnterpolun məlumatına görə son 2-3 ildə internetdə 100-dən artıq uşaq pornoqrafiya saytı fəaliyyət göstərir.

Bu əclaflıq və biabırçı hal son illərin ən gəlirli biznes sahəsinə çevrilib. İnternetin hesablamalarına görə uşaq pornoqrafiyasına görə kibercinayətkarlar ildə 3 milyard dollar bu sahədən gəlir əldə edirlər.

**Dünyanın nüfuzlu beynəlxalq təşkilatları və onların hər ölkədə olan nümayəndəlikləri bütün çətinliklərə baxmayaraq uşaq zoraklığına qarşı mübarizəni bu gün də uğurla davam etdirirlər. Lakin danılmaz faktdır ki, uşaq zoraklığına qarşı mübarizə təkcə beynəlxalq təşkilatların və hüquq-mühafizə orqanlarının vəzifəsi yox, bütün dünya ictimaiyyətinin, yer kürəsinin hər bir sakininin doğma işi hesab olunmalıdır.**

# Qəbristanlıq...



**Ötən əsrin 60-cı illərində kəndimiz çox kiçik idi. Burada yaşayan ailənin sayı heç yüzə çatmırdı. Kəndimiz bir çox sahədə hələ müstəqil və möhkəm addımlar ata bilmirdi. Bizi ətraf mühitlə birləşdirən yeganə yol da olduqca bərbad vəziyyətdə idi. Qonşu kənddən ayrılıb müstəqil həyat yoluna qədəm qoyduq. Və kəndimizdə ancaq ona xas olan bir xeyli özünəməxsus qaydalar mövcudluğa başladı və mükəmməlləşdi. Kəndimiz sözün həqiqi mənasında milli dəyərlərə əsl qiymətini verdi və onları gələcək nəsillərə ötürdü. İndi artıq kəndimiz çox böyüyüb və burada xeyli tanınmış adamlar dünyaya göz açıb. Adamlar burada mənalı ömür sürür, xoş və firavan həyat tərzi keçirirlər.**

Kəndimiz elektrik enerjisi ilə tam təmin olunub, evlərə təbii qaz çəkilib. Yeni, müasir və işıqlı məktəb binamız göz oxşayır.. Yolumuz da axır ki, müasir tələblərə cavab verən qaydada çəkildi. Bu asfalt yolla maşın sürmək adama estetik zövq verir.

Bəli, ötən əsrin ortalarında kəndimizin sakinlərindən biri dünyadan köç edəndə, onu torpağa tapşırmaq müşkül olurdu. Dəfn mərasimini həyata keçirmək kəndin adamları üçün böyük problem yaradırdı. Texnikanın az olduğu bir vaxtda kənd sakinləri olmazın əzab-əziyyət ilə üzləşir, mərhumu Rəncbərlər kəndinin yanındakı Kəbirli gorgahı olan Sofi qəbristanlığında aparıb dəfn edirdilər.

...1863-cü ildə Kəbirli mahalında dünyaya gələn Ağamalı Alı oğlu Ağamalıyev Salmanbəyli kəndində məskunlaşmışdı. O, həmkəndlilərindən biri dünyasını dəyişəndə adamların çəkdiyi ağır əziyyətə dözə bilmirdi. Odur ki, yaxın qohumu, dindar Molla Mirzəni bir dəfə özü ilə götürüb arxın üstünə apardı.

Kəndin yaxınlığında əvvəlcədən nişanladığı yeri göstərib (sən bir işin qəribəliyinə bax, bu yer qədim Qalatəpənin qəbristanlığının qurtardığı yerdən başlayır), vəfat edərkən onu burada dəfn etməyi vəsiyyət eləmişdi. Və demişdi ki, qoy bizim kəndin də qəbristanlığı olsun, artıq uzağa getməyin, dağa-daşa düşməyin.

1968-ci ildə Ağamalı kişi həyatla vidalaşdı. Vəsiyyətinə görə, onu seçdiyi, göstərdiyi yerdə dəfn etdilər. Sonralar kənddən dünyasını dəyişənlər olanda Ağamalı kişinin məzarının yanında dəfn etdilər.

İndi Ağamalı dayının vəsiyyəti ilə salınan bu qəbristanlıq böyüyüb, öz abadlığı, səliqə-səhmanı ilə seçilir. El ağsaqqalı, xeyriyyəçi olan Ağamalı kişinin adını daşıyır kəndimizin qəbristanlığı. Allah bu qəbristanlıqda dəfn olunanların hamısına rəhmət eləsin!

**...Qəbristanlıq! Bu yerdə izah olunması çoxda asan olmayan qəribə və möcüzəli cazibə qüvvəsi var. Gözəgörünməz, çox qüvvətli bir güc ilə qəbristanlıq bizləri həmişə özünə çəkir. Dünyasını dəyişənlərə qoynunda əbədi beşik verir. Qalanların and yerinə çevrilir qəbristanlıq. Yurdumuz, yuvamız, dəyişməz məkanımız olur qəbristanlıq...**

**Adil Misirli**
**Qarabağ üzrə bölgə müxbiri**

# "Şərq musiqisinin incisi" xatirələr kitabı

*Keçmiş adamların ləyaqəti haqqında bizim istinad edəcəyimiz mənbə tarixdir.*

*Mirzə Fətəli Axundzadə*

**Bu günlərdə "MİMTA YAYIMLARI" Xalq artisti, Əməkdar müəllim Seyid Şuşinski haqqında "Şərq musiqisinin incisi" xatirələr kitabımı çap edibdir. Bəri başdan Milli İrsi Mədəni Tarixi Araşdırmalar fondunun rəhbərliyinə, əməkdaşlarına təşəkkür edirəm.**

Azərbaycan muğam ifaçılığı tarixində müstəsna xidmətləri və yeri olan Seyid Şuşinski Allahın dərgahına qovuşanda mən hələ orta məktəbdə oxuyurdum. Ona görə də Seyid Şuşinskini görmək, onunla ünsiyyətdə olmaq, nəğməli söhbətlərini dinləmək mənə qismət olmayıb. Ancaq hələ məktəbliykən Seyidin səsini qrammofon valından eşitmişdim. Bizim evdə Seyid Şuşinskinin valı ilə yanaşı, Bülbülün, Xan Şuşinskinin, Zülfü Adıgözəlovun valları da vardı. Mən tez-tez bu böyük sənətkarların vallarına qulaq asardım. Onların vallardan ucalan səsləri mənim uşaqlıq ruhuma hakim kəsilmişdi. İllər keçdi, yaşa doldum, amma onların bənzərsiz səslərini yaddaşımdan perik salan başqa bir səs olmadı.

Sovet dövründə bir çox sənətkarlarımız haqqında portret oçerklər yazıb respublika radiosunda səsləndirmişdim. Qəribə də olsa, Seyid Şuşinski haqqında yazmağa cəsarət etməmişdim. O dövrdə bunun səbəbi çox sadə idi. Sovet ideologiyasının tələblərinə görə, gərək Seyid Şuşinskinin Tiflisdə mehmanxanası, restoranı, hətta "Mersedes" maşınının olması barədə susaydım. Çünki sovet hökuməti qurulanda bu şəxsin mülkiyyəti əlindən alınmışdı. Seyid Şuşinski bir xanəndə kimi nəinki sadə insanların, milyonçuların belə sevimli xanəndəsi olmuşdu. Amma milyonçulardan, onların xanəndəyə etiramından, bəxşişlərindən danışmaqmı olardı. Bax bu kimi səbəblərə görə bu böyük xanəndə haqqında radio verilişi yazmamışdım. Amma onun barəsində nəsə yazmağı özümün mənəvi borcum bilmişdim.

Seyid Şuşinski haqqında ilk kitabı musiqi tədqiqatçısı Firidun Şuşinski yazıb. Firidun Şuşinskiyə isə nəinki Seyid Şuşinskini görmək, onunla saatlarla söhbət etmək, toylarda, məclislərdə canlı oxumaqlarına qulaq asmaq fürsəti qismət olmuşdu. Firidun Şuşinskinin "Seyid Şuşinski" kitabı görkəmli xanəndənin vəfatından bir il sonra, 1966-cı ildə işıq üzü görmüşdü. Bu ilk nəşrdən sonra müəllif tərəfindən təkmilləşdirilərək iki dəfə - 1997 və 1991-ci illərdə təkrar çap edilmişdir. Ona görə də mən Seyid Şuşinski haqqında F.Şuşinskinin kitabındakı faktları təkrarlamamaq üçün 2002-2003-cü illərdə onun haqqında sağ qalan sənət dostlarının, tələbələrinin xatirələrini diktofona yazmışdım. Təəssüf ki, həyatın müxtəlif qayğıları, başqa-başqa mövzular üzərində iş Seyid Şuşinski haqqında düşündüyüm xatirələr kitabının yazılıb çap edilməsini gecikdirdi. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Seyid Şuşinskinin 130 illiyinin qeyd edilməsi haqqında" 4 fevral 2019-cu il tarixli Sərəncamı məni yenidən 2002-2003-cü ilə, söhbət edib xatirələrini diktofona yazdığım sənətkarların yanına qaytardı. Daxilən məmnunluq hissi keçirdim ki, nə yaxşı o zaman tənbəllik etməyib bu işi görmüşəm. Təəssüfləndim ki, illər öncə söhbət edib xatirələrni diktofona yazdığım sənətkarlardan - Kamil Əhmədov, Habil Əliyev, Vəli Məmmədov, İslam Rzayev, Ramiz Hacıyev, Əlibaba Məmmədov, Sabir Mirzəyev, Novruz Feyzullayev, Tələt Qasımov, İnqilab Quliyev, Mail Məhərrəmov dünyalarını dəyişiblər. Təsəllim budur ki, adlarını hörmət və minnətdarlıqla andığım bu insanlar cismən bizi tərk etsələr də, öz ölməz sənətləri ilə hər zaman bizimlədirlər. Onların və hal-hazırda yaşayan sənətkarların iyirmi il bundan qabaq Seyid Şuşinski haqqında söylədikləri xatirələr, zənnimcə, əlli il sonra da öz dəyərini itirməz. Çünki bu xatirələr ustad xanəndəyə bəslənən məhəbbətin, ehtiramın təcəssümüdür.

Mən iyirmi il bundan qabaq diktofona yazdığım xatirələrə qulaq asanda (ağ vərəqlərə köçürdüb işləyəndə) xəyalən əlli-altmışıncı illərə qayıtdım. Onlarla bir yerdə keçmiş M.Qorki küçəsində, A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində, Seyid Şuşinskinin muğam sinfində oldum. Royalın yanında fil sümüyündən düzəldilmiş əsasına söykənib gözlərini qapamış ustad Seyid Şuşinskini gördüm. "Bayatı-kürd", "Şur", "Bayatı-Şiraz", "Çahargah" oxuyan tələbələrin çaşdığı yerdə Seyidin "haraya" gələn əzəmətli səsini eşidib sükuta daldım.

Xatirələri qələmə alanda nədənsə mənə elə gəldi ki, sağlığında Seyidin heç zaman unuda bilmədiyi zəngin, çox zəngin bir keçmişi olub. Başqalarının yox, məhz özünün keçmişi. Çünki Seyid haqqında mənə xatirə danışanlar, xüsusilə tələbələri onun yaşlı vaxtını görmüşdülər. Aşıq gördüyünü çağırar




deyiblər. Nəyi görmüşdülər, təsadüfən ustadları haqqında nəyi eşitmişdilər onu da danışmışdılar. Bu xatirələrdə üst-üstə düşən məqamlar da, düşməyən anlar da var. Ustadlarına sayğı ilə yanaşan bu adamların yaddaş saxlancından gün işığına çıxan fərqli, amma bir-birini xatırladan məqamlar da az deyildir. Onun ailə qurmamasının səbəbini soruşduğum şəxslərdən qismən oxşar, qismən də fərqli cavablar aldım. Əsl həqiqəti isə şəxsi həyatı barədə danışmağı çox da sevməyən Seyid Şuşinski qəlbində o dünyaya aparıb.

Bəlkə də, səhvəm, bəlkə, müşahidələrim məni yanlış qənaətə sövq edir, ancaq nədənsə mənə elə gəlir ki, Seyid Şuşinski sağlığında cismən o zamankı konservatoriyanın birinci mərtəbəsində, daha sonra M.Qorki küçəsində, "A.Zeynallı"nın muğamsinfində dərs dediyi günlərdə də, xəyalən də olsa, daim heç zaman unuda bilmədiyi keçmişdə olub. Çünki onun yaşanmış keçmişində qaynar gəncliyi, çox zəngin mənəviyyatlı dostları, həmkarları vardı. Onun həyatından gəlib keçən şəxsiyyətlərin isə hər birisi bir aləm idi. Onun yaşanmış keçmişində kimlər yox idi? Baxın, Şuşada ensiklopedik bilik sahibi, şair, rəssam, musiqişünas Mir Möhsün Nəvvab, onun hücrəsində ondan dərs aldığı günlər, muğamlar barədə tarixi söhbətlər, Qarabağ şairlərinin beyit-ləşməsi, Şuşanın əsrarəngiz təbiəti, başı dumanlı dağlar, Cıdır düzü, o düzü bəzəyən Xarıbülbül çiçəyi, qıjıltıyla üzü arana axıb gedən Daşaltı çayı, İsa bulağı, hər daşı, hər küçəsi bir tarix olan ata yurdu. Səsləri ilə bütün Qafqaza səs salmış Cabbar Qaryağdıoğlundan, Keçəçioğlu Məhəmməddən nə qədər şeylər öyrənmişdi.

Böyük sənətkar kimi yetişməyin şərtləri çoxdur. Dünya gör-götür aləmidi. Seçib götürə bildiyin qazancındır. O, əgər 1911-ci ildən 1919-cu ilə qədər o zaman Qafqazın mədəniyyət mərkəzi olan Tiflisdə yaşamasaydı, dövrünün bir çox şəxsiyyətləri ilə tanış olmayacaqdı. Bu mədəniyyət mərkəzində xanəndə kimi tanınmasaydı, onu 1914-cü ilin əvvəlində "Ekstrofon" aksioner şirkəti Kiyevə dəvət edib səsini vallara yazmayacaqdı. Seyid Şuşinskinin onda 25 yaşı vardı. Bu yaşda olan xanəndələrin çoxu heç mağar toylarından kənara çıxa bilmirdi. Seyid Şuşinski isə təkcə toylarda, teatr tamaşalarının fasilələrində xanəndə kimi oxumurdu, həm də 1913-cü ildən başlayaraq tamaşalarda müğənni-aktyor kimi fəaliyyət göstərirdi. "O olmasın, bu olsun"da Sərvəri, "Arşın mal alan"da Əsgəri oynayan Seyid Şuşinski "Leyli və Məcnun"da İbn Səlamın, illər sonra hətta Nofəlin musiqi partiyasını oxumuşdu. Onu Tiflisin mədəni mühiti yetişdirmişdi. Bu mühitdə Mirzə Cəlil Məmmədquluzadə, Həmidə xanım Cavanşir, Əliqulu Qəmküsar, Hüseyn Cavid, Əziz Şərif, Mustafa Mərdanov, İbrahim İsfəhanlı, Mirseyfəddin Kirmanşahlı, Möhsün Sənani və daha onlarla başqa səhnə fədailəri, şeir-sənət xiridarları vardı. 1914-cü ildə Seyid Şuşinski Bakıdan Tiflisə qastrola gəlmiş Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Əhməd Ağdamski kimi müqtədir sənətkarlarla tanış olmuşdu. Seyid Şuşinski elə həmin ildə Tiflisdə qastrola gələn məşhur xanəndə Əbülhəsən xan İqbal-Soltanla dostlaşmışdı. Onun konsertlərinin uğurlu keçməsi üçün əlindən gələni etmişdi. Çünki xeyirxahlıq onun xislətindəydi.

Bakıda isə Seyid Şuşinski Üzeyir bəy kimi dahi bəstəkarla ünsiyyətdə olmuşdu. Onun rəhbərliyi ilə sənət dostları Mirzə Mansurla, Əhəmədxan Bakıxanovla Azərbaycan muğamlarını sistemə salmışdılar.

O, Fikrət Əmirovla, Qurban Pirimovla, Xan Şuşinski ilə, Bülbüllə, Zülfü Adıgözəlovla, Bəhram Mansurovla sənət dostluğu etmişdi.

Seyid Şuşinski "Azdrama"da, Azərbaycan Dövlət Konservatoriyasında, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında, Azərbaycan Radio Komitəsində çalışmış, 22 il A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində muğamdan dərs demişdi. Onun yetirməsi olan xanəndələrin şöhrəti Azərbaycan Respublikasının hüdudlarını çoxdan aşmışdır. Seyid Şuşinskinin gələcək mənəvi həyatı tələbələrinin, onlardan sonra gələn və gələcək hər bir xanəndənin muğam dünyasında yaşayacaqdır. Necə ki Azərbaycan muğamları əsrlər boyu ağızdan-ağıza, ustaddan şəyirdə keçərək əbədilik qazanıb, Seyid Şuşinski də bu muğam mülkünün təkrarolunmaz bələdçisi kimi daim öndə gedəcəkdir.

Bizim bu kitabımızda Seyid Şuşinskini təkcə tələbələri, həmkarları yad etməyib, bizdən əvvəl onu müasirləri Mirzə Muxtar Məmmədov, Cəlil bəy Bağdadbəyov, Camo Cəbrayılbəyli, Mustafa Mərdanov, Əziz Şərif, Xan Şuşinski, Yavər Kələntərli, Xanlar Haqverdiyev, Bəhram Mansurov, Fikrət Əmirov, Firidun Şuşinski, Vəli Məmmədov, Mürşüd Məmmədov, Yaqub Məmmədov, Nəriman Əliyev, Xanəli Quliyev kimi sənətkarlar da anıblar. Onlar bu ustad xanəndəni kitablarında, məqalələrində, müsahibələrində hörmətlə yad etmişlər. Onların bu xatirə yarpaqlarını kitablardan, qəzet səhifələrindən götürərək kitaba əlavə etmişik.

Kitabdakı xatirələrdən də göründüyü kimi, bu böyük xanəndəni nə müasirləri, nə tələbələri onu rəsmi sənəddəki kimi - Mir Möhsün adı ilə yad etmir, hər kəs ona Seyid və Ağa deyə müraciət edib və bu adla da tanınıb. Bizim söhbət etdiyimiz sənətkarlar da onu gah Seyid, gah da Ağa deyə yad ediblər. Eyni müsahibələrdə hər iki ad ehtiramla, qoşa qanad kimi çəkilir. Biz də şifahi danışığın şəhd-şirəsini qorumaq üçün bu cür də yazıya aldıq.

**Seyidə təkcə müqəddəslərimizin ruhunun daşıyıcısı olduğu üçün Ağa deməyiblər. Həm də davranışına, rəftarına, kübarlığına, ziyalılığlna, nəcibliyinə görə ona Ağa deyiblər. Ağa adı ona hər mənada yaraşır.**

## *TƏBRİK*




**Qırğızıstan Milli Yazarlar Birliyinin Beynəlxalq Əlaqələr üzrə katibi, "Yanqi Ovoz" Mərkəzi Asiya Tarixçilər və Yazarlar Birliyinin sədri, Qırğızıstanda Əmir Teymur Fondunun baş direktoru, Qırğızıstan üzrə Çukurova Ədəbiyyatçılar Dərnəyinin Onursal başkanı dəyərli dostum və qardaşım Joldoşbek Monoldorovu Qırğızıstan prezidenti Sadır Japarov tərəfindən Fəxri Fərmanla təltif edilməsindən dolayı səmimi qəlbdən təbrik edir və gələcək işlərində uğurlar diləyirəm. Dəyərli dostlar var olsun! Türk Dünyamız var olsun!**

**Hörmətlə:**
**AYB-nin üzvü, Dünya Türklərinin Koordinasiya Mərkəzinin rəhbəri İLQAR TÜRKOĞLU**

# "Yuxuların şirin vaxtı"

**Şair İnqilab İsaq məmləkətin Gəncəbasar bölgəsində yaşayır, yazıb yaradır. Ölkənin baş kəndindən uzaqda sözün xidmətində dayanan şair qələmə sarıldığı bu illər ərzində həmişə özünə və sözünə sadiq qalıb. Belə ki, onun bütün şeirlərindəki rəngarəngliyi bir məqam, yəni bir kəsişmə nöqtəsi həmişə müəllifi təqdim edir. Şerin ümumi HAVASI onun kimə aid olduğunu, kimin qələmindən puçurladığını büruzə verir.**




Təbii ki, bu mənim özəl qənaətimdi və ədəbiyyatşünasların haqqına girmədən İnqilab İsaqın daimi oxucusu olaraq bu münasibətimi sərgiləyirəm. Elə yazı masamın üstündə qərar tutub tez-tez həmsöhbətim olan " Yuxuların şirin vaxtı" da məni öz qənaətimi yazıya köçürməyə həvəsləndirdi... İsti yay günlərində İnqilab səmimi avtoqrafla bağışla son kitabını mənə...

Həmin gündən də vaxtaşırı pıçıldaşırıq...

***Getdiyim, yetdiyim mənzil qarşıda...***
***Yuxular gecəmə duzlanmış yara.***
***Sözümü sağlıqla yaşamaq üçün -***
***Ömür köçürürəm bu misralara.***

Və yaxud:

***Arxanca su atıram***
***Buludlanır dualar.***
***Nə yaxşı sabahları***
***Durub, bir gözləyən var.***

Üç bölümdən ibarət olan kitabda şair hər birimiz üçün önəmli ola Vətən, şəhid, qazi , eləcə də sevgi mövzularını şeirlərə hopdurub. Ona görə də ,oxucu bu kitabda mövzu sıxıntısına, bir az da dəqiq ifadə etsəm bir rəngə tuş gəlmir. Məhz bu da ona göz, könül rahatlığı bağışlayır:

***Şəhidlər - böyüdülmüş şəkillər!***
***Asılıb***
***günəşin, torpağın***
***yaxasından...***

Və yaxud:

***Oyadacaq buludları -***
***İçəcək, içəcək - Torpaq!***
***Bir gün...***
***göyərəcək,***
***göyərəcək, bütün ayrılıqlar***
***və göz yaşları...***

İnqilab İsaqın son kitabı ilə olan bu qısa . lap elə atüstü söhbətimin sonunda bir daha əminliklə demək istəyirəm ki, Gəncəbasarda BİR ŞAİR SÖZÜNÜ MİSRALARA ÇEVİRİR ! Və bizim üçün yazır :

***Oxumaq çətindi...sual, cavablar***
***Yaman bir-birini edir ittiham.***
***Hər sözün, kəlmənin qərib işığı -***
***Sinənin altında verir imtahan***

Mən bu misraların müəllifinin imtahandan uğurla keçdiyinə əminliklə inanıram !

**Əbülfət Mədətoğlu**

## *Həmid Herisçi: "Ədəbi gənclik məişətə ilişib qalıb"*



**"İndiki ədəbi gənclik, məişət lövhələrinə, dialoqlarına, qəhrəmanlarına çox taxılıb. Adi yaşantını, öz kasıb güzaranını mətnə köçürüb guya ədəbiyyat və əbədiyyat qazanacaq. Məişət lövhələri, bəli ədəbiyyat üçün vacibdi. Ancaq həmişə detaldı. Xırdalıqlardı. Naxışlardı ancaq".**

Adalet.az xəbər verir ki, aparıcı, yazar Həmid Herisçi müasir dövrün ədəbi gəncliyindən gileylənib. O, gənclərin yazdıqlarının məişət mövzusundan kənara çıxmadığını vurğulayıb. "Real sirri olmayan ədəbi mətn, ilk növbədə ədəbiyyata çevrilməyəcək. Ötəri bir əsər olacaq, azca tirajlanacaq, vəssəlam.Səs-küy də yarada bilər arada. Canında real, diri sirr, məxfilik yaşadan mətn isə, yox, dəfələrlə diriləcək.

Çin sədlərini, xalqları, ədəbiyyatları aralayan tikanlı məftilləri aşacaq. Bircə həmləsi ilə, vəssəlam. Bu səbəbdən Məlik Məmməd nağılı, yunan əsatirləri ölməzliyə malikdi. Şifrələr, sirlərlə doludurlar axı.Ədəbi mətn, həm də interteksuallıq istəyir. Yəni, mütləq bir başqa məlum mətnlə daxili gizli dialoqda olmalıdır.

Şəkildə gördüyünüz, göyərçinlərin su qabıdır. Bakı quşbazlarını ixtirasıdır. Əl işidir. Həndəsəsi mükəmməldir. Miqyasını böyüt, riyazi ölçülərini artır, vəssəlam. Nümunəvi memarlıq nümunəsi qazanacaqsız. Kiçik ölçülü modelləri, mətnləri bax beləcə qısası, qədim, müasir mətnlərdə axtarıb tapın. Sonra miqyasını genişləndirin. Gözünüz iti olsun. Sirlər, aşkarda gizlədilib".

**Emin**

## *Sərdar Ortaç maşında yatır?...*

**Məşhur müğənni Serdar Ortaçın maşında yatdğı məlum olub.**

Adalet.az-ın məlumatına görə, sənətçi uzun müddətdir ki, özünün VİP mikroavtobusunda qalır.

Serdar orada xüsusi çarpayı düzəltdirərək ev mühiti yaratmağa çalışıb.

O, əsasən paylaşımlarını bu avtobusdan edirmiş.

Qeyd edək ki, S.Ortaç sənəti ilə yanaşı şəxsi həyatı, pis vərdişləri və Ahmet Kaya ilə münasibətinə görə gündəm olub.

**Əntiqə**

# Yazıçı: "O, şəxsiyyət deyil axı"

**Yazıçı Seyran Səxavət "Qapqara" proqramında maraqlı açıqlaması ilə diqqət çəkibş**

Adalet.az xəbər verir ki, yazıçı xəyanət, xoşbəxtlik və həyatla mübarizə əzmi kimi fikirlərə aydınlıq gətirib:

"Bizim şəxsiyyətimizi təsdiq edən sənədə "şəxsiyyət vəsiqəsi" deyirik. Bəziləri isə "kimlik" deyir. Kimlik daha uyğundur. Çünki ələbaxanın da, mənəviyyatdan xəbəri olmayanın da vəsiqəsinə "şəxsiyyət vəsiqəsi" yazılır. O, şəxsiyyət deyil axı. Şəxiyyət tarixi yaradanlar və idarə edənlərdir. Onda belə çıxır ki, Azərbaycanda təxminən 11milyon əhali var. Bunların hamısı böyük



şəxsiyyətdir? Hamımız bilirik ki, bu belə deyil. Bir xalq bütövlükdə şəxsiyyətlərdən ibarət ola bilməz axı. Bu səbəbdən də o vəsiqənin adı "kimlik" olsa daha doğru olar. Yəni həmin sənəd sənin kimliyini təsdiq edər.

İnsan başını aşağı salıb adam balası kimi yaşamağı ilə məşğul olmalıdır. Çox ora- bura dartılmalı deyil. Mübarizə sözünü insanlar özlərindən uydurublar. Bu, uydurma bir məntiqdir. Mən işə gedirəm, işdən evə gəlirəm. Bu yaşamaqdır, mübarizə deyil. Ermənilərə qarşı mübarizə aparırıq deyirlər. Bu müharibədir, bu mübarizə deyil.

Mübarizə, xoşbəxtlik, xəyanətbunlar hamısı uydurma- uydurma şeylərdir. Heç nə özbaşına baş vermir. Hər şeyin bir səbəbi var.

Demokratiya ədalətsizliyi nizamlayan pərsəngdir. Sivilizasiya, yəni sivil bəşəriyyət deməkdir. Məsələn kim mənimlə necə istəyir elə danışa bilər. Bu sivilzasiya yox, zibilzasiyadır".

**Əntiqə Kərimzadə**

# Nəvai Metin: "İnsanlar zaman keçdikcə kübarlaşmaq əvəzinə vəhşiləşir"

*Rəssamlar bu dünyanı hamıdan fərqli görərlər. Onlar üçün həyat təkcə ağ və qara rəngdən ibarət olmur Rəssamın tablosu bir dünyadır, kim orda özünü nə rəng görürsə, artıq bu, insanın mənəvi dünyasından və əqidəsindən xəbər verir. Rəssamlığı hər kəs duymaz...*

*Müsahibimiz Nəvai Metin o peşəyə sevgisindən, rəssamlığın özəlliyindən və gözəlliyindən danşdı.*

**- Rəsmlərinizdə rəngləri özünüz seçirsiniz. Bəs tale sizə həyatda hansı rəngi seçdi?**

- Çox yaxşı başladıq. Bilirsiniz, belə deyək də, Tanrının mənə yazdıqlarını yaşayanda əhval-rühiyyəm hansı rəngdə olursa, hadisələri də o rəngə uyğun qarşılayıram. Mənim hansı abhavada olmağım mütləq "rəng"ə təsir edir. Elə vaxtlar ola bilər ki, heç qara rəng yada düşməz. Ancaq al-qırımızı düşündürər insanı. Lakin, bu taledir. Bizə elə şeyləri ərməğan edə bilər ki, mütləq qara rəngi düşünməli olarıq. İnsanın "rəng"ləri seçməyi alın yazısına bağlıdır.

**- Nəvai Metin insanın daxilini hansı rəngdə görür?**

- Bildiyiniz kimi mən portretlər çəkirəm. Bu iş elədir ki, bəzən (bir çox hallarda) insanın iç dünyasına da baxmaq olur. Çəkdiyin portretde tək üzün qırışları yox, həm də qəlbin kədəri görünə bilir. Sizə onu da deyim ki, bu, hər dəfə rast gəlinən hal deyil. Amma insanların daxili müəyyən qədər zahirində təzahür edir. Bütün bunlar əsərə də təsir edir.

**- Əsərlərinizi yaradanda fəsillərin əhvalınıza təsiri olurmu?**

- Əlbəttə, təbii ki, yaradıcı insanlara hər fəsilin öz təsiri mütləq ki olur. Bir eyni tablonu hər fəsildə rəssam bir



başqa cür görür, bir başqa çalarla əhatə edir.

**-Ünvanlı tablonuz olubmu?**

- Bəli olub. Hətta sifarişlə çəkdiyim tablolarda belə əsasən yaratdığım əsərin daxilən məzmununa fikir verirəm.

Yəni qarşıdakı insan kim olursa olsun, amalı nədir, məqsədi nədir və ya kimdir-bu, artıq önəmli deyil. Önəmli olan rəssamın sonda ortaya qoyduğu nəticədir- əsərdir.

**- Belə deyək də, rəssamlığın ilk addımların necə xatırlayırsınız?**

- Lap uşaq vaxtlarımdan rəsm çəkmişəm. Bəlkə də mənim yadıma gəlmir ilk rəsmlərim. Yəni o qədər erkən yaşlarımdan başlamışam.

Sizə deyim ki, məni nənəm böyütdüyü üçün biraz da ərköyün olmuşam. Yəqin siz bilərsiniz, nənə himayəsində olan uşaqlar bir az da şıltaq və çılğın olurlar. Və bu da mənim peşəmə öz müsbət təsirini göstərirdi ki, mən öz sevdiyim peşə ilə məşğul olurdum. Nənəm heç vaxt mənim hərəkətlərimin əksinə heç bir fikir irəli sürmürdü. Bu isə mənə bir uşaq kimi istənilən qədər azadlıq verirdi. Beləliklə, bu istək, bu həvəs məni Bakıya gətirdi. Tələbəlik illəri Daha sonra Akif Səmədlə tanışlığım oldu. Bu tanışlıq mənim həyatımda dönüş nöqtəsi oldu. İctimayyətə və mətbuata məni təqdim etməyi mənim üçün çox böyük dəstək idi. Allah ona rəhmət etsin. Ümumiyyətlə bir çox imzalar( dostlar) var ki, onlara təşəkkür borcum var.

**- Nəvai Metin üçün sənət nədir?**

- Mənim üçün sənət sevgidir, barışdır, gözəllikdir . Sənəti sevən insan qətiyyən pislik haqda düşünməz. Sənət özü xoşbəxlik rəngidir. Dünyanı ayaqda tutan da elə sənətdir və sənətçidir. Bu gün dünyada baş verən terrorlar, savaşlar, qarşıdurmalar, qurşun izləri- bir sözlə bütün pisliklər mədəniyyətsizliyin nəticəsidir. Əgər belə davam edərsə, demək ki, dünyanın sonu yaxınlaşır. Düşünürəm ki, hər bir bəşər övaldı dünyanı qorumaq üçün əlindən gələn müsbət əməlləri həyata keçirməlidir. Qısası belə anlada bilərəm:- qarışqa və su misalı.

**- Sizin üçün "son hədd" nədir?**

- Ən böyük mədəniyyətsizlik insana qəsddir ki, bu da bu gün gözümüzün qarşısında baş verir. Bütün məcburiyyətlər insana mütləq ki qıcıq verir. Sanki insanlar zaman keçdikcə kübarlaşmaq əvəzinə vəhşiləşir. Mənim üçün son hədd, vəhşilik simvolu- insana qəsd etməkdir.

**- İtirdiklərinizə təəssüflənirsiniz?**

- İtirdiyimə heç bir zaman təəssüflənmədim. Çünki gərəkli olanı heç vaxt əlimdən buraxmadım. Gərəkli olmayanları isə istəməsəydilər belə imtina edəcəkdim. Hələ sizə deyim ki, bəzən sevindirici hala çevrilir itirmək.

Amma bütün bunlara baxmayaraq məndən aslı olmayan itkilər də olur. Dəyərli adamı da itirmək. Bu çox kədərlidir O da taleyin və təbiətin qanunudur. Bir müddət əzab çəkib, sonra alışıram bu əzaba.. Qismıtlə razılaşmalı oluram . Heç başqa yolum da olmur.

Bu illər ərzində irili- xırdalı dostlar qazandım. O xırda və cılız dostları öz əməllərinin nəticəsi olaraq xərclədim, getdilər. Amma iri dostlara toxunmadım, əksinə, onları göz bəbəyim kimi qorudum.

**- Sevginin rəngini çəkmək mümkün olsaydı sevgini hansı rənglə çəkərdiniz?**

- Tablodakı bütün rənglər sevgi rəngidir. Hətta o tabloda qara rəng olsa belə. Savaş təsvir olunan tablo qisas , nifrət, intiqam hissi aşılayır. Bu da yeni bir qarşıdurmaya səsləyir insanları. Mənim sevib seçdiyim yol isə bütün savaşlara inad sənətdir. Bu yolun adı sevgi və barışdır!

**Əntiqə Kərimzadə**

## *Psixoloqdan məsləhət: Çalışın dilənçi təfəkkürlü insanlardan uzaq durun*



**"Kasıblıq (nishebrod) təfəkkürü insanın pulunun sayında deyil. Çox vaxt belə insan düşünür ki, o kasıbdırsa, hamı ona borcludur, kömək etməlidir".**

Adalet.az xəbər verir ki, psixoloq Fərqanə Mehmanqızı belə deyib.

"Yəni atalar demiş "al molladır". Özü isə "Allahdan buyruq, ağzıma quyruq" misalı heç nə etməli deyil. Axı o kasıbdır, aləm ona borcludur. Və beləliklə başqalarının xeyirxah hisslərindən istifadə edərək "najivatsa" edir. Çalışın dilənçi təfəkkürlü insanlardan uzaq durun. Onlar sizin "energetil gəlir bloku"nuzu bağlayır".

**Emin**

Nəbi Muxtarov, Ramiz Cəbrayılov və Əbülfət Mədətoğlu **Mirqiyas Kazımova anasının** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 146
Çapa imzalanmışdır: 14.09.2023